e-ISSN: 2789-6919

# Elmi Tədqiqat

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR
## XII TEZİSLƏR TOPLUSU

## MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION
## XII THESES COLLECTION

(12.02.2025)

# ELMİ TƏDQİQAT
**Beynəlxalq Elmi Jurnal**

---

# ELM VƏ TƏHSİLDƏ MÜASİR TƏLƏBLƏR
## XII TEZİSLƏR TOPLUSU

https://doi.org/10.36719/2025/XII

# SCIENTIFIC RESEARCH
**International Scientific Journal**

---

# MODERN REQUIREMENTS IN SCIENCE AND EDUCATION
## XII THESES COLLECTION

**(12.02.2025)**

**Bakı – Baku**
**2025**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Rey estr № 4336

On 01.03.2021, the journal
was included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

---

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
"Azerbaijan" Publish House,
6-th floor

**Tel.:** + 994 99 807 67 68
+ 994 99 808 67 68
+ 994 12 510 63 99

**e-mail:**
tezis.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.

© It is necessary to use reference while using the journal materials.

© https://aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Ulduz HƏŞİMOVA**, ARETN Fiziologiya İnstitutu / Azərbaycan
**Prof.Dr. Əlövsət QULİYEV**, ARETN Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Fəxrəddin YUSUBOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Sədaqət HƏSƏNOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Afaq MƏMMƏDOVA**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Nəvai adına Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI**, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TANRIVERDİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA**, Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV**, ARETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV**, Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY**, Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
**Dr**. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

# THE ORGANIZING COMMITTEE

## Chairman

**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan

## Deputy chairmen

**Mubariz HUSEYINOV**, Editor-in-chief of International Online Journal "Scientific Research" / Azerbaijan

**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan

## Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan Science Center / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Ulduz HASHIMOVA**, Institute of Physiology of MSERA / Azerbaijan
**Prof. Dr. Alovsat GULIYEV**, Institute of Soil Science and Agro Chemistry of MSERA / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Karim SHUKUROV**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Faxraddin YUSUBOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Sadagat HASANOVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV**, Karabakh University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Afat MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan

**Prof. Dr. Afag MAMMADOVA**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Gulsanam NOROVA**, Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI**, Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV**, Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA**, Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU**, Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University /Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV**, Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY**, Geneva College in Beaver Falls, Pennsylvania / USA
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

**https://doi.org/10.36719/2025/XII**

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Şəhla Süleymanova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2499-7197
shahla.suleymanova@bk.ru

## Şagirdlərin estetik tərbiyəsinin inkişafında bədii yaradıcılıq fəaliyyətinin rolu

***Açar sözlər:*** *istedad, şagird, müəllim, təlim, bədii yaradıcılıq*
***Keywords:*** *talent, student, teacher, training, artistic creativity*

Estetik tərbiyə, ilk növbədə, təbiətdəki, ictimai münasibətlərdəki gözəlliyi estetik ideal nöqteyi-nəzərindən dərk etməyə və qiymətləndirməyə qadir olan, həmçinin estetik fəaliyyətə ehtiyac duyan yaradıcı fəal şəxsiyyətin formalaşdırılmasıdır. Reallıqda olan gözəlliyin incəsənət üçün mənbə rolu oynadığını, dünyaya estetik münasibətin isə gözəllik qanunlarına uyğun yaradıcılıq istəyi olduğunu şagirdlərə aşılamaq çox vacibdir. Düzgün təşkil edilmiş estetik tərbiyə şagirdin özünü dərk etməsi və hərtərəfli və sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

Müasir dövr istedadlı gənclərin formalaşmasının, inkişafının yüksək səviyyədə təşkilini hədəfləyir. Ancaq istedad, istedadlı anlayışı yeni dövrdə deyil, məhz qədim zamanlarda da var idi. İnsan yaranandan əmək prosesində iştirakında mütləq şəkildə yaradıcılığını ortaya qoymuşdur. Təbii ki, bu proses indiki dövrümüzə qədər daha da təkmilləşərək gəlib çıxmışdır. Qədim dövrdən başlayaraq insan yaradır və yaratdıqlarını yaşatmağa

**https://doi.org/10.36719/2025/XII**

çalışır. Müasir texnologiya dövrü olsa da, hələ də insan əməyi vasitəsilə ortaya qoyulan bədii yaradıcılıq nümunələri öz əhəmiyyətini itirməmiş, əksinə, daha da dəyərli forma almışdır.

XXI əsr istedadın inkişafını hədəfləməklə keçmiş təcrübənin vasitəsilə daha da kreativ fikirlər ortaya qoymağa çalışır. Bu xüsusda erkən yaşlarda uşaqlarda olan istedadın, talantın olduğunu anlamaq, bu yolda onlara dəstək olmaq lazımdır. Uşaq incəsənətinin inkişafında bədii yaradıcılıq nümunələrinin də rolu mühümdür. Bədii yaradıcılıq nümunələri olan şeir, hekayə, rəsm əsərləri, bəstələnən mahnılar və s. şagirdlərin maraq dairəsini əhatə etməklə yeni yollarla təsirli gücə malik ola bilər. Bu zaman şagirdlərin istedadının hansı istiqamətdə olduğu müəyyənləşdirilməli, onlara bu yolda nəzəri bilik verilməli, praktik fəaliyyətdə dəstək olunmalıdır. Nəzərə alsaq ki, yaradıcılıq işləri rəsm, heykəltəraşlıq, fotoqrafiya, ədəbiyyat və musiqi də daxil olmaqla bir çox formada ola bilər. Bu zaman şagirdlərin maraqları nəzərə alınmalı və stimullaşdırılmalıdırlar. Çünki, bədii yaradıcılıq mədəniyyət və incəsənətdə müəlliflərə öz düşüncələrini, emosiyalarını və ideyalarını ifadə etməyə, eyni zamanda unikal və maraqlı əsərlər yaratmağa imkan verən mühüm hadisədir.

Bədii yaradıcılıq müəllifin öz düşüncələrini, ideyalarını, duyğularını və hisslərini ifadə etdiyi sənət əsərlərinin yaradılması prosesidir. Hansı ki burada yaradıcı insan sənət əsərinin və ya sənət formasının yaradılması prosesində öz qabiliyyətini ortaya qoyur. Bu zaman şagird ideyalarını, emosiyalarını nümayiş etdirir, planlaşdırır və bənzərsiz fəaliyyət göstərir.

Bədii yaradıcılığın özəlliyi ondan ibarətdir ki, o, müxtəlif məqsəd və vəzifələrə yönələ bilir. Məsələn, müəllif özünü ifadə etmək, fikir və düşüncələrini çatdırmaq, diqqəti müəyyən məsələlərə və ya mövzulara çəkmək məqsədilə əsərlər yarada bilər. Bundan əlavə, bədii yaradıcılıq janr, texnika, material və digər

**https://doi.org/10.36719/2025/XII**

amillərlə müəyyən edilən müxtəlif istiqamət və üslublara malik ola bilər.

Uşaqlar özlərini ifadə etdikcə inkişaf edirlər. Bu səbəbdən də incəsənət uşağa özünü inkişaf etdirmək üçün böyük imkan yaradır. İncəsənət, ən sadə tərifilə desək, yaradıcılığın və ya təxəyyülün ifadəsidir. İncəsənət uşağın özünü tanıması, şəxsiyyətinin inkişafı, sosiallaşması və emosional ifadəsi üçün çox vacibdir. İncəsənət uşaqlarda olan enerjini və mövcud imkanları ortaya qoyur və onlara hər şeyi etməyə imkan verir. Yaradıcılıq uşağın ünsiyyət və özünüifadə prosesində, uğur və özünə inam hissinin inkişafına şərait yaradır.

Şagird məsuliyyət götürməyə, özünü tanımağa, özünü idarə etməyə və qiymətləndirməyə imkan verəcək bilik və bacarıqlara yiyələnir. İncəsənət təhsili bu bacarıqların mənimsənilməsində oyunlar və sosial münasibətlər qədər təsirlidir. Bu prosesdə övladının incəsənət sahəsi ilə məşğul olması əksər valideynlərin üstünlüyüdür.

Ancaq təəssüflə qeyd etməliyik ki, valideynlər övladlarının akademik istedadının inkişafı üçün nə isə etməyə çalışırlar. Bu da bədii yaradıcılığı olan, bədii istedadının inkişafını gözləyən şagirdlərin daxilində bir arzu olaraq qalır. Halbuki, onlar bu istiqamətdə dəstək alsalar, gələcəyin talantlı dahiləri ola bilərlər. İstedad dahinin imkanı kimi qəbul edilir. Dahi istedadın ən yüksək forması, yaradılış nəticələrinin xüsusi əhəmiyyətidir. İ.Kant yazırdı ki, "dahi sənətə hökm verən istedaddır". Əslində uşaq vaxtı valideynlər bilmədən də uşaqların körpə vaxtında duyğularından istifadə etməyə başlayır. Hansı ki, uşaqlar duyğuları vasitəsilə gördükləri, toxunduqları nələrdənsə həzz alır. Bu da onları gələcəkdə incəsənətə istiqamətləndirəcək başlanğıc olaraq xırda detallardır.

Övladlarını daima baxmağa, dinləməyə, toxunmağa və qoxulamağa təşviq edən valideynlər uşağa mümkün olan ən müs-

**https://doi.org/10.36719/2025/XII**

bət şəkildə daxili təcrübə dünyası ilə xarici ifadə dünyası arasında körpü qurmağa kömək edir.

Uşaqlarda incəsənətə maraq iki yolla yarana bilər. İlk növbədə uşağın xüsusi istedadına uyğun incəsənət adamı kimi yetişdirilməsindən, bədii fəaliyyətlə intensiv maraqlanmasından, fəaliyyətlə bağlı dərslər keçməsindən danışmaq olar. Belə bir təcrübə üçün uşağın nə ilə maraqlandığı müəyyən edilməlidir. Çünki sənətkar olmaq uzun və tələbkar bir yoldur.

İkinci yol, bədii fəaliyyət vasitəsilə uşağın həyatında incəsənətin olmasıdır. Rəsm, musiqi, rəqs və teatr kimi fəaliyyətlər uşağın dünyasına böyük töhfə verir.

Beləliklə, ibtidai sinifdə həm təlim prosesində, həm dərsdənkənar məşğələlərdə estetik tərbiyənin inkişafı üçün xüsusi imkanlar vardır. Estetik tərbiyənin inkişafında bədii yaradıcılıq fəaliyyətinin formalaşdırılması yönündə müsbət nəticələr alınmasında 6 - 10 yaş ideal bir yaş dövrüdür. Burada müəllim şagirdin həyatında əsas rol oynayır. Bundan istifadə edən mahir müəllimlər təkcə estetik cəhətdən inkişaf etmiş şəxsiyyət üçün möhkəm zəmin yaratmağa deyil, həm də estetik tərbiyə vasitəsilə insanın həqiqi dünyagörüşünün əsasını qoya bilirlər. Çünki məhz bu yaşda uşağın dünyaya münasibəti formalaşır və gələcək şəxsiyyətin mühüm estetik keyfiyyətləri inkişaf etdirilir.

**https://doi.org/10.36719/2025/XII**

**Ayəddin Əliyev**
Lənkəran Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-8581-209X
ayeddin59@mail.ru
**Aydan Əlizadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-4855-9281
aydan.alizade333@gmail.com

# İbtidai siniflərdə aparılan oyunların psixoloji əsasları

***Açar sözlər:*** *oyun, psixoloji əsas, idrak prosesi, məntiqi təfəkkür, qavrayış*

***Keywords:*** *game, psychological foundation, cognitive process, logical thinking, perception*

İbtidai siniflərdə oyunların psixoloji əsasları uşaqların inkişafına təsir edən bir çox mühüm aspektləri əhatə edir. Oyunlar ibtidai təhsil pilləsində uşaqların sadəcə əylənmək məqsəqilə deyil, onların bilik, bacarıq və şəxsiyyətlərinin inkişafı üçün əhəmiyyətli vasitədir. Bu dövrdə tətbiq olunan oyunlar uşaqların zehni inkişafı ilə yanaşı, həm də onların sosial - emosional inkişafını dəstəkləməyə xidmət edir. İbtidai siniflərdə oyunların tətbiqi ilə uşaqlar öz emosional, sosial və idrak potensiallarını kəşf edir, formalaşdırır və təkmilləşdirirlər. Bu səbəbdən, oyunlar pedaqoji prosesin ayrılmaz və mütləq hissəsi olmalıdır. Dərs prosesi zamanı keçirilən oyunların məqsədəuyğun şəkildə keçirilməsi uşaqların potensialını tam şəkildə ortaya çıxarılmasına kömək edir. Oyunlar sadəcə pedaqoqların dərs keçirilmə üsulu

**https://doi.org/10.36719/2025/XII**

deyil, əsas məqsədi uşaqların dünyanı anlama, öyrənmə və xoşbəxt bir mühitdə böyüməsi üçün əvəzolunmaz bir vasitədir.

Oyunlar uşaqların idrak proseslərini: diqqət, yaddaş, hafizə, qavrayış və təfəkkürünü inkişaf etdirir. Oyun zamanı müəllimin "Kim daha tez tapacaq?" sualı uşaqların diqqətini toplamağa, müxtəlif obyektləri, rəngləri, əşyaları, forma və hadisələri yadda saxlamaqla ətraf aləm haqqında fikirləri formalaşmaqla qavrayışı inkişaf etdirir, sözlər və şəkilləri yadda saxlamaqla yaddaşları möhkəmləndirir. Məntiqi oyunlar da uşaqların analitik və məntiqi təfəkkürünü formalaşdırmağa kömək edir.

Oyunlar eyni zamanda uşaqların emosional-psixoloji inkişafına: özünüifadə, özünəinam, stressin azaldılmasına kömək edir. Oyunlar uşaqların özünü rahatlıqla ifadə etməsinə, verilən tapşırığın öhdəsindən gəlməklə özünəinam yaranır. Fiziki fəaliyyətlər uşaqların gündəlik həyatdakı streslərini azaldır.

Oyunlar uşaqların sosial inkişafına da kömək edir. Bu zaman uşaqlar yoldaşları ilə komanda şəklində oynamağı, əməkdaşlıq etməyi, liderliyi və başqalarına hörmət etməyi bacarırlar. Oyun zamanı uşaqlar asanlıqla ünsiyyət qurmağı və sosial bacarıqlarını inkişaf etdirirlər.

Eyni zamanda "Topu tut" kimi fiziki fəaliyyətlər uşaqlarda motorikanı inkişaf etdirir. Bununla yanaşı, onlar oyun vasitəsilə bilikləri daha asan mənimsəyir. Uşaqlar oyun zamanı əldə etdikləri nəticələr vasitəsilə öz güclü və zəif tərəflərini bilirlər. Oyun mühitində uşaqlar səhv etməkdən çəkinmirlər, çünki bu mühit daha çox dəstəkverici və az təzyiqlidir. Bu, uşaqlarda öyrənmə qorxusunun aradan qalxmasına və yeni biliklərə açıq olmasına kömək edir.

İbtidai siniflərdə aparılan oyunların psixoloji əsasları uşaqların yaş xüsusiyyətlərinə, idrak proseslərinin inkişafına və sosial-emosional formalaşmalarına uyğun şəkildə təşkil olunur. Bu oyunlardan tədris prosesində istifadə edildikdə uşaqların hərtərəfli inkişafı təmin olunur.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 13-17**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection / 13-17**
**https://doi.org/10.36719/2025/XII**

**Yaqub Səmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1584-9317
yaqub.semedov63@mail.ru

# Dağlıq Qarabağ bölgəsində həyata keçirilən antiterror əməliyyatı və onun nəticələri (19-20 sentyabr 2023-cü il)

***Açar sözlər:*** *Azərbaycan ordusu, erməni separatçıları, antiterror, əməliyyat, müqavilə*
***Keywords:*** *Azerbaijani army, Armenian separatists, anti-terrorism, operation, contract*

2020-ci ilin sentyabr ayının 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi dövründə rəşadətli ordumuz erməni işğalı altında olan torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan ordusu bu qələbə ilə bütün dünyaya öz qüdrətini göstərdi. Lakin ordumuzun bu qələbəsini həzm etməyən ermənilər 2020-ci ildən - 2023-cü ilə kimi Azərbaycan tərəfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, öz fitnəkar əməllərindən əl çəkmir və yenə də xalqımıza qarşı müxtəlif təxribatlara əl atırdılar.

2023-cü ilin martında bu təxribatlar sözün əsl mənasında, özünün kulminasiya nöqtəsinə çatdı. Erməni işğalçılarının təxribatı nəticəsində Şuşa (Həbibov, 2024) və şərti Azərbaycan- Ermənistan sərhəddində tərəflər arasında silahlı toqquşmalar baş verdi.

2023-cü il aprel ayının 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq Ermənistan ilə sərhəddə, Laçın–Xankən-

di yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsinin qurulduğunu bildirdi. Buna baxmayaraq Ermənistan silahlı qüvvələri 10 minlik (Mehdiyev, 2024) hərbi birləşməsi Azərbaycanın Qarabağ bölgəsində təhlükə mənbəyi olaraq qalırdı.

2023-cü il sentyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Hikmət Hacıyevin Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpus üçün təşkil olunan brifinqdə bildirir ki, Ermənistan 10 noyabr 2020-ci il öhdəliklərinə zidd olaraq Üçtərəfli Bəyanatını nümayişkaranə şəkildə pozur" - brifinqdə qeyd olundu (Azərbaycan, 2023).

Lakin verilən bəyanatlara baxmayaraq erməni separatçıları yenə də, öz təxribatçı fəaliyyətlərini davam etdirirdilər. Belə ki, 2023-cü il sentyabrın 18-də isə ermənilərin yol üzərində yerləşdirdiyi minalardan 6 Azərbaycan vətəndaşı öz həyatını itirdi (Süleymanov, 2024). Bunun ardınca, yəni sentyabrın 19-da saat 01:00 radələrində Füzuli rayonu ərazisində Azərbaycan vətəndaşlarına qarşı törədilən terror-təxribat əməlləri nəticəsində ağır yol-nəqliyyat hadisəsi baş verdi, avtomobilin aşması nəticəsində DİN-in 3 polis əməkdaşı həyatını itirdi, 6 polis əməkdaşı isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

Ona görə də, mövcud ağır hərbi-siyasi durum Azərbaycanın bu bölgəsində Respublikanın Konstitusiya quruluşunun bərpa edilməsi istiqamətində lokal xarakterli antiterror əməliyyatının həyata keçirilməsi zərurətini tam kəskinliyi ilə qarşıya qoydu. 2023-cü ilin sentyabrın 19-da başlanan - 23 saat 46 dəqiqə davam edən antiterror əməliyyatı sentyabrın 20-də Azərbaycan ordusunun erməni hərbi birləşmələri üzərində tam qələbəsi ilə başa çatdı. Bu qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi köklü şəkildə öz həllini tapdı. Bu qələbə sayəsində Azərbaycan ordusu həm ermənilərə, həmçinin onun havadarlarına öz gücünü və qüdrətini bir daha göstərdi.

**https://doi.org/10.36719/2025/XII**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, cəmi bir sutka ərzində 406 kvadratkilometr ərazi yad ünsürlərdən təmizlənərək Ordumuzun tam nəzarəti altına alındı. Əməliyyat zamanı düşmən ölən 310 nəfər və yaralı 614 nəfər olmaqla xeyli canlı qüvvə itirdi. Ordumuzun dəqiq zərbələri nəticəsində düşmənin 8 tankı, 22 artilleriya qurğusu, 14 minaatanı, 3 zenit kompleksi, 8 radioelektron mübarizə vasitələri, 9 hərbi nəqliyyat vasitəsi olmaqla çoxsaylı silah və texnikası məhv edildi. Bundan başqa, 1731 müxtəlif döyüş texnikası, eləcə də 18 min 664 atıcı silah ələ keçirildi (Hərb tariximiz, 2024).

2023-cü il sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən silahlı Ermənistan hərbi qüvvələri, yerli qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Azərbaycan ərazilərini tərk etməli, qanunsuz silahlı dəstələr buraxılmalı, silah-sursatı təhvil verilməli və bütün bu proseslər isə bütövlükdə Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilmiş formada həyata keçirilməli idi.

Sentyabrın 20-də hərbi əməliyyatların dayandırılması barədə razılıq əldə olunsa da, lakin, erməni xəyanətkarlığı nəticəsində döyüşlər sentyabrın 21-də də davam etdirildi. Bununla belə, müqavimətin mənasız olduğunu anlayan Qarabağın erməni əhalisinin bir qrup nümayəndəsi 2023-cü il sentyabrın 20-də əldə olunan sazişə uyğun olaraq sentyabrın 21-də səhər saat 9:00 radələrində görüş üçün Yevlax şəhərinə gəldi və ilkin görüşlər keçirildi. Görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın yerli erməni əhalisinin inteqrasiyası və digər məsələlər mühüm yer tutdu.

Beləliklə, 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin qüdrətli ordumuzun qarşısında 23 saat 43 dəqiqə dayanmağa gücü çatdı (Mustafayev, Məhərrəmov, 2023). 2023-cü il sentyabrın 28-də isə Xankəndidəki hərbi xunta

"Dağlıq Qarabağ Respublikası" adlandırılan qondarma qurumun buraxıldığını elan etdi. Qanunsuz silahlı birləşmələr tərk-silah olundu, onlara məxsus silah-sursat müsadirə edildi, döyüş mövqeləri, dayaq məntəqələri və istehkam qurğuları dağıdıldı (Abdullayev, Bayramov, 2024, s.106). Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldu və Qarabağdakı erməni separatizminə son qoyuldu.

## Ədəbiyyat

1. Azərbaycan ərazisində yerləşdirilən qanunsuz erməni silahlılarının sayı məlum olub (Ordu.az). (2023). https://ordu.az/az/news/281697.. 18 Sentyabr.
2. Abdullayev, M.Q., Bayramov, A.C, Qulusoy, R.E. (2024). 2023-cü il 19-20 sentyabrda Azərbaycan ordusunun Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri. Abituriyentlər üçün elmi-metodiki məqalə (tələbə - qəbulu 2024). №2. s.105 - https://dim .gov.az/ storage/i block/5f7/ 5f7a40 b591a4 fc4c1577 be32615d43ee.pdf s.
3. Həbibov, H. (2024, 09.12). Şanlı Qələbələr ayı –Sentyabr. https://tv.ikisahil.az/post/542339-shanli-qelebeler-ayi-sentyabr12.09.2024
4. Hərb tariximizin ən parlaq səhifələrindən olan antiterror əməliyyatından bir il ötür. (2024.19.09).https://azertag.maz/xeber/herb_tariximizin_en_parlaq_sehifelerinden_olan_antiterror_emeliyyatindan_bir_il_otur-3186266. 19.09.
5. Mehdiyev, E. (2024.19.09). Erməni separatçılarını ağ bayraq qaldırmağa məcbur edən antiterror əməliyyatı - şərh. https://az.trend.az/azerbaijan/politics/3946644.html19 sentyabr
6. Müstafayev, O., Məhərrəmov, V. (2023.10.07). Tariximizin qürur duyulası səhifəsi. https://mod.gov.az/az pre/49701.html 07.10.2023

7. 7.Süleymanov, M. (2024.19.09). 19-20 sentyabr antiterror əməliyyatı Qarabağda erməni separatizminə son qoydu. https://xalqqazeti.az/az/siyaset/194176-1920-sentyabr-antiterror-emeliyyati-qarabagda. 19.09.

**Zahidə Hüseynova**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0000-0003-1434-8975
baku2029@gmail.com

# Adaptiv bədən tərbiyəsinin vasitələri

***Açar sözlər:*** *adaptiv bədən tərbiyəsi, əlilliyi olan şəxslər, fiziki hərəkətlər, fiziki fəaliyyət, hərəki bacarıqlar*

***Keywords:*** *adaptive physical education, people with disabilities, physical movements, physical activity, motor skills*

Adaptiv bədən tərbiyəsinin vasitələrinə fiziki hərəkətlər, təbiətin sağlamlaşdırıcı qüvvələri və gigiyenik amillər aiddir.

Fiziki hərəkətlər əsas spesifik vasitə kimi müalicə-profilaktik, təhsil, sağlamlaşdırıcı, tərbiyəvi və digər vəzifələrin yerinə yetirilməsi üçün ən səmərəli vasitə hesab olunur. Hərəkətlər xüsusiyyətlərinin təkmilləşdirilməsi, hərəki bacarıqların mənimsənilməsi, fiziki keyfiyyətlərin inkişafı fiziki məşqlərin dəfələrlə təkrarlanması yolu ilə əldə edilir. Eyni zamanda, hərəki fəaliyyət bütün bioloji struktur və funksiyalarda dəyişikliklərlə müşayiət olunur. Fiziki hərəkətlər əlilliyi olan şəxslərin, xüsusən də inkişafında qüsuru olan hər yaşda insanın orqanizminə müsbət təsir göstərir. Dayaq-hərəkət aparatını gücləndirir və inkişaf etdirir, sümüklərin böyüməsinə imkan verir, oynaqları və bağları möhkəmləndirir, əzələlərin gücünü, tonusunu və elastikliyini artırır, qan və limfa dövranını, maddələr mübadiləsini yaxşılaşdırır, mərkəzi sinir sisteminə müsbət təsir göstərir, beyin qabığının iş qabiliyyətini və güclü qıcıqlanmalara qarşı müqaviməti artırır, mərkəzi sinir sisteminin analitik-sintetik fəaliyyətini və iki siqnal sisteminin qarşılıqlı əlaqəsini, sensor sistemlərin funksiyalarını yaxşılaşdırır.

**https://doi.org/10.36719/2025/XII**

Fiziki hərəkətlərin bədənə və insana müsbət təsiri bir sıra amillərlə müəyyən edilir: birincisi, hərəkətlərin xüsusiyyətləri, onların mürəkkəbliyi, yeniliyi, emosionallığı, yükün həcmi və s.; ikincisi, fiziki hərəkətlərlə məşğul olanların fərdi xüsusiyyətləri: yaş, cins, sağlamlıq vəziyyəti, qüsurla məhdudlaşan hərəki imkanlar, xəstəliklər və təkrar pozuntularla müşayiət, qorunmuş funksiyaların vəziyyəti (hərəkət, sensor, intellektual), hərəki təcrübə, öyrənmə və ünsiyyət bacarığı, şəxsi maraq; üçüncüsü, xarici mühit – yəni, məşğələlər keçirilən zaman psixoloji mühit, şəxsin rahatlığı üçün məşğələlərin keçirildiyi yerin gigiyenik baxımından təhlükəsizliyi, texniki işıqlandırma, avadanlıq və inventar.

Şəxsin fərdi xüsusiyyətlərinə, məşğələlərin keçirilmə şəraitinə, fiziki fəaliyyətin xarakterinə uyğun olaraq fiziki hərəkətləri məqsədyönlü şəkildə seçmək üçün bütün tapşırıqlar müəyyən əlamətlərə görə qruplara bölünür. Ən çox yayılan növləri aşağıdakılardır:

1) qarşıya qoyulan məqsədə görə: ümumi inkişaf, idman, istirahət, müalicə, profilaktik, korreksiyaedici, peşə hazırlıqlı məşqlər;

2) bu və ya digər fiziki keyfiyyətlərin inkişafına təsirin üstünlüyünə görə: güc, sürətin, dözümlülüyün, çevikliyin və s. inkişafı üçün hərəkətlər;

3) müəyyən əzələ qruplarına təsirin üstünlüyünə görə: kürək, qarın, çiyin, bazu önü, diz, bud, üz əzələlər və s. üçün hərəkətlər;

4) koordinasiya istiqamətinə görə: məkanda oriyentasiya üçün hərəkətlər, tarazlıq, dəqiqlik, səylərin diferensiallaşdırılması, istirahət, hərəkətlərin ritmi və s.;

5) hərəkətlərin biomexaniki quruluşuna görə: tsiklik (yeriş, qaçış, üzgüçülük, araba ilə hərəkət, xizək sürmə, avarçəkmə və s.), asiklik (idman alətlərinin atılması, gimnastik hərəkətlər, trenajorlarda hərəkətlər və s.), qarışıq (qaçışla uzunluğa tullanma, mobil idman oyunları və s.);

6) fizioloji funksiyaların intensivlik dərəcəsini əks etdirən tapşırıqların yerinə yetirilmə gərginliyinə görə: aşağı intensivli hərəkətlər (ürək vurğusunun tezliyi - 100/dəq), orta (ürək vurğusunun tezliyi - 120/dəq), tonik yuxarı (140/dəq), məşq (160/dəq və daha çox);

7) müxtəlif nozoloji qrup əlilliyi olan şəxslər üçün idman növləri üzrə: tibbi göstərişlər və əks göstərişlər, Paralimpiya Oyunlarının müvafiq proqramlarına uyğun olaraq tövsiyə edilən görmə, eşitmə qabiliyyəti zəif olanlar və əlilliyi olan digər şəxslər üçün hərəkət və idman növləri;

8) terapevtik təsirə görə: paretik əzələ funksiyalarının, dayaq, oynaqlarda hərəkətliliyi bərpa etmək üçün hərəkətlər, məqsədli reflexsləri, trofik prosesləri, tənəffüs funksiyalarını, qan dövranını və s. stimullaşdıran hərəkətlər;

9) başlanğıc vəziyyətə görə: qarın üzərində uzanaraq, kürək üstündə, böyürdə, oturaraq, ayaq üstündə, dizlər üzərində, aşağı oturaraq, dördayaq vəziyyətində və s. yerinə yetirilən hərəkətlər;

10) hərəkətləri yerinə yetirərkən müstəqillik dərəcəsinə görə: fəal müstəqil, dəstəklə, yardımla, sığortalanaraq, hərəkətlərin toxunma müşayiəti ilə, qoltuqağa, çubuğa dayaqlanaraq, protezlərin, şinlərin, ortezlərin və digər texniki vasitələrin köməyi ilə, arabada, ortopedik üslubda, passiv hərəkətlər və s.

11) fənlərarası əlaqələrin inteqrasiyası üzrə: bədii-musiqili, xoreoqrafik rəqs hərəkətləri, forma-korreksiyaedici ritmoplastika hərəkətləri (gil ilə iş), rəsm, təfəkkür, nitq, diqqət, yaddaş, elementar riyazi qabiliyyətləri aktivləşdirən kompozisiyalar.

Sağlamlığı yaxşılaşdırmaq, bədəni möhkəmləndirmək, bərpa prosesini sürətləndirmək üçün adaptiv bədən tərbiyəsində bir vasitə kimi təbiətin sağlamlaşdırıcı qüvvələrindən (günəş, su, hava) istifadə olunur. Bu qüvvələrdən metodiki cəhətdən düzgün istifadə edilməsi fiziki hərəkətləri daha effektiv təsir vasitəsinə çevirir. Əlilliyi olan şəxslər üçün çimmək, üzmək, ayaqyalın ot, çınqıl üzərində gəzmək, balıq ovu, turizm, xizək və velosiped

**https://doi.org/10.36719/2025/XII**

sürmə, gəzinti, qayıqla gəzinti, açıq meydançalarda idman oyunları oynamaq və digər əyləncə növləri insanı təkcə emosional olaraq sakitləşdirmir, eyni zamanda bədəni möhkəmləndirir və onun ətraf mühitin mənfi təsirlərinə qarşı müqavimətini gücləndirir.

**Tahmina Nabiyeva**
Azerbaijan Technological University
https://orcid.org/0009-0004-2630-5176
t.nebiyeva@atu.edu.az

# The Use of Mimicry to Learn Vocabulary of Foreign Language

***Keywords***: *mimicry, imitation, vocabulary, foreign language, strategy*
***Açar sözlər***: *mimika, təqlid, lüğət, xarici dil, strategiya*

There are two ways of approaches to learning any foreign language. Here includes: learn by ear and learn by eye (7). Learning any language by eye, you will start with reading and writing. In that case, you learn new words by following their symbols, grammar by studying its theory and speaking by practicing translation. When you learn any language by ear, you will start with hearing and pronunciation. In this case, you learn words by hearing sounds, grammar by internalizing its characteristics and speaking by practicing conversation.

Most language learning systems apply the 'Learn by eye' approach in teaching foreign language lessons. The Mimic strategy is one of the language-learning systems that apply the 'Learn by ear' approach (7).

When learning any second language, vocabulary is a vital part because through it learners are able to express their thoughts and ideas. According to David Wilkins's opinion, 'without grammar, very little can be conveyed, without vocabulary nothing can be conveyed'. In this case, vocabulary can be defined as the words that are taught in another language (Ur, 1996). Furthermore, learning vocabulary is not a simple process

**https://doi.org/10.36719/2025/XII**

because it consists of four steps such as: discrimination, meaning understanding, recalling, and consolidation and extension of meaning (Grauberg, 1997). All studies reviewed by Piske except for one (Flege, 1995) identified mimicry ability as a necessary predictor of degree of L2 foreign accent.

Research by Yvonne Stapp (Stapp, 1999) concerning a critical period of neural plasticity and language aptitude utilizing mimicry exercises supports critical period limitations on L2 learners. He states that a relationship between the ability to mimic and neural plasticity creates important issues. Initially, not all young children are good at mimics but also statistically, young children do outperform older children and adults in L2 pronunciation over the long period. The other hand some adolescents and adults are good at mimics. However, since the type of neural plasticity that accounts for superior L2 pronunciation in early childhood actually declines with age, it is unlikely that such plasticity is responsible for the outstanding mimicry skill exhibited by relatively few mature individuals (Stapp, 1999).

We can say that considering the author's opinion, there are some age constraints for those who wants to acquire native-like pronunciation. At the same time there is high level of comprehensibility for those who motivated learners are able to mimic a second language. It should be noted that, Mimicry can work with children and adults or even with students who have social disorders like autism or social anxiety.

Mimicry is a way that assists learners advance the learning process to acquire vocabulary in a new language in a simple means using hearing, sight, and gestures. Mimicry means the word imitating, so Mimicry is the way to study foreign language, through imitation. The Mimicry strategy also assists people to improve their social interactions creating connections between the affective and cognitive field (Chartrand, 1999). As Morsella

**https://doi.org/10.36719/2025/XII**

& Krauss movements have an essential role in cognition because they enable learners their spatial memory and lexical recovery (Morsella, E., & Krauss, R. (2004).

## References

1. Chartrand, T. L., & J. A. Bargh. (1999). The chameleon effect. The perspective-behavior link and social interaction. *J. Pers. Soc. Psychol*, 76(6), 893-910.
2. Flege, J. (1995). Second language speech learning: theory, endings, and problems. In Speech perception and linguistic experience: theoretical and methodological issues (W. Strange, editor), 229-273. Timonium, MD: York Press.
3. Grauberg, W. (1997). *The elements of foreign language teaching*. (M. M. Ltd., Ed.)
4. Morsella, E., & Krauss, R. (2004, February). The Role of Gestures in Spatial Working Memory and Speech. *The American Journal of Psychology*.
5. Stapp, Y. (1999). Neural plasticity and the issue of mimicry tasks in L2 pronunciation studies. *TESL-EJ* 3(4), 1-19.
6. Ur, P. (1996). *A course in language teaching: Practice and theory*. Cambridge University Press.
7. https://www.mimicmethod.com/the-method/

**https://doi.org/10.36719/2025/XII**

**Günel Məmmədova**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0003-7221-8842
gmemmedova9818@gmail.com

# İdmanın sosioloji funksiyaları

***Açar sözlər:*** *idman, sosiologiya, idmançı, tərbiyəvi funksiya, sağlamlaşdırıcı və bərpa edici funksiya*

***Keywords:*** *sports, sociology, athlete, natural function, health-improving and restorative function*

Müasir sosiologiya elmi müəyyən edib ki, idmanın cəmiyyətdə hərtərəfli inkişafının mühüm rolu vardır. İdman ictimai fəaliyyətdir. İdman təbiət, fundamental, humanitar və digər elmlər ilə sıx əlaqədardır. İdmanı elmlərdən kənar öyrənmək mümkün deyil. Bunlarla yanaşı idman bir sıra sosioloji funksiyaları yerinə yetirir.

1. İdmanın etalon-evrestik funksiyası. Məqsədi insanları savadlandırmaqdır. İdmançıların göstərdikləri yüksək nailiyyətlər onlardan sonra gələn digər idmançılar üçün etalona çevrilir. Etalon idmanda ən yüksək nailiyyətdir. Evrestika bu nailiyyətə çatmaq üçün gedilən yol, axtarmaq, tapmaq, inkişaf etmək deməkdir. Misal üçün, Namiq Abdullayev (sərbəst güləş), Fərid Mansurov (yunan-roma güləşi), Nazim Hüseynov və Elnur Məmmədli (cudo), Ağası Məmmədov (boks) bu idman növlərində çalışan Azərbaycan idmançıları üçün 2008-ci ilə qədər ən yüksək nəticə göstəriblər. Bu nəticəyə çatmaq və onu keçmək üçün onlardan sonra gələn mütəxəssislər və idmançılar müxtəlif ədəbiyyatlardan bilik toplamalı, sorğu, müşahidə aparmalı, öyrənməli, təcrübə toplamalı, məşq və yarışları təhlil etməli, plan-

**https://doi.org/10.36719/2025/XII**

lar hazırlamalıdırlar. Bununla da idman sahəsində çalışan insanlar getdikcə daha çox bilik və bacarıq əldə edər, savadlanarlar.

2. İdmanın tərbiyəvi funksiyası. Məqsədi insanların iradi və mənəvi keyfiyyətlərini tərbiyələndirməkdir. İdman insana həyatda lazım olan mənəvi keyfiyyətləri aşılayır, onu həyata hərtərəfli hazır omağa kömək edir. İdmanın olduqca böyük tərbiyəvi əhəmiyyəti vardır. Məşq prosesində mənəvi və iradi keyfiyyətlər tərbiyə olunur.

3. İdmanın sağlamlaşdırıcı və bərpaedici funksiyası. Məqsədi insanların orqanizmini möhkəmləndirmək, ömrünü uzatmaq, işgörmə qabiliyyətini artırmaqdır. İdmanın bərpaedici xüsusiyyətləri kimi əyləncə, asudə vaxtın səmərəli keçirilməsi, fəal istirahət kimi də istifadə edilir. İdman insanlarda müsbət emosiyalar yaradır.

4. İdman bir tamaşa kimi və onun estetik xüsusiyyətləri. Məqsədi – insanları gözəlləşdirməkdən ibarətdir.

5. İdman sosial münasibətlər fəaliyyəti kimi. Məqsədi – idmançını bir şəxsiyyət kimi formalaşdırmaqdan ibarətdir. İdmanla məşğul olduqda insanlar arasında xüsusi münasibətlər inkişaf etməyə başlayır.

Bunlardan aşağıdakıları qeyd etmək olar:

a) eyni komandadan olan idmançılar arasında münasibətlər;
b) rəqib komandadan olan idmançılar ilə münasibətlər;
v) idmançı və məşqçi münasibəti;
q) idmançı və hakim münasibəti;
d) idmançı və azarkeş münasibəti;
e) idmançı və rəqib azarkeşi münasibəti.

Məşq və yarışlarda idmançı müxtəlif vəziyyətlərə düşür, nailiyyətlərə sevinir, şöhrətlənir, hörmət qazanır, məğlubiyyətlərə kədərlənir, səhvlərini axtarır, müdrikləşir, məşq prosesində dəyişikliklər aparır, bir sözlə, atalar demişkən “bərkdən-boşdan çıxır”, möhkəmlənir və getdikcə bir şəxsiyyət kimi formalaşır.

**https://doi.org/10.36719/2025/XII**

6. İdmanın iqtisadi funksiyası. Məqsədi – insanları maddi cəhətdən təmin etməkdən ibarətdir. İdmana sərf olunan pul, vaxt, enerji hədər getmir. İnsanlar idmandan - bir idmançı, məşqçi, müəllim, hakim, idman avadanlığı, qurğusu, məktəbi, yarışları və s. kimi istifadə etməklə maddi təmin olunurlar.

7. İdmanın siyasi fynksiyası. Məqsədi – ölkəni təmsil etmək və şərəfini qorumaqdan ibarətdir. İdman dünyada sülhü təbliğ edən bir vasitədir. İdman insanlar və ölkələr arasında olan mübahisələri idman yarışlarında özünəməxsus formada həll etməyə qadirdir. İdmançılar ölkələrini beynəlxalq yarışlarda təmsil edirlər. Yarış çempionlarının şərəfinə ölkənin himni səslənir, bayrağı qaldırılır. İdman insanlar, xalqlar və ölkələr arasında dostluq yaradan vasitələrdən biridir.

**https://doi.org/10.36719/2025/XII**

**Sevinc Abdullayeva**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0007-7267-5524
eyphoriya@inbox.ru
**Elxan İmranov**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0000-5465-6003
riad.imranov@mail.ru

# Döyüş fəaliyyətindən sonra hərbi qulluqçuların psixoloji reabilitasiyası

***Açar sözlər:*** *psixoloji reabilitasiya, stress amilləri, tramvatik stress, psixoloji dayanıqlıq, hərbi qulluqçu*
***Keywords:*** *psychological rehabilitation, stress factors, traumatic stress, psychological stability, military personnel*

Hərbi hissələrdə komandirlər, onların müavinləri, tabeçiliyində olanlar tərəfindən aparılan və bütünlükdə şəxsi heyətin fiziki və psixi ehtiyatlarının bərpasına yönəldilmiş kompleks tədbirlər psixoloji reabilitasiya adlanır. Reabilitasiya latın dilindən hərfi tərcümədə - bərpa etmək deməkdir. Daha düzgün şəkildə hərbi fəaliyyətin bərpa olunmuş psixoloji təminatı dövrü kimi ifadə olunur.

Hərbiçinin döyüş zamanı düşünülməmiş bir sıra stess amilləri ilə qarşılıqlı təsirdə olması artıq bir faktdır. Döyüşün gedişində insan psixikasında formalaşan bu amillər heç də həmişə hərbi əməliyyatların keyfiyyətinə mənfi təsir göstərmir. Əksinə, döyüş fəaliyyətində hərəkətverici rol oynaya bilər. Döyüş şəraitində biruzə verən bəzi psixoloji hallar şəraitə uyğunlaşma dövründə təsadüfi xarakter daşıya bilər. Əsl nəticə isə müəyyən zaman keçdikdən sonra hərbi qulluqçunun fəaliyyətində təzahür

**https://doi.org/10.36719/2025/XII**

edir. Bütün bu məsələlər keçən əsrdən psixologiyanın, xüsusilə hərbi psixologiyanın araşdırdığı aktual mövzulardandır.

Tədqiqatların və müşahidələrin inkişafı ilə XX əsrin 80-ci illərində psixologiyada – "Tramvatik stressin psixologiyası" adlı yeni istiqamət meydana gəldi. Bu sahə əsasən hərbi sistemdə, ilk növbədə ABŞ, İngiltərə, Fransa, İsrail kimi ölkələrin ordularında inkişaf etməyə başladı. Hal-hazırda isə Rusiya hərb sistemində geniş tədqiq olunur və araşdırılır. Tədricən psixologiyanı və xüsusilə hərbi psixologiyanı ümumi stress hallarının nəticələrinə görə yox, bilavasitə döyüş meydanında, döyüşdən müəyyən vaxt keçdikdən sonra yaranmış "döyüş stressinin psixoloji nəticəsi" kimi öyrənməyə başladılar.

XX əsrin əvvəllərində Z.Freyd I dünya müharibəsi veteranlarının psixi vəziyyətini öyrənərkən belə bir nəticəyə gəlmişdir ki, - insan psixikası ətrafdan gələn müxtəlif qıcıqlandırıcıların təsiri altında sanki beynində müdafiə baryeri yaradır və sanki insanın daxili enerjisi bütövlükdə kənar təsirləri neytrallaşdırmağa yönələrək mobilləşir. Hərbi fəaliyyət gedişində psixikada toplanmış bu kimi təcrübələr nəticəsində, formalaşmış müdafiə baryeri möhkəmlənir və döyüşçünün stressin təsirlərinə qarşı psixoloji dayanıqlığı yüksəlir. Döyüş şəraitində kənardan gələn enerji daxili müdafiə enerjisindən daha çox olduqda isə müdafiə baryeri dağılır. Z.Freydə görə artıq enerji insanın psixoloji sisteminə nüfuz edərək, daha çox insanın şüursuz vəziyyətinə təsir edir. Təsir göstərən artıq enerji şəxsin psixiki sisteminin dözümlülük baryerini "daşırırsa", bu zaman neytrallaşdırma mexanizmləri müvəffəqiyyətli nəticə vermir. Bu hallar hərbi qulluqçunun psixikasında həyəcan, yuxu pozğunluğu, əhval-ruhiyyənin pozulması, həyat tonusunun düşməsi, özünə qapılmaq, alkoqola, narkotikə meyillənmək və s. formada və ya çox vaxt təsadüfi insanlara qarşı əsassız aqressiya, təcavüz formasında qohumlarla, yaxınlarla münasibətdə kobud davranış formasında təzahür edə bilər. Son nəticə olaraq, əgər zərərçəkmiş hərbiçiyə

**https://doi.org/10.36719/2025/XII**

vaxtında kömək olunmazsa, psixi pozğunluqlar ortaya çıxa bilər ki, bu halda isə psixoloqun köməyi gecikmiş ola bilər və yalnız psixiatorun köməkliyi ilə aradan qaldırıla bilər. Bu halları nəzərə alaraq komandir və hərbi psixoloq hərbi hissədə hərbi qulluqçu üçün, onun döyüş şəraitində toplanmış artıq, lazımsız enerjisini psixikasından kənarlaşdırmaq üçün şərait yaratmalıdırlar. Yalnız, bu proses nəzarət altında olmalıdır. Bu prosesin psixoloji mahiyyəti əsgərin, hərbi qulluqçunun, komandir və hərbi psixoloqun köməkliyi ilə döyüş meydanında baş verənləri yada salmasındadır. Əsasən bu proses daha aydın və emosional boyanmış formada xatırlanır. Təbii ki, döyüş zonasında baş verən dəhşətləri yada salmaq həmin hadisələri psixoloji olaraq yenidən yaşamağa səbəb olur. Baş verən emosional gərginliklər hərbi qulluqçunun daxili enerjisi ilə əlaqədə olmayan enerjinin kənarlaşdırılmasına səbəb olacaqdır. Bu proses kifayət qədər təkrarlanarsa, döyüşçünün psixi sistemi tarazlığa, müvazinətini bərpa etməyə yaxınlaşacaqdır. Döyüş gərginliyi zamanı ortaya çıxan neqativ psixoloji halların formasından asılı olaraq hərbi qulluqçuya psixososioloji diqqət, sosial əhatə, hərbi kollektivin, komandanlığın və cəmiyyətdən əsas diqqətinin və dəstəyin yönəldilməsi zəruri hallardandır.

Hərbi qulluqçunun bərpa edilməsi dövründə yaşadığı psixoloji çətinliklər zamanı ortaya çıxan suallarla əlaqədar psixoloji məsləhətləşmə, hərbi qulluqçunun bərpa etmə dövrünü sürətləndirməyə istiqamətləndirilmiş xüsusi psixoloji metod kimi - psixofiziki treninq, özünü tənzimləmə, intensiv ünsiyyət qrupları və s. istifadə olunmalıdır. Psixoloji reabilitasiyanın digər psixoloji köməklərdən fərqi, insanda bərpaetmə dövrünün necə getməsini müəyyən etməklə əlaqədardır. Əgər bərpaetmə dövründə hər hansı psixoloji çətinliklər ortaya çıxmazsa, əksinə, hərbi qulluqçu baş verənlərin öhdəsindən kifayət qədər effektli və müstəqil gələrsə, onda psixoloji yardım psixoprofilaktik xarakter daşıyacaq, və psixoloji məlumatlandırma, məsləhətləşmə,

**https://doi.org/10.36719/2025/XII**

hərbi qulluqçuya və onun ailə üzvlərinə psixoloji və sosial - psixoloji dəstək formasında ifadə olunacaqdır. Bərpaetməni sürətləndirən xüsusi psixoloji metodlardan istifadə psixodioq-nostikanın keçirilməsi ilə əvəz olunmalıdır. Hərbi qulluqçunun bərpa edilməsi prosesi düzgün getməzsə, onunla psixokorrek-siya işi aparılır. Psixoloji çətinliklər zamanı isə psixoterapevtik yardım edilir. Psixoloji yardımın bu iki forması hərbi hissədə psixoloqun və tibbi personalın birgə fəaliyyəti ilə hərbi hissədə reallaşdırıla bilər. Bundan əlavə göstərilən bütün hallarda bərpaetmə prosesinin subyekti kimi hərbi qulluqçu özü dayanır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 32-35**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 32-35**
**https://doi.org/10.36719/2025/XII**

**Əfqan Qasımov**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0000-0002-9866-5865
afgan.gasimov@sport.edu.az

# Müasir dövrdə peşəkar idmanın maliyyələşdirilməsinin mənbələri və formaları

***Açar sözlər:*** *idman, maliyyələşmə, büdcə maliyyələşdirilməsi, büdcədənkənar maliyyələşdirilmə, planlaşdırma*

***Keywords:*** *sports, financing, budget financing, extrabudgetary financing, planning*

Bədən tərbiyəsi və idmanın maliyyələşdirilməsi respublika və yerli büdcələr, bədən tərbiyəsi və idman təşkilatları, pulsuz (sponsor) yardım və qanunla qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

Bazar iqtisadiyyatı şəraitində bədən tərbiyəsi və idmanı maliyyələşdirmək müxtəlif gəlir mənbələrini özündə cəmləşdirir. Maliyyə qaynaqlarını iki əsas qrupa bölmək olar - büdcə və büdcədənkənar.

**Büdcə maliyyələşdirilməsi** - bu müddəa geri qaytarılmazdır. Xərcləri tam və ya qismən ödəmək üçün dövlət büdcəsindən müəssisələrə (təşkilatlara) vəsait ayrılır.

Bədən tərbiyəsi və idmanın büdcədənkənar maliyyələşdirilməsi müxtəlif mənbələr hesabına həyata keçirilir, yəni: bədən tərbiyəsi və idman təşkilatlarının sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər, müxtəlif büdcədənkənar mənşəli gəlirlər. Bədən tərbiyəsi və idmanın inkişafını təbliğ edən idman lotereyaları, eləcə də digər gəlirlər qadağan deyil, qanunla qorunur.

**https://doi.org/10.36719/2025/XII**

Bədən tərbiyəsi və idmanın **büdcədənkənar maliyyələşdirilməsi** müxtəlif mənbələr hesabına həyata keçirilir, yəni: bədən tərbiyəsi və idman təşkilatlarının sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər, müxtəlif büdcədənkənar mənşəli gəlirlər, Bədən tərbiyəsi və idmanın inkişafını təbliğ edən idman lotereyaları, eləcə də digər gəlirlər qadağan deyil, qanunla qorunur.

Qazanclı fəaliyyət olaraq, pullu bədən tərbiyəsi və idman xidmətləri, qəzet və jurnalların, metodik ədəbiyyatın nəşri, suvenirlər və digər idman atributları istehsalı, idman geyimləri tikmək, yarışların televiziya və radio yayımlarına satma hüquqları və s. göstərilə bilər.

Bədən tərbiyəsi və idmanın inkişafı üzrə milli strategiyanın uğurla həyata keçirilməsi, onun qarşısında duran məqsəd və vəzifələrinə tam nail olunması üçün bu sahəyə böyük həcmdə maliyyə vəsaitinin ayrılmasını tələb edir.

Maliyyə vəsaitlərinin ayrılması mənbələrinin müəyyənləşdirilməsi, vəsaitlərin toplanması və istifadə olunması ölkədə bədən tərbiyəsi və idman hərəkatının maliyyə təminatını, bu sahənin idarə olunmasında iştirak edən dövlət və qeyri - dövlət orqanları və ictimai təşkilatların, xüsusən bədən tərbiyəsi və idman yönümlü qurumların maliyyə fəaliyyətindən asılıdır.

Bədən tərbiyəsi və idmanın inkişafının uzun müddətli planlaşdırılma strategiyasının əhatə etdiyi dövrün tələbələrinə uyğun regional maliyyə siyasəti formalaşdırılmalıdır. Strategiyanın həyata keçirilməsi aşağıdakı əsas mənbələr hesabına maliyyələşdirilir:

- dövlət büdcəsindən bu sahəyə ayrılan birbaşa və dolayı maliyyə vəsaitləri;
- müxtəlif dövlət və qeyri-dövlət fondlarının vəsaitləri;
- bədən tərbiyəsi və idmanın milli fondu, həmkarlar ittifaqları və digər ictimai təşkilatların ayırdıqları vəsaitlər;

**https://doi.org/10.36719/2025/XII**

- ayrı-ayrı şirkətlər, istehsal müəssisələri, fermer təsərrüfatları və digər bu kimi təşkilatların ayırmalarından daxil olan vəsaitlər;
- hüquqi və fiziki şəxslərin idmana sponsorluq fəaliyyətindən;
- bədən tərbiyəsi və idman təşkilatlarının özlərinin kommersiya fəaliyyətlərindən əldə etdikləri vəsaitlər.

Milli strategiyanın maliyyələşdirilməsinə cəlb olunmuş maliyyə vəsaitləri əsasən aşağıdakı istiqamətlər üzrə istifadə olunmalıdır:

- bədən tərbiyəsi və idmanın infrastrukturunun genişləndirilməsinə;
- idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi və möhkəmləndirilməsinə;
- uşaq və yeniyetmələrin idmanla məşğulluğa cəlb olunmaları və idmanda qalmalarının təmin olunmasına;
- idman sənayesinin inkişaf etdirilməsinə;
- yerlərdə daha çox sayda təlim - idman qurğularının tikintisinə;
- idman qurğularının spesifik idman avadanlıqları, ləvazimatları, texniki vəsaitlər və digər tələb olunan materiallarla təchizatına;
- ixtisaslaşdırılmış uşaq – idman məktəblərinin, Olimpiya hazırlığı mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkilinə;
- yüksək dərəcəli idmançıların hazırlanmasına;
- imkansız, yaxud az imkanlı ailələrdən idmana cəlb olunmuş uşaqların tam təminata götürülməsinə;
- kütləvi bədən tərbiyəsi-sağlamlıq və idman tədbirlərinin təşkili və keçirilməsinə;
- məhəllə idmanının inkişafına;
- sağlamlıq imkanları məhdud olan insanlar arasında bədən tərbiyəsi və idman işlərinin təşkili və inkişafına;

- milli yığma komandaların beynəlxalq yarışlara hazırlığı və iştirakına.

Azərbaycan Respublikasında il ərzində bədən tərbiyəsi və idman hərəkatına bütövlükdə 22-25 milyon manat çərçivəsində maliyyə vəsaiti ayrılır və istifadə olunur. Eyni zamanda, dövlət büdcəsindən ölkədə bədən tərbiyəsi və idmanın infrastrukturunun inkişafına (idman qurğularının inşasına, əsaslı təmir işlərinə) hər il 50-60 milyon manat həcmində kapital qoyuluşu nəzərdə tutulur.

**https://doi.org/10.36719/2025/XII**

**Sənəm Cəfərova**
Azərbaycan Respublikasının Milli Aerokosmik Agentliyi (NASA)
doktorant
https://orcid.org/0009-0008-1071-6754
sjafarova539@gmail.com

# Gəmiçilik əməliyyatları üçün sahil xətti potensialının qiymətləndirilməsi

***Açar sözlər:*** *liman, sahil xətti, ətraf mühit, gəmiçilik, infrastruktur*
***Keywords:*** *port, coastline, environment, shipping, infrastructure*

Bir neçə kritik faktoru nəzərə alaraq dəniz əməliyyatları üçün sahil xətlərinin potensialının hərtərəfli qiymətləndirilməsi. Bunlara coğrafi və ekoloji atributlar, infrastruktur və əlaqə, iqtisadi və bazar dinamikası, tənzimləmə mülahizələri və texnoloji irəliləyişlər daxildir. Əsas coğrafi aspektlərə təbii limanların, sahil geomorfologiyasının və üstünlük təşkil edən hava şəraitinin mövcudluğu daxildir, bunların hamısı gəmiçiliyin canlılığına təsir göstərir. İnfrastrukturun keyfiyyəti, o cümlədən liman qurğuları və daxili nəqliyyat əlaqələri əməliyyat səmərəliliyi üçün vacibdir, eyni zamanda iqtisadi mərkəzlərə yaxınlıq və bazar tələbatı dəniz mənzərəsini formalaşdırır. Əsasən ətraf mühitin mühafizəsi tədbirlərinə uyğunluq davamlı əməliyyatlar üçün çox vacibdir. Nəhayət, ağıllı liman sistemləri və alternativ yanacaq infrastrukturu kimi texnologiyada irəliləyişlər sahilboyu gəmiçilik marşrutlarının cəlbediciliyini artırır. Bu amilləri qiymətləndirərək, maraqlı tərəflər sahil xətləri boyunca dəniz

əməliyyatlarının inkişafı və təkmilləşdirilməsi ilə bağlı məlumatlı qərarlar qəbul edə bilərlər.

Sahil xətlərinin dəniz əməliyyatları üçün potensialının qiymətləndirilməsində bir neçə əsas amil var. Bunlara coğrafi və ətraf mühit faktorları, infrastruktur və bağlantı, iqtisadi və bazar faktorları, tənzimləmə və ətraf mühit mülahizələri və texnoloji inkişaflar daxildir. Gəlin əvvəlcə coğrafi və ətraf mühit faktorlarını nəzərdən keçirək: bura təbii liman şəraiti daxildir, yəni sahil xətti boyunca təbii limanların olması gəmiçilik əməliyyatları üçün çox vacibdir. Böyük gəmilərin yerləşə biləcəyi dərin su limanları xüsusilə qiymətlidir. Sığınacaqlı körfəzləri və ya girişləri olan sahil əraziləri limanın inkişafı üçün ideal yerləri təmin edir. Sahil geomorfologiyası, yəni sahil xəttinin fiziki xüsusiyyətləri də mühüm rol oynayır. Buna görə də sahil xəttinin sabitliyi, çöküntülərin daşınması və sahil eroziyasının dərəcələri kimi amillər qiymətləndirilməlidir. Dəniz infrastrukturunun saxlanılması üçün sahil geomorfologiyasının müntəzəm monitorinqi vacibdir. Üstün külək və dalğa şəraiti, fırtınaların tezliyi və hava şəraitində mövsümi dəyişikliklərin gəmiçilik marşrutlarının canlılığına və təhlükəsizliyinə təsir etdiyi iqlim və hava nümunələri də mövcuddur. Ekstremal hava hadisələrinə meyilli ərazilər əlavə infrastruktur və təhlükəsizlik tədbirləri tələb edə bilər (Rəsulov, 2022).

Digər mühüm amillər qrupu Limanı özündə birləşdirən infrastruktur və bağlantıdır. Obyektlər: mövcud liman infrastrukturunun keyfiyyəti və tutumu vacibdir. Buraya aşağıdakılar daxildir: yanalma yerləri, yük daşıma avadanlığı, saxlama sahələri, intermodal əlaqələr (dəmir yolu, avtomobil yolu). Yeraltı əlaqə də mühüm rol oynayır, buna görə də daxili nəqliyyat şəbəkələri ilə səmərəli əlaqələr sahilboyu nəqliyyatın ümumi səmərəliliyi üçün vacibdir. Böyük iqtisadi mərkəzlərlə yaxşı dəmir yolu və avtomobil əlaqəsi olan limanlar daha yüksək potensiala malikdir. Növbəti qrup amillər iqtisadi mərkəzlərə

**https://doi.org/10.36719/2025/XII**

yaxınlığı nəzərdə tutan iqtisadi və bazar amilləridir, yəni iri sənaye və ya ticarət mərkəzlərinin yaxınlığındakı sahilyanı ərazilər dəniz fəaliyyəti üçün daha yüksək potensiala malikdir. Rayonda yükdaşımalara tələbat əsas məsələdir. Yüklərin növləri, daşınan malların xarakteri infrastruktur tələblərinə təsir göstərir. Konteynerlər, toplu yüklər, neft və s. daşınması üçün müxtəlif cihazlar lazımdır. Rəqabət və bazar tələbi də mühüm rol oynayır, ona görə də mövcud gəmiçilik marşrutlarının, rəqabətli limanların və dəniz ticarətində proqnozlaşdırılan artımın qiymətləndirilməsi potensialın qiymətləndirilməsi üçün çox vacibdir (Həsənov, 2019).

Tənzimləyici və ətraf mühit mülahizələri ətraf mühit qaydalarında, yəni MARPOL əlavələrində qeyd olunanlar kimi ətraf mühitin mühafizəsi tədbirlərinə riayət edilməsinin məcburi olduğu amillər qrupuna daxildir. Xüsusi mühafizə zonaları kimi təyin edilmiş ərazilərdə gəmiçilik fəaliyyəti ilə bağlı məhdudiyyətlər ola bilər. Bundan əlavə, dəniz syasəti, yəni milli və beynəlxalq dəniz siyasəti, o cümlədən sahil zonasının idarə edilməsi qaydaları, sahil gəmiçiliyinin inkişaf potensialına təsir göstərir.

Digər bir qrup amillər texnoloji inkişaf, o cümlədən ağıllı liman texnologiyalarıdır, yəni limanın idarə edilməsi, yüklərin izlənilməsi və gəmilərin hərəkətinin idarə edilməsi üçün rəqəmsal texnologiyaların tətbiqi sahilboyu gəmiçilik marşrutlarının səmərəliliyini və cəlbediciliyini əhəmiyyətli dərəcədə artıra bilər. Dayanıqlı dəniz təcrübələrinə artan diqqət işığında, sahildən gəmiyə enerji sistemləri və ya alternativ yanacaq infrastrukturu kimi ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi potensialı da qiymətləndirilməlidir. Bu amilləri hərtərəfli qiymətləndirməklə, maraqlı tərəflər potensial haqqında əsaslandırılmış qərarlar qəbul edə bilərlər. Dəniz əməliyyatları üçün sahil xətləri və inkişaf və ya təkmilləşdirmə üçün prioritet sahələr (ESCAP, 2021).

**https://doi.org/10.36719/2025/XII**

Dəniz əməliyyatları üçün sahil xətlərinin potensialına coğrafi və ətraf mühit şəraiti, infrastruktur və əlaqə, iqtisadi dinamika, tənzimləyici çərçivələr və texnoloji irəliləyişlər daxil olmaqla hərtərəfli amillər dəsti təsir göstərir. Bu əsas elementləri təhlil etməklə, maraqlı tərəflər sahilyanı ərazilərdəki həyat qabiliyyətini və imkanları daha yaxşı başa düşə bilərlər. Bu hərtərəfli qiymətləndirmə xüsusi yerlərin güclü və zəif tərəflərini vurğulamaqla yanaşı, dəniz infrastrukturunun planlaşdırılmasına və inkişafına da rəhbərlik edir. Bu sahələrdə təkmilləşdirmələrin prioritetləşdirilməsi dəniz əməliyyatlarında səmərəliliyin, rəqabət qabiliyyətinin və davamlılığın artırılmasına gətirib çıxara bilər. Nəhayət, bu qiymətləndirmələrə əsaslanan məlumatlı qərarlar sahilyanı bölgələrin cari və gələcək dəniz fəaliyyətlərini effektiv şəkildə dəstəkləməsini, iqtisadi artımı asanlaşdırmasını və tənzimləyici və ekoloji standartlara cavab verməsini təmin edəcəkdir.

## Ədəbiyyat

1. ESCAP, Smart ports development policies in Asia and the Pacific, 2021 https://www.unescap.org/sites/default/d8files/eventdocuments/SmartPortDevelopment_Feb2021.pdf
2. Həsənov, M., İsmayılov, F. (2019). *Daşıma modelləri*. https://Www.EDerslik.Edu.Az/Noduploads/Vet_Pdf/Dasima-Modellari.Pdf
3. Rəsulov, S.R., Nağiyev, N.T., Səfərov, S.H., Qəniyeva, R.Y. (2022). *Nəqliyyatda təhlükəsizlik*. Dərslik. https://Www.Researchgate.Net/Profile/Surxaysafarov/Publication/369066483_Nqliyyatda_Thluksizlik/Links/640833610d98a97717ea3acf/Nqliyyatda-Thluksizlik.Pdf

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 40-43**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 40-43**
**https://doi.org/10.36719/2025/XII**

**Qurban Məmmədov**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0009-6412-5041
qurban.poylu15@gmail.com

# Müəssisələrin istehsal fəaliyyətində menecment sisteminin rolu

***Açar sözlər:*** *menecment, təşkilat, səmərə, struktur, idarəetmə sistemi*
***Keywords:*** *management, organization, efficiency, structure, management system*

Müasir menecment sistemi əhəmiyyətli dəyişikliklərə məruz qalaraq uzun inkişaf dövrü keçmişdir. Müəssisələrin idarə edilməsi bazar siqnallarının müəssisənin fəaliyyət prosesinə çevrilməsi mexanizmi kimi qəbul edilir. İdarəetmə anlayışının şərhinin iki əsas istiqaməti var: bir tərəfdən idarəetməni istehsalatda yaranan müəyyən münasibətlər kimi müəyyən edən istiqamət, digər tərəfdən idarəetməni texnoloji idarəetmənin tərkib hissəsi kimi qəbul edən istiqamətdir. Çox vaxt elmi tədqiqatlarda kateqoriyanın rolunu müəyyən etmək üçün onun funksiyalarına baxılır.

Müəssisələrdə müasir istehsalın idarəetmə sistemləri çoxlu sayda struktur bölmələri ehtiva edən kifayət qədər mürəkkəb mexanizmdir. Bu baxımdan idarəetmə qərarlarının qəbulu sürəti azalır və onların keyfiyyəti aşağı düşür, müəssisənin nəticələrini pisləşdirir. Müstəqil struktur bölmələrinin artması idarəetmə problemlərini artırır (Mirzazadeh, 2024, s.25). Menecerlərin vəzifəsi həm funksional, həm də idarəetmə aspektlərində idarəetmə əməyinin daha aydın funksional və ixtisas bölgüsünə

**https://doi.org/10.36719/2025/XII**

diqqət yetirməklə, operativ idarəetmə funksiyalarının maksimumunu ən aşağı səviyyələrə vermək prinsipinə uyğun olaraq idarəetmə və digər funksiyaların rasional bölüşdürülməsidir.

Eyni zamanda, idarəetmənin müxtəlif iyerarxik səviyyələrində hansı konkret işçilərin müxtəlif funksiyaları yerinə yetirməli olduğunu, habelə bu səviyyələrdə vəzifəli şəxslərin yerinə yetirdiyi konkret funksiyaları təmin etmək lazımdır. Beləliklə, idarəetmə prosesi və onun funksiyalarının yerinə yetirilməsi prosesi ayrı-ayrı icraçılara həvalə edilmiş ayrıca fraqmentlərə bölünür. Qərar vermə prosesində iyerarxiyaya riayət etmək məcburidir (Amrahov, 2020 s.425).

Bundan əlavə, aşağıdakı prinsipə əməl etmək zəruri hesab edilir: əgər aşağı səviyyələr öz funksiyalarını yerinə yetirərkən nəticə əldə etməyiblərsə və bunun üçün ayrılan vaxtı tükətmişlərsə, idarəetmə prosesinə yuxarı səviyyələrin müdaxiləsi zəruridir. Qurumun strukturunda və ya digər işlərin yerinə yetirilməsi qaydasını müəyyən edən qaydalarda müəssisələrin işi və funksiyaları dəqiq müəyyən edilməlidir. Hər bir müəssisənin strukturunda yalnız bir yer hər bir iş növünün yerinə yetirilməsinə uyğun olmalıdır. Funksiyaların yerdəyişməsi həmişə işi parçalayır və onu qeyri-müəyyən edir (Mirzazade, 2021, s.85).

İdarəetmə mürəkkəbliyinin artması onun keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin artması ilə müşayiət olunan obyektiv bir prosesdir. Bir sistem kimi idarəetmənin mürəkkəbliyini şərtləndirən ən mühüm amillərdən biri bu sistemi təşkil edən elementlərin sayının artmasıdır. Nəticədə, getdikcə mürəkkəbləşən menecment sisteminin həyata keçirilməsini tələb edən xeyli sayda qarşılıqlı əlaqəli və bir-birindən asılı funksiyalar mövcuddur.

Təşkilatların sistem kimi səmərəli idarə edilməsi yalnız effektiv idarəetmə sistemləri olduqda mümkündür. Ümumi halda, təşkilatın idarəetmə sistemi altında bütün elementlərin, alt sistemlərin və onlar arasındakı kommunikasiyaların məcmusunu,

habelə təşkilatın müəyyən edilmiş fəaliyyətini təmin edən proseslər başa düşülür.

Müəssisənin effektiv idarə edilməsi üçün müəssisə idarəetmə sistemlərini daim dəyişən xarici şəraitə mütəmadi olaraq uyğunlaşdırmağa imkan verən prosedurlar yaratmaq lazımdır. Eyni zamanda, mühüm amil geri bildirimdir, onun əsas komponenti qiymətləndirmədir. İdarəetmə sistemi təşkilati sistemin bütün tərkib hissələrinin hərəkətini effektiv şəkildə əlaqələndirməyə imkan vermirsə, bu sistemin özünün səmərəsiz olduğu, bir növ qüsur olduğu açıq-aydın görünür.

İdarəetmə təsirləri idarəetmə üsullarının əsasını təşkil edir. İnsanların davranışlarına təsirin xarakterinə görə bütün təsirləri iki qrupa bölmək olar.

Birinci qrup işçilərə birbaşa təsir etməyən, lakin kollektivdə davranışı tənzimləyən şərtlər, yəni normalar, davranış qaydaları və s. şəklində həyata keçirilən passiv təsirlərdən ibarətdir.

İkinci qrup - konkret işçilərə və bütövlükdə komandaya aktiv təsir.

İnsanların davranışlarına təsirin xarakterinə görə şərtləri öz növbəsində üç növə bölmək olar:

• insanların mənfi davranışını məhdudlaşdıran şərtlər;

• insanların mənfi davranışlarının qarşısının alınması üçün şərait;

• insanların müsbət davranışını həvəsləndirmək üçün şərait.

## Ədəbiyyat

1. Amrahov, V.T., Mirzazadeh, N.G, Guliyeva, K.N., Gazanfarova, J.V. *(2020).* Economic Effectiveness and Forecasting of Scientific Activity in Azerbaijan. International Journal of Religion. 5 (7), 422-430.
2. Mirzazadeh, N., Zeynalli, M. *(2024).* Improvement of information provision of small business in the agricultural sphere. Journal of Economics. Volume:1, issue:1. P. 23-27.

**https://doi.org/10.36719/2025/XII**

3. Mirzazade, N.G. *(2021).* Formirovanie strategicheskikh planov razvitiya biznesa formirovanie strategicheskikh planov razvitiya biznesa. Sbornik materialov III mezhdunarodnogo foruma «dialog molodykh uchenykh: science talks». C. 84-86.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 44-47**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 44-47**
**https://doi.org/10.36719/2025/XII**

**Sultan Hidayətov**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0006-6205-8963
sultanhidayetov9@gmail.com

# Morfologiyanın tədrisində istifadə olunan müasir təlim üsulları

***Açar sözlər:*** *morfologiya, müasir təlim üsulları, fərdiləşdirilmiş təlim, dil tədrisi, qrammatika, interaktiv öyrənmə, şagird mərkəzli yanaşma*

***Keywords:*** *morphology, modern teaching methods, personalized learning, language teaching, grammar, interactive learning, student-centered approach*

Morfologiyanın tədrisi dilin qrammatik quruluşunun başa düşülməsi üçün vacibdir və bu sahədə müasir təlim üsulları ənənəvi yanaşmalardan daha çox interaktiv və şagird mərkəzli yanaşmaları əhatə edir. Morfologiyanın tədrisində hər bir qrammatik mövzu fərqli təlim metodları ilə şagirdlərə təqdim edilməli və öyrədilməlidir ki, bu onların nitq bacarıqlarını inkişaf etdirir. Morfologiya dilin əsas strukturlarını təşkil edən bir sahə olduğu üçün, onun tədrisi dil öyrənmə prosesinin mərkəzində yer alır. Bu səbəbdən, dilin morfoloji quruluşunu öyrətmək yalnız qrammatik qaydaların tətbiqi ilə məhdudlaşmamalıdır. Bu proses, şagirdin dili həm nəzəri, həm də praktiki şəkildə mənimsəməsini tələb edir. Azərbaycan dilinin qrammatikasının, xüsusilə morfologiyanın tədrisində şagirdlərin qrammatik anlayışlarını möhkəmləndirən metodlar tətbiq edilməlidir. Müasir təlim üsulları, bu məqsədlə daha çox müxtəlif yanaş-

malar və metodlar təklif edir ki, bu da şagirdlərin tədrisə marağını artırır və öyrənmə prosesini daha effektiv edir.

Fərdiləşdirilmiş təlim müasir tədrisin əsas prinsiplərindən biridir. Bu yanaşma hər bir şagirdin fərdi ehtiyaclarına və səviyyələrinə uyğun dərslərin hazırlanmasını təmin edir. Fərdiləşdirilmiş təlim, şagirdlərin zəif tərəflərinə uyğun olaraq morfologiya dərslərinin fərqli resurs və tapşırıqlarla zənginləşdirilməsinə şərait yaradır. Hər bir şagirdin təhsilindəki irəliləyişini izləyərək, müəllim şagirdə uyğun tapşırıqlar və əlavə materiallar təklif edir. Fərdiləşdirilmiş yanaşma şagirdlərin zəif tərəflərini nəzərə alaraq onların inkişafını stimullaşdırır və onları öz potensialını maksimal dərəcədə inkişaf etdirməyə təşviq edir. Bunun nəticəsində, hər bir şagirdin morfologiyanın əsas prinsiplərini anlama qabiliyyəti artır və bu, onların ümumi dil biliklərinə müsbət təsir edir.

Müasir təlim metodlarından biri də İKT vasitələrinin istifadəsidir. Müasir texnologiyalar dərs mühitini daha dinamik və maraqlı edərək, şagirdlərin diqqətini çəkir və onların mövzuya olan marağını artırır. İKT və proyekt əsaslı təlim morfologiyanın tədrisində daha geniş istifadə olunmalı və şagirdlərin fərdi öyrənmə ehtiyaclarına uyğunlaşdırılmalıdır. İnteraktiv lövhələr, kompyuter proqramları və digər multimedia resursları morfologiyanın öyrədilməsini daha vizual hala gətirir və şagirdlərin mövzunu daha yaxşı qavramasına kömək edir. Kommunikativ təlim metodları vasitəsilə morfologiyanın tədrisi şagirdlərin qrammatik qaydaları daha yaxşı mənimsəməsinə və onları ünsiyyətdə daha sərbəst istifadə etməsinə kömək edir. Məsələn, morfologiya dərslərində şəkillər, animasiyalar və qrafiklərdən istifadə edərək, müxtəlif qrammatik strukturların və qaydaların izah edilməsi, şagirdlərin bu qaydaları yaddaşlarında daha uzun müddət saxlamalarına səbəb olur.

Proyekt əsaslı təlim metodları da müasir təlim üsullarında geniş yer tutur. Bu metod, şagirdlərin morfologiyanın öyrədil-

**https://doi.org/10.36719/2025/XII**

məsi ilə əlaqədar nəzəri bilikləri praktikada tətbiq etmələrini təmin edir. Şagirdlərə müəyyən layihələr verilərək, onlar morfoloji qaydaları və prinsipləri real vəziyyətlərdə istifadə etməyə təşviq edilir. Bu yanaşma, şagirdlərin öz biliklərini praktik vəziyyətlərdə tətbiq edərək daha dərindən mənimsəmələrini təmin edir. Məsələn, bir qrup şagirdin morfoloji analizlər etməsi, müxtəlif cümlə strukturlarını təhlil etməsi və ya dilin morfoloji aspektləri ilə əlaqəli təqdimatlar hazırlaması bu metodun effektiv tətbiqinə nümunə ola bilər.

Qrup işi və əməkdaşlıq da morfologiyanın tədrisində mühüm rol oynayır. Müasir təlimdə şagirdlər yalnız müstəqil deyil, həm də birgə işləyərək öyrənirlər. Qrup işi şagirdlər arasında qarşılıqlı müzakirələri təşviq edir, bu da onların düşüncə tərzini genişləndirir və morfoloji qaydaların tətbiqində müxtəlif perspektivlər qazandırır. Həmçinin, qrup işi şagirdlərin dil bacarıqlarını inkişaf etdirir, çünki onlar öz düşüncələrini başqalarına izah etməyi və başqalarının fikirlərini dinləməyi öyrənirlər. Bu cür əməkdaşlıq, şagirdlərin həm sosial bacarıqlarını inkişaf etdirir, həm də dilin morfoloji strukturlarını daha yaxşı başa düşmələrinə kömək edir.

Oyun əsaslı öyrənmə metodları, şagirdlərin morfologiya öyrənməsinə marağını artırmaq üçün çox təsirli bir üsuldur. Oyunlar şagirdləri fəal öyrənmə prosesinə cəlb edir və bu, onların diqqətini daha çox cəlb edir. Oyunlar vasitəsilə şagirdlər morfoloji qaydaları daha əyləncəli və maraqlı bir şəkildə öyrənə bilərlər. Oyun əsaslı təlim metodları qrammatik qaydaların, o cümlədən morfologiya sahəsində yeni biliklərin daha asanlıqla mənimsənilməsini təmin edir. Məsələn, şagirdlərə müxtəlif morfoloji strukturları doğru şəkildə istifadə etməyə çağıran oyunlar, onların bu mövzuda daha çox praktik təcrübə qazanmalarına və məlumatı daha yaxşı mənimsəmələrinə kömək edir. Oyun əsaslı tədris metodları həmçinin şagirdlərə öz bacarıqlarını qiymətləndirməyə və bu bacarıqları inkişaf etdirməyə imkan verir.

Dialoq və diskussiya yanaşması, şagirdlər arasında qarşılıqlı əlaqəni və bilik paylaşımını gücləndirir. Morfologiya dərslərində şagirdlərin qrammatik mövzular üzərində fikir mübadiləsi aparması, onların dərs materialını daha dərindən mənimsəmələrinə kömək edir. Məsələn, müəllim sinifdə müxtəlif cümlələr təqdim edir və şagirdlərə bu cümlələrin morfoloji analizini aparmaq tapşırığı verir. Şagirdlər cümlələrdəki sözləri analiz edərək, kök və şəkilçiləri, zaman formalarını və cümlə quruluşlarını müəyyənləşdirirlər. Bu proses, şagirdlərə öz fikirlərini ifadə etmə bacarığı qazandırır və qrammatik qaydaların daha yaxşı mənimsənilməsini təmin edir.

Konstruktiv təlim, şagirdlərin öz bilik və təcrübələrini istifadə edərək yeni biliklər yaratmalarını təşviq edir. Morfologiyanın tədrisində konstruktiv yanaşma, şagirdlərə qrammatik qaydaları özləri kəşf etmə və başa düşmə imkanı verir. Məsələn, müəllim şagirdlərə müxtəlif cümlələr təqdim edərək, cümlələrdəki sözlərin morfoloji tərkibini analiz etməyi tapşırır. Şagirdlər öz müşahidələrinə əsasən cümlələrdə şəkilçilərin və kök sözlərin hansı rol oynadığını müəyyən edir və bu qaydaları özləri formalaşdırırlar. Bu yanaşma şagirdlərin analitik düşünmə qabiliyyətini inkişaf etdirir və onlara öz biliklərini daha yaxşı mənimsəməyə imkan verir.

Müasir təlim üsullarının tətbiqi, morfologiyanın tədrisində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu yanaşmaların istifadəsi dil öyrənmə prosesini daha şəffaf, maraqlı və məhsuldar edir. Nəticədə, şagirdlər yalnız nəzəri biliklər əldə etməklə kifayətlənmir, həm də bu bilikləri real həyatda tətbiq etmə bacarıqlarını inkişaf etdirirlər. Müasir təlim üsulları şagirdlərə öyrənmə prosesində daha çox iştirak etməyə və öz biliklərini fəal şəkildə istifadə etməyə imkan verir, bu da nəticə etibarilə onların dil biliklərinin inkişafına şərait yaradır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 48-50**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 48-50**
**https://doi.org/10.36719/2025/XII**

**Nadir Qocayev**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0009-1713-3954
gojayevnadir@gmail.com

# Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında tənzimləmə mexanizmi

***Açar sözlər:*** *sahibkarlıq, rəqabət, işsizlik, innovativ, kredit*
***Keywords:*** *entrepreneurship, competition, unemployment, innovative, credit*

Bazarın təsərrüfatçılıq subyekti kimi çıxış edən sahibkarlıq subyektləri istənilən ölkənin iqtisadiyyatında müxtəlif fəaliyyət sahələrində fərqlərin aradan qaldırılmasına, iş yerlərinin yaradılmasına, işsizliyin azaldılmasına yönəlmiş mühüm vəzifələri yerinə yetirir. Biznes sahələri çeviklik, dinamizm, bazarın regional xüsusiyyətlərini nəzərə alaraq dəyişikliklərə tez uyğunlaşma ilə xarakterizə olunur. Etiraf etmək lazımdır ki, ölkəmizin indiki inkişaf mərhələsində yerli biznesin işgüzar fəallığının dərəcəsi xarici ölkələrdəki səviyyəsindən aşağıdakı amillər baxımından geri qalır (Mirzəzadə, 2024, s.56):

• rəqabət mühitinin formalaşdırılması;

• iqtisadi fəal əhalinin biznesə cəlb edilməsi və müvafiq olaraq gəlirlərin artması;

• yerli büdcə gəlirlərinin artırılması;

• iqtisadi potensialın artırılması.

Eyni zamanda, biznes mühüm sosial rol oynayır:

• yerli səviyyədə əhalinin tələbatının ödənilməsi;

• iş yerlərinin sayının artması;

• işsizliyin azaldılması;

• işçilərin yaradıcı fəaliyyətlərinin həyata keçirilməsi.

Biznesin inkişafına mane olan amillərə daxildir:

• biznesə investisiyaların azalması;

• iri və kiçik təşkilatlar arasında müxtəlif sxemlər üzrə əməkdaşlığın zəif inkişaf etməsi;

• biznesin əhəmiyyətli vergi yükü.

Ölkəmizin müasir inkişaf mərhələsində sahibkarlığın işgüzar fəallığının dərəcəsi xarici ölkələrdəki səviyyəsindən geri qalır. Bu, bir sıra səbəblərlə bağlıdır (Mirzazadeh, Zeynalli, 2024, s.24):

• bazarda güclü rəqabət, innovativ texnologiyaların tətbiqi kiçik biznes subyektləri üçün praktiki olaraq əlçatmazdır;

• əksər biznes subyektinin kredit tarixçəsi və girov kimi çıxış edə biləcək əmlakı olmadığından kreditlərin və digər maliyyə mənbələrinin əldə edilməsində çətinliklər;

• kifayət qədər dövlət maliyyə dəstəyinin olmaması;

• mikromaliyyə sistemində problemlər;

• biznes sferasına tipik lizinq sxemlərinin cüzi tətbiqi.

Xarici və daxili mühit amilləri əksər biznes subyektinin işgüzar fəaliyyətini gücləndirməyə imkan verir. Güclü və zəif tərəflərin müxtəlif mümkün kombinasiyalarının təhlili əsasında, mümkün təhlükə və imkanları nəzərə alaraq, onların üzləşdiyi problemləri müəyyən etmək olar: maliyyə resurslarının çatışmazlığı, maliyyə sabitliyinin aşağı səviyyəsi, şəxsi dövriyyə vəsaitləri ilə kifayət qədər təmin edilməməsi, əhəmiyyətli vergi yükü, dövlət dəstəyinin alınmasında çətinliklər.

Sahibkarlıq subyektlərinin inkişafına aşağıdakı tədbirlər müsbət təsir göstərir:

• biznesə maliyyə dəstəyinin göstərilməsi;

• müəyyən növ hüquqi şəxslərin sahibkarlıq subyektlərindən malların, işlərin, xidmətlərin satınalma payının artırılmasına yönəlmiş tədbirlərin təşkili;

• biznesə marketinq dəstəyinin həyata keçirilməsi;

• biznesə mülkiyyət dəstəyinin həyata keçirilməsi;

• dövlət orqanları, yerli hakimiyyət orqanları, digər orqan və təşkilatlarla qarşılıqlı əlaqənin təmin edilməsi;

• əksər sahibkarlıq subyektinə dəstək tədbirlərinin təşkili və monitorinqi;

• biznesə informasiya dəstəyinin həyata keçirilməsi.

İşgüzar fəallığının artırılmasına aşağıdakı məsələlər ciddi təsir edə bilər:

• sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin formalaşdırılması;

• elmin inkişafı və milli innovasiya sisteminin formalaşdırılması;

• gənclərin innovasiya fəaliyyətinə cəlb edilməsi.

Biznesin inkişafı üçün bu sahibkarlıq subyektlərinin xarici maliyyələşdirməyə çıxışı böyük əhəmiyyət kəsb edir. Sahibkarlıq subyektlərinin istehsal və innovasiya fəaliyyəti bu baxımdan zəruri maliyyə vəsaiti tələb edir.

## Ədəbiyyat

1. Mirzazadeh, N., Zeynalli, M. (2024). Improvement of information provision of small business in the agricultural sphere. *Journal of Economics*. 2024 Volume:1, issue:1. P. 23-27.
2. Mirzəzadə, N. (2024). Təşkilatların strateji potensialının təhlilinin əsasları. *"Kooperasiya" elmi-praktiki jurnal*. №4(75)-2024. Səh. 51-59

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 51-53**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 51-53**
**https://doi.org/10.36719/2025/XII**

**Süleyman Muradlı**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0004-9832-6136
suleymanmuradli97@gmail.com

# Yeniyetmələrdə fiziki tərbiyəyə maraq yaratmağın innovativ metodları

***Açar sözlər:*** *fiziki tərbiyə, yeniyetmələr, fərdi yanaşma, motivasiya, idman psixologiyası*

***Keywords:*** *physical education, adolescents, individual approach, motivation, sports psychology*

Fiziki tərbiyə yeniyetmələrin sağlam inkişafında mühüm rol oynayır. Bununla belə, müasir dövrdə texnologiyaların geniş yayılması, oturaq həyat tərzinin artması və sosial faktorlar yeniyetmələrin idmana marağını azalda bilər. Buna görə də, ənənəvi metodlardan əlavə, fərdi yanaşma və motivasiya üsullarına əsaslanan innovativ texnikaların tətbiqi zəruridir.

Fərdi yanaşma hər bir yeniyetmənin fərdi xüsusiyyətlərinə, maraq dairəsinə və fiziki potensialına uyğun proqramların hazırlanmasını nəzərdə tutur. Bu metod aşağıdakı istiqamətlərdə həyata keçirilə bilər:

**İdman fəaliyyətlərinin fərdiləşdirilməsi:** Yeniyetmələrin maraq dairəsinə uyğun idman növlərinin seçilməsi onların motivasiyasını artırır. Məsələn, komandada oynamağı sevənlər üçün futbol, basketbol, fərdi bacarıqlarını inkişaf etdirmək istəyənlər üçün gimnastika və döyüş sənətləri daha cəlbedici ola bilər.

**Fiziki və psixoloji xüsusiyyətlərin nəzərə alınması:** Yeniyetmələrin fiziki və emosional inkişaf səviyyəsinə uyğun proqramlar tətbiq olunmalıdır. Məsələn, hiperaktiv uşaqlar üçün

**https://doi.org/10.36719/2025/XII**

dinamik idman növləri (qaçış, üzgüçülük), sakit təbiətli uşaqlar üçün isə yoga və ya dartınma hərəkətləri tövsiyə edilə bilər.

**Maraq oyadan təlim metodları:** Yeniyetmələrin diqqətini artırmaq üçün oyunlaşdırma metodlarından istifadə edilə bilər. Məsələn, komanda yarışları, interaktiv tapşırıqlar və fərdi hədəflərə əsaslanan sistemlər tətbiq oluna bilər.

Motivasiya fiziki tərbiyədə davamlılığı təmin edən əsas faktorlardan biridir.

Yeniyetmələrin idmana marağını artırmaq üçün aşağıdakı motivasiya üsulları tətbiq edilə bilər:

**Daxili motivasiyanın gücləndirilməsi:** Yeniyetmələrə idmanın yalnız fiziki sağlamlıq üçün deyil, həm də psixoloji rifah üçün vacib olduğu izah edilməlidir. Bunun üçün idman zamanı əhval-ruhiyyənin yaxşılaşması, stresin azalması və özgüvənin artması kimi faktorlar vurğulanmalıdır.

**Müsabiqələr və mükafatlandırma sistemi:** Kiçik yarışlar təşkil etmək və qalibləri mükafatlandırmaq yeniyetmələrin idmanda fəal iştirakını artırır. Mükafatlar maddi (sertifikatlar, kiçik hədiyyələr) və mənəvi (tərif, sosial tanınma) ola bilər.

**Rəqəmsal texnologiyaların tətbiqi:** Virtual reallıq, idman proqramları və tətbiqlər vasitəsilə yeniyetmələrə fərdi nailiyyətlərini izləmək imkanı yaratmaq onların marağını artırır. Məsələn, addım sayğacları, interaktiv məşq proqramları və oyunlaşdırılmış idman platformaları motivasiyanı yüksəldə bilər.

**Sosial mühit və dəstək:** Yeniyetmələrin ailə üzvləri, müəllimləri və dostları tərəfindən dəstəklənməsi onların idmana bağlılığını artırır. Sosial qrupların yaradılması, kollektiv idman tədbirləri və ailəvi idman fəaliyyətləri yeniyetmələr üçün daha cəlbedici ola bilər.

**İdman dərslərində fərdi planlar:** Azərbaycan İdman Akademiyasının bəzi proqramlarında tələbələrin fiziki göstəricilərinə əsasən fərdi idman planlarının tərtib edilməsi praktikası mövcuddur. Bu metod yeniyetmələr üçün də effektiv ola bilər.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 51-53**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection / 51-53**
**https://doi.org/10.36719/2025/XII**

**Oyunlaşdırma metodunun tətbiqi:** Bəzi məktəblərdə fiziki tərbiyə dərslərində şagirdlərin aktiv iştirakını təmin etmək üçün xallar toplama sistemi tətbiq edilir. Məsələn, hər iştirakçı müəyyən idman hərəkətlərini yerinə yetirdikcə xal toplayır və müəyyən səviyyəyə çatdıqda kiçik mükafatlar alır.

**İdman düşərgələri və kollektiv tədbirlər:** Yeniyetmələr üçün təşkil olunan yay düşərgələri və idman festivalları onların idmana marağını artıran effektiv vasitələrdən biridir.

Yeniyetmələrdə fiziki tərbiyəyə maraq yaratmaq üçün innovativ metodların tətbiqi olduqca vacibdir. Fərdi yanaşma və motivasiya üsulları bu prosesdə əsas rol oynayır. Fiziki tərbiyə proqramlarının fərdiləşdirilməsi, daxili və xarici motivasiya üsullarının gücləndirilməsi, oyunlaşdırma və rəqəmsal texnologiyaların istifadəsi yeniyetmələrin idmana marağını artırmağa kömək edir. Bu metodların müasir tədris proqramlarına inteqrasiyası fiziki tərbiyənin daha effektiv olmasına imkan yaradır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 54-57**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 54-57**
**https://doi.org/10.36719/2025/XII**

**Nemət Məmmədov**
Gəncə Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-4452-8277
nemetmamedov20@gmail.com

# İdmançının hazırlığında psixo-pedaqoji tələblərin vahidliyi

***Açar sözlər:*** *taktika, pedaqoji meyar, psixoloji komponent, məşq, planlaşdırma*
***Keywords:*** *tactics, pedagogical criterion, psychological component, training, planning*

Texnika və taktikaların mükəmməl mənimsənilməsinə kömək edən psixi proseslər və funksiyalara aşağıdakılar daxildir: müxtəlif növ hisslər və qavrayışlar; ideya və təxəyyülün xüsusiyyətləri; diqqət xüsusiyyətləri; təfəkkürün və hafizənin xüsusiyyətləri. Onu da başa düşmək lazımdır ki, ümumi psixoloji hazırlıq şəxsiyyətin əxlaqi xüsusiyyətlərinin, düzgün ideoloji münasibətlərin, dünyagörüşünün, müxtəlif maraqların, zəruri motivasiyanın və s. formalaşmasına kömək edir.

Psixoloji hazırlığın komponentlərinə aşağıdakılar daxildir: şəxsiyyət xüsusiyyətləri, yeni motivlər, meyillər, xarakter, temperament; psixoloji proseslər və funksiyalar; sabit psixi vəziyyətlər.

G.I.Savenkov "ümumi sistem nəzəriyyəsi"nin müddəalarına əsaslanaraq idmanda psixoloji hazırlığın nəzəri (metodoloji) əsaslandırılmasının zəruriliyini qeyd edir.

G.İ.Savenkov psixoloji-pedaqoji təsir sisteminin strukturunda (psixoloji təlim) 8 elementi müəyyən edir.

**https://doi.org/10.36719/2025/XII**

1. Seçilmiş idman növünün psixoloji pasportu. Əsas vəzifə seçilmiş idman növündə idmançının fəaliyyətinin psixoloji modelini yaratmaq üçün fərdi şəxsiyyət xüsusiyyətlərinin əhəmiyyət səviyyəsini müəyyən etməkdir ki, bu da idmançının psixoloji hazırlığı prosesində əsas qaydaları müəyyən etməyə imkan verir.

2. İdmançının psixoloji xüsusiyyətləri (psixoloji pasportu). Əsas vəzifə hər bir idmançının əqli keyfiyyətlərinin və şəxsiyyət xüsusiyyətlərinin təzahür səviyyəsini müəyyən etməkdir.

3. İdmançının ümumi psixoloji hazırlığı. Əsas vəzifə idman hazırlığı prosesində şəxsiyyətin inkişafının psixoloji əsası kimi idmançının mənəvi-iradi, emosional və intellektual keyfiyyətlərini inkişaf etdirmək və təkmilləşdirməkdir.

4. İdmançının konkret məşqə psixoloji hazırlığı. Əsas vəzifəyə daxildir:

- bu məşq üçün hədəf təyinatının formalaşdırılması;
- idmançının hərəkətləri yerinə yetirməsinə yönəldilməsi proqramı ilə əlaqəli idmançının diqqətinin təşkili;
- məşqin psixoloji təhlilinin aparılması;
- növbəti məşqinizi planlaşdırmaq.

Psixoloji hazırlığın əsas məqsədi idmançıda yüksək idman mükəmməlliyinə nail olmaq, əqli sabitlik və mühüm yarışlarda çıxış etməyə hazır olmaq üçün zəruri olan psixoloji şəxsiyyət xüsusiyyətlərini və əqli keyfiyyətləri inkişaf etdirməkdir.

Konkret yarışlara psixoloji hazırlığın əsas vəzifəsi idmançıda yarışlarda çıxış etməyə psixi hazırlıq vəziyyəti yaratmaq və güləş zamanı onun saxlanmasına kömək etməkdir. Beləliklə, psixoloji hazırlıq dedikdə, ekstremal şəraitdə idman fəaliyyətinin mükəmməl və etibarlı şəkildə yerinə yetirilməsindən asılı olan bir idmançının psixi keyfiyyətləri, psixoloji xüsusiyyətləri və şəxsiyyət xüsusiyyətləri kompleksinin inkişaf səviyyəsi başa düşülməlidir.

**https://doi.org/10.36719/2025/XII**

İdmançının psixoloji hazırlığının prinsipləri. İdmançının psixoloji hazırlığı pedaqoji prosesdir və onun uğuru bir sıra ümumi pedaqoji prinsiplərin həyata keçirilməsindən asılıdır:

Təlim-tərbiyə prinsipi bütün təlim-tərbiyə prosesinin məzmunu, metodları və təşkili ilə, habelə məşqçinin və komandanın təsiri altında idmançı şəxsiyyətinin tərbiyəsi və formalaşmasının həyata keçirilməsində ifadə olunur.

Şüur və fəaliyyətin vəhdəti prinsipi dedikdə, pedaqoji rəhbərliklə idmançının müstəqil, şüurlu, fəal və yaradıcı fəaliyyəti arasında optimal əlaqə nəzərdə tutulur.

Sistemlilik və ardıcıllıq prinsipləri idmançının əqli hazırlığının formalaşmasına kömək edir. İdmançıya psixoloji təsirin bütün vasitələri və üsulları, təhsil və məşq prosesinin dövrlərinə ciddi şəkildə paylandıqda və biliklərin toplanmasında ardıcıllığı təmin etdikdə ən böyük effekt verir.

Çoxtərəflilik və möhkəmlik. Psixoloji hazırlıq yalnız fiziki, texniki və taktiki hazırlıqla qırılmaz əlaqədə səmərəli şəkildə həyata keçirilə bilər. Beləliklə, psixoloji hazırlıq prosesinin müəyyən qanunauyğunluqlarını əks etdirərək qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunan prinsiplərin hamısı bir-biri ilə bağlıdır və bir-birindən asılıdır. Onlardan birinin pozulması və ya yerinə yetirilməməsi digərlərinin həyata keçirilməsini çətinləşdirir.

İdmançıların psixoloji hazırlığının planlaşdırılması. Planlaşdırma psixoloji hazırlığın əsas elementidir. Planlaşdırmaq – qabaqcadan görmək, gələcəyi görmək və onu proqnozlaşdırmaq deməkdir. Psixoloji hazırlığın planlaşdırılması idmançıların psixoloji hazırlığının yüksəldilməsində kortəbiilikdən qaçmağa, məşq və yarış zamanı vasitə və üsulları zamanla bölüşdürməyə imkan verir. Psixoloji hazırlıq planı müəyyən edilərkən həm də yaş, cinsi, bacarıq səviyyəsini, idman növünü, yarış şəraitini nəzərə almaq lazımdır; idmançının imkanları, məzmunu, vasitə-

**https://doi.org/10.36719/2025/XII**

ləri, üsulları; son nəticə müəyyən edilir. Planlarda dəyişiklik və dəqiqləşdirmələr edilə bilər.

İdmançının hazırlığı prosesində psixo-pedaqoji meyarlar vahid formada qəbul olunmalıdır. İdmançının psixoloji hazırlığında bir sıra psixi proseslər, funksiyalar, bəzi komponentlər və amillər nəzərə alınır.

Fəaliyyət prosesində fərdi xüsusiyyətlərə və digər məqamlara istinadla idmançının psixoloji hazırlığının modeli təqdim edilir. Burada əqli keyfiyyətlər, iradi, mənəvi, emosional və intellektual kefiyyətlər, şəxsi xüsusiyyətlərin təzahür səviyyəsi müəyyənləşir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 58-60**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 58-60**
**https://doi.org/10.36719/2025/XII**

**Xəzər Atakişizadə**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0003-2177-7871
khazar.atakishizada2023@sport.edu.az

# Məktəblərdə fiziki tərbiyənin qlobal inkişaf perspektivlərinin qiymətləndirilməsi

***Açar sözlər:*** *fiziki tərbiyə, idman, sağlam həyat tərzi, məktəblilər, qiymətləndirmə*
***Keywords:*** *physical education, sports, healthy lifestyle, schoolchildren, assessment*

Məktəblərdə fiziki tərbiyə uşaqların fiziki və psixi sağlamlığına, sosial bacarıqlarının inkişafına mühüm töhfə verir. Bu sahədə qlobal səviyyədə ciddi çağırışlar olsa da, imkanlar da genişdir. Əsas problemlər arasında maliyyə çatışmazlığı, kadr hazırlığı, texnologiyanın uşaqların fiziki fəaliyyətə marağını azaltması və bəzi mədəni maneələr var. İmkanlar isə texnologiyanın tədrisə inteqrasiyası, beynəlxalq əməkdaşlıqlar və dövlət siyasətlərinin dəstəyi ilə bağlıdır. Bu sahənin inkişafı üçün maliyyə dəstəyi və müasir təlim metodlarının tətbiqi vacibdir, çünki fiziki tərbiyə gələcək nəsillərin sağlam inkişafında əsas rol oynayır.

Fiziki tərbiyənin məktəblərdə genişlənməsi, uşaqların sağlamlığını, sosial bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək baxımından olduqca vacibdir. Bu, yalnız bədən tərbiyəsi dərslərində iştirak etməklə məhdudlaşmır; eyni zamanda, uşaqların fiziki aktivliyini artırmaq üçün müvafiq infrastrukturun yaradılması, idman fəaliyyətlərinin təşkil edilməsi və sağlam həyat tərzinin təşviqi də önəmlidir.

**https://doi.org/10.36719/2025/XII**

Bununla yanaşı, məktəblərdə fiziki tərbiyənin təşkili zamanı bir sıra çağırışlarla üzləşmək mümkündür. Məsələn, müasir texnologiyaların geniş yayılması, uşaqların daha çox oturaq həyat tərzi sürməsinə səbəb olur. Eyni zamanda, məktəblərdəki fiziki tərbiyə proqramlarının müasir tələblərə uyğun olmaması, müəllimlərin təhsil səviyyəsinin aşağı olması və maliyyə resurslarının məhdudluğu da bu sahədəki inkişafı çətinləşdirir.

Fiziki tərbiyənin inkişafı üçün mövcud imkanlar arasında, idman mühitinin yaxşılaşdırılması, müxtəlif idman növlərinə əlçatanlığın artırılması və uşaq və gənclərin fiziki aktivliyini təşviq edən proqramların yaradılması da yer alır. Həmçinin, valideynlərin və cəmiyyətin fəal iştirakının təşviqi, uşaqların sağlam həyat tərzinin mənimsənilməsi üçün vacibdir.

Nəticədə, məktəblərdə fiziki tərbiyənin inkişafı, cəmiyyətin sağlamlığına, uşaqların fiziki və psixoloji inkişafına müsbət təsir göstərməklə yanaşı, gələcək nəsillərin daha sağlam və aktiv bir həyat sürməsinə dəstək verir. Bu sahənin inkişafı üçün əməkdaşlıq, innovasiya və cəmiyyətin bütün səviyyələrində fəal iştirakın təmin edilməsi vacibdir.

İnkişaf etməkdə olan ölkələrdə fiziki tərbiyənin infrastrukturunun yaxşılaşdırılması, müasir idman avadanlıqlarının və geniş idman meydançalarının yaradılması ilə əlaqədardır. Bu cür infrastruktur, uşaqların fiziki aktivliyini artırmağa, sağlam vərdişlərin formalaşmasına və müntəzəm idman fəaliyyətinin təşviqinə xidmət edir. Eyni zamanda, müəllim heyətinin hazırlıq səviyyəsinin artırılması, peşəkar müəllimlərin cəlb edilməsi və onların mütəmadi olaraq təlimlərə göndərilməsi ilə təmin edilir. Bu, fiziki tərbiyə dərslərinin keyfiyyətinin yüksəlməsinə və şagirdlərin motivasiyasının artırılmasına gətirib çıxarır.

Eyni zamanda, qlobal miqyasda fiziki tərbiyənin inkişafı üçün beynəlxalq əməkdaşlıq və mübadilə proqramlarının təşviqi də mühüm rol oynayır. Müxtəlif ölkələrin təcrübələrinin paylaşılması, uğurlu modellərin öyrənilməsi və tətbiqi, qlobal səviy-

**https://doi.org/10.36719/2025/XII**

yədə fiziki tərbiyənin keyfiyyətini artırır. Nəticə etibarı ilə, bu çərçivədə fiziki tərbiyənin inkişafı, uşaqların sağlamlığını, sosial inteqrasiyasını və ümumi inkişafını təmin etmək məqsədini güdür.

Məktəblərdə fiziki tərbiyənin inkişafı, yalnız uşaqların fiziki sağlamlığını deyil, eyni zamanda onların psixoloji, sosial və emosional inkişafını da əhəmiyyətli dərəcədə dəstəkləyir. Genişlənən fiziki aktivlik, sağlam vərdişlərin formalaşması, liderlik bacarıqlarının inkişafı və sosial inteqrasiya kimi bir çox üstünlükləri vardır. Lakin, bu sahədə mövcud olan çağırışlar — maliyyə və infrastruktur çatışmazlığı, kadr problemleri, mədəni maneələr və azalan fiziki aktivlik — fiziki tərbiyənin keyfiyyətini əngəlləyir.

Buna baxmayaraq, yeni texnologiyaların istifadəsi, beynəlxalq əməkdaşlıqların təşviqi, müasir sağlamlıq və təhsil siyasətləri, eləcə də cəmiyyətin fəal iştirakı, bu çağırışların öhtəsindən gəlmək üçün mühüm imkanlar təqdim edir. Uşaqların sağlam və aktiv bir həyat sürməsini təmin etmək məqsədilə bütün bu cəhdlər, gələcək nəsillərin sağlamlığını və rifahını artırmağa yönəlmişdir. Nəticədə, məktəblərdə fiziki tərbiyənin gücləndirilməsi, cəmiyyətin gələcəyi üçün vacib bir investisiya olaraq qalır. Hər kəsin birgə səyləri ilə bu sahənin inkişafı, uşaqların daha sağlam, firavan və aktiv bir həyat tərzinə yönəlməsinə imkan yaradacaqdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 61-67**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 61-67**
**https://doi.org/10.36719/2025/XII**

**Elmar Əliyev**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0000-5929-657X
elmar.aliyev.3005@gmail.com

# Maliyyə-vergi nəzarətinin zəruriliyi və dövlət idarəetməsində rolu

***Açar sözlər:*** *maliyyə nəzarəti, vergi sistemi, maliyyə siyasəti, nəzarət sistemi,vergi yükü*
***Keywords:*** *financial control, tax system, financial policy, control system, tax burden*

Maliyyə-vergi nəzarəti, dövlət idarəetməsinin mühüm tərkib hissəsi olaraq, dövlət maliyyəsinin effektiv, şəffaf və qanuni şəkildə idarə olunmasını təmin etmək məqsədi daşıyır. Bu nəzarət, dövlət büdcəsinin gəlir və xərclərinin qanunvericiliyə uyğunluğunu yoxlamaq, maliyyə sui-istifadələrinin qarşısını almaq, maliyyə resurslarının səmərəli istifadəsini təmin etmək və iqtisadiyyatın inkişafına dəstək vermək üçün zəruridir. Maliyyə-vergi nəzarəti, dövlət büdcəsinə daxil olan vəsaitlərin düzgün yığılmasını və xərclənməsini təmin etməklə, dövlət maliyyəsinin qorunmasında mühüm rol oynayır. Nəzarət mexanizmləri, büdcə vəsaitlərinin mənimsənilməsi, korrupsiya, maliyyə sui-istifadələri və digər qanunsuz hərəkətlərin qarşısını almağa kömək edir. Nəzarət, dövlət xərclərinin daha səmərəli və məqsədyönlü şəkildə həyata keçirilməsini, büdcə vəsaitlərinin daha effektiv istifadə edilməsini təmin edir. Maliyyə-vergi nəzarəti həmçinin vergi ödəyicilərinin vergi qanunvericiliyinə riayət etməsini, vergilərin düzgün hesablanmasını və vaxtında ödənilməsinə şərait yaradır.

**https://doi.org/10.36719/2025/XII**

Ölkələr və regionlar üzrə əsaslı sübutlar göstərir ki, dövlətə inam güclü olduqda vergi ödəmək və islahatları dəstəkləmək istəyi daha yüksək olur. Vergi dövlətin tələbi olaraq cəmiyyətdən alınan xidmət haqqıdır. Vergi nəzarəti ondan ibarətdir ki, onun vasitəsilə bütün büdcə gəlirləri tənzimlənir. Yığımların əsas məqsədini təmin edən vergi nəzarətidir,onun sayəsində əsasən vergilər və ödənişlər hesabına dövlət büdcəsinin mədaxil hissəsinin doldurulması baş verir. Vergi nəzarətinin təkmilləşdirilməsi ölkəmizdə vergi sahəsində ən aktual problemlərdən biridir. Hazırki durumda ölkə iqtisadiyyatının hədəfyönlü və mütəmadi inkişaf tempi bilavasitə vergitutmanın nə dərəcədə sabit və effektiv normativ-hüquqi bazasından və eləcə də maliyyə resurslarının yaranması və məqsədyönlü istifadəsindən sıx tərzdə asılıdır. Respublikamızın maliyyə-vergi siyasətini məqsədli şəkildə həyata keçirmək, maliyyə resurslarından səmərəyönlü qaydada istifadəsinə yiyələnməkdə vergitutma və auditin rolunun olduqca vacibliyi dissertasiya mövzusunun aktuallığını bir qədər də artırır. Dövlətin iqtisadiyyata təsiretmə qüvvəsinə malik nəzarət sisteminin ən mühümü sayılan maliyyə nəzarətinin məqsədi dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsini xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının formalaşdırılması və səmərəli istifadəsi prosesinin layiqincə görülməsini təmin etməkdən ibarətdir. Vergilər məhsul istehsalı, cəmiyyətin siniflərə ayrılması və dövlətin yaranması ilə birlikdə formalaşmış, ordunun, məhkəmənin, dövlət orqanlarının saxlanmasına və digər ehtiyaclara yönəldilir. Vergiqoyma nəzəriyyəsinin əsasını qoyanlardan biri olan A.Smit demişdir ki, "Vergilər onları ödəyənlər üçün qul əlaməti yox, azadlıq əlamətidir". Vergi yükü vergi dərəcələrinin səviyyəsini, tədqim edilən vergi güzəştlərinin həcmini, iqtisadi sferanın fəaliyyət sahələri boyunca yüksəliş tempini, vergi nəzarətinin müasir tələblər çərçivəsində təşkili və başqa bəzi vacib göstəriciləri özündə əks etdirir. Ölkəmizdə bazar iqtisadiyyatının

bərqərar olduğu hazırki vaxtda vergilər yalnız dövlətə məxsus funksiyalarının həyata keçirilməsindən ötrü maliyyə ehtiyatlarının mənbəyi deyil, habelə dövlət tənzimlənməsinin ana sütununun özəyini ortaya qoyur. Vergi siyasəti dövlət tənzimlənməsinin quruluş elementi formasında idarəetmənin bütün səviyyələrində sosial-iqtisadi inkişafın təmini prosesində özlüyündə önəmli rol ifa edir. Maliyyə nəzarəti anlayışının şərhində alimlər arasında yekdillik yoxdur. U.Y.Danilevski isə maliyyə-vergi nəzarətinin tərifini bu cür açıqlamışdır: "İqtisadiyyatın, istehsalın idarə edilməsinin ümumi mexanizminin vacib funksiyalarından hesab edilən və ayrılmaz tərkib hissəsi olmaqla, maliyyə-vergi nəzarəti maliyyə, kredit göstəricilərini özündə cəmləşdirir. Nəzarət sferasına əsasən pul, istehsal, bölgü, mal-material dəyərlərinin pulla ifadəsində dövriyyəsi və istehlakı aid edilir". Belə olan durumda nəticəyə gəlmək olur ki, maliyyə-vergi nəzarəti təsərrüfatçılıq mexanizminin vacib ünsürü sayılmaqla dəyər xarakterinə malikdir. K.S.Belskinin təbirincə, vergi sistemi - vergitutma sferasında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissələrin (elementlərin), vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyənləşdirilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfibdən tətbiq edilən vergitutma metodlarının məcmusudur. Maliyyə-vergi nəzarəti dedikdə-müəyyən metoddan istifadə olunmaqla etməklə geniş əhatə sferasında qanun və icraedici hakimiyyəti orqanlarının, o cümlədən bunun üçün təsis edilmiş orqan, tam iqtisadi subyektlərin maliyə-təsərrüfat fəaliyyətinə nəzarət etmək anlamı başa düşülür. Maliyyə-vergi nəzarəti əsasən dövlətin maliyyə siyasətini ugurla reallaşdırmağa, maliyyə sabitliyindən ötrü əlverişli mühit formalaşdırmaga istiqamətlənib. Maliyyə-vergi nəzarəti müəssisələrin iş fəaliyyətində maliyyə-vergi və onunla sıx baglı məsələlərin işlənməsi, habelə onun təşkili prosesinin özünəxas və təsir və metodların cəmidir.Bu reallaşdırma maliyyə-vergi nəzarətinin hədəflərini, ma-

hiyyətini müəyyənləşdirir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasının başlıca mənbəyi olan vergi yığımlarının xeyli dərəcədə vergi ödəyicilərinin intizamlı olmasından, onların qanunvericiliyin tələblərinə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarətinin səmərəlilik səviyyəsinin aşağı olması durumunda vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinə tam həcmdə və vaxtlı-vaxtında əməl edəcəkləri heç də inandırıcı görünmür. Beləliklə, vergi nəzarəti bir tərəfdən zəruri maliyyə vəsaitlərinin dövlət büdcəsinə vaxtında daxil olmasını təminin reallaşdırır , digər istiqamətdən isə vergi ödəyicilərinin intizamlılığına nəzarəti həyata keçirir.Vergi nəzarəti dövlətin səlahiyyətli orqanlarının kompleks və məqsədyönlü fəaliyyətini əks etdirməklə, vergitutma sahəsində mövcud olan qanunvericiliyə əsaslanır və vergi ödəyicilərinin vergini ödəmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı məlumatların toplanması və təhlilinə yönəlmişdir. Bu nəzarətin əsas məqsədi vergi qanunvericiliyinin pozulması hallarının aşkar edilməsi, onların qarşısının alınması, beləliklə də sahibkarlıq fəaliyyətinin bütün subyektləri üçün bərabər və ədalətli vergi mühitinin yaradılmasıdır. Vergi nəzarəti sistemi iqtisadi sistemin vacib tərkib hissəsidir və dövlətin sosial, iqtisadi və siyasi məqsədlərini əks etdirir. Vergi sisteminin konseptual modelləri dövlətin iqtisadi siyasətindən asılı olaraq dəyişir. Uzun müddət iqtisadiyyatda vergilərin rolu haqqında klassik təsəvvür mövcud idi. Dövlət vergi sistemini müstəqil təsərrüfat subyektlərinin gəlirinin az və ya çox hissəsinin müntəzəm qaydaya salınmış şəkildə tutulması kimi təyin etmişdir və vergi qoyuluşunda dörd prinsipi irəli sürmüşdür: müntəzəmlik (bərabərlik), müəyyənlik, ödəmənin rahatlığı və ucuzluğu. Amma bunların hər hansı birinin artıq olması zamanı təsərrüfatın kəsirli sahələrində istehsalçıların özünü tənzimləməsi baş verirdi. Vergilər yalnız dövlət büdcəsinin gəlir mənbəyi rolunu oynayırdı. Mübahisələr isə fiskal tələbat prinsipi əsasında şərtləşdirilmiş qaydada vergilərin yığılması və ya ləğv

olunması ətrafında gedirdi. Beləliklə, vergi nəzarəti bir tərəfdən lazımi maliyyə ehtiyatlarının dövlət büdcəsinə tələb olunan vaxtda daxilini reallaşdırır , digər prizmadan isə vergi ödəyicilərinin intizamlı davranışına nəzarəti gerçəkləşdirir. Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərin icrası ilə əlaqədar məlumatların yığılması və analizinə istiqamətlənib. Bu tip nəzarətin ali məqsədi vergi qanunvericiliyində yol verilmiş pozultuların çevik aşkarlanması, onların qarşısına qətiyyətlə cədd çəkilməsi və bunun yekununda bütöv biznes subyektlərindən ötrü bərabərliyi və ədaləti özündə təcəssüm edən münasib vergi mühitinin formalaşdırılmaqdır. Büdcə - maliyyə sisteminin əsasını vergi sistemi təşkil edir. Vergi ödəmələrinin mahiyyətini dərindən öyrənmək üçün vergiqoymanın əsas prinsiplərini nəzərdən keçirmək lazımdır. İqtisadi nöqteyi nəzərdən vergiqoyma sisteminin keyfiyyəti A.Smit tərəfindən dörd əsas klassik prinsiplər şəklində ifadə olunmuşdur:

- ölkə vətəndaşları hökumətin xərclərinin ödənməsində iştirak eləməlidirlər. Bu qaydaya riayət olunması və ya inkar edilməsi vergiqoymada bərabərliyə və ya bərabərsizliyə gətirir;
- hər bir vətəndaşın ödədiyi vergi dəqiq müəyyən edilməlidir. Verginin həcmi, ödənilmə vaxtı və qaydası həm vergi ödəyənə, həm də ixtiyari bir vətəndaşa aydın olmalıdır;
- vergi onu ödəyəndən ötrü rahat olan zamanda və onun üçün münasib üsula əsasən tutulmalıdır;
- vergilər elə müəyyən edilməlidir ki, dövlətin xəzinəsinə daxil olan ümumi daxilolmalardan aşağı məbləğdə tutulsun.

Sahibkarlığın hərtərəfli və çoxşaxəli inkişafının təmin edilməsinin başlıca amillərindən biri də müvaflq fəaliyyət sahəsində əlverişli və münbit, təkmilləşdirilmiş, müasir beynəlxalq standartlara uyğun vergi sisteminin mövcudluğu və ədalətli vergi-

**https://doi.org/10.36719/2025/XII**

qoyma ilə bərabər vergi nəzarəti mexanizminin tətbiqidir. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi vergi nəzarətinin əsas vəzifələrindən biridir. Odur ki, ölkəmizin vergi sistemində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri məhz vergi nəzarətini təkmilləşdirməkdən ibarətdir. Ölkəmizdə vergi nəzarətini təkmilləşdirməyə yönəlik tədbirlər öz ifadəsini daha çox daim yenilənməkdə olan Vergi Məcəlləsində tapmışdır. Xüsusilə, son vaxtlar dövlətin iqtisadiyyatın ümumi inkişafında priortet istiqamətlərdən biri kimi ölkədə azad sahibkarlığın davamlı inkişafi üçün hər cür zəruri şəraitin yaradılmasını elan etdiyini nəzərə alsaq, bu amilin əhəmiyyəti daha da artmış olur. Həmçinin, iqtisadiyyatda, xüsusilə də qeyri-neft sektoru istiqamətində nəhəng perspektivli infrastruktur layihələrinin reallaşdırılması məqsədilə maliyyə mənbəyi olan dövlət büdcəsinin gəlirlərində vergi daxilolmalarının tam üstunlük təşkil etdiyini hesaba almaqla vergi nəzarəti işinin düzgün və səmərəli təşkili olduqca vacib məsələdir.

Hər bir təsərrüfat subyekti vergi ödənişini azaltmaqda maraqlıdır ki, bu da vergi davranışının müxtəlif modellərinin seşilməsini müəyyənləşdirir. Hazırki vaxtda müəssisə və təşkilatların vergi davranışında əsasən üç modeli ayırmaq olar:

* vergi ödənişindən yayınmaq;

* vergilərin azaldılmasının xüsusi metodlarından istifadə etmədən qanunvericiliyə uyğun olaraq onların ödənilməsi;

* vergilərin ödənilməsinin optimallaşdırılmasını təmin edən vergi siyasətinin işlənib hazırlanması.

Gəldiyim qənaətə görə, iqtisadi inkişafa stimul yaratmaq, vergitutma bazasının əhatə diapozonunu genişləndirmək və yekunda vergi daxilolmalarında müsbət ugurlara imza atmaq hədəfilə regional xüsusiyyətlərə söykənən vergi güzəşt, cərimə və sanksiyaları, həmçinin də differensial vergi dərəcələrinin tətbiq edilməsi məqsədəuygundur . Müasir dövrdə maliyyə-vergi nəzarəti dövlət idarəetməsinin ən vacib funksiyalarından biri olub,

dövlət mülkiyyətinin idarə edilməsinin qanuniliyi, məqsədəuyğunluğu və səmərəliliyi məsələlərində qəbul edilmiş standartlardan yayınma hallarının aşkar edilməsinə, bu cür meyllər yarandıqda isə uygun tədbirlərin vaxtında həyata keçirilməsinə yönəlmişdir. Ölkənin maliyyə siyasətini uğurla həyata keçirmək, maliyyə ehtiyatlarından effektiv surətdə istifadəsinə nail olmaqda maliyyə nəzarətinin rolu olduqca vacibdir. Maliyyə mexanizminin idarəedilməsi sisteminin təzədən yaradılması maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması qarşıya qoyulan strateji vəzifələrdəndir. Maliyyə-vergi nəzarəti, dövlət idarəetməsinin vacib bir hissəsi olaraq, dövlət maliyyəsinin qorunması, qanunvericiliyə uyğunluğun təmin edilməsi, maliyyə resurslarının səmərəli istifadəsi, iqtisadi inkişafa dəstək, şəffaflıq və hesabatlılığın təmin edilməsi üçün zəruridir. Dövlət, güclü və müstəqil nəzarət mexanizmləri vasitəsilə maliyyə idarəetməsində effektivliyi artırır, korrupsiyaya qarşı mübarizə aparır və ictimai etimadı qazanır. Bu, ölkənin ümumi iqtisadi və sosial inkişafına müsbət təsir göstərir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 68-73**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 68-73**
**https://doi.org/10.36719/2025/XII**

**Elnur Cəfərov**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0005-4221-5629
elnurceferov064@gmail.com

# Mülki aviasiyada innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi

***Açar sözlər:*** *mülki aviasiya, innovasiya fəaliyyəti, vergi güzəşti, dövlət dəstəyi, tənzimlənmə mexanizmi*
***Keywords:*** *civil aviation, innovation activity, tax concessions, state support, regulatory mechanism*

Mülki aviasiya, qlobal iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biridir və texnoloji inkişafdan ən çox təsirlənən sahələrdən biridir. İnnovasiyalar, mülki aviasiyada təhlükəsizliyin artırılmasına, səmərəliliyin yüksəldilməsinə, xərclərin azaldılmasına və ətraf mühitə zərərin minimallaşdırılmasına mühüm töhfə verir. Bu səbəbdən, mülki aviasiyada innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi, iqtisadi inkişaf və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün əhəmiyyətli bir məsələdir. Aviasiya sahəsində təhlükəsizlik ən yüksək prioritetdir. İnnovasiyalar, yeni texnologiyaların və sistemlərin tətbiqi yolu ilə təhlükəsizliyin artırılmasına xidmət edə bilər. Dövlət tənzimləməsi, bu yeniliklərin təhlükəsizlik standartlarına uyğun olmasını təmin edir. Qlobal aviasiya bazarında rəqabət çox yüksəkdir. İnnovasiyalar, aviaşirkətlərə rəqabət üstünlüyü əldə etməyə kömək edir. Dövlət, innovasiya fəaliyyətini dəstəkləməklə yerli şirkətlərin rəqabət qabiliyyətini gücləndirir. Aviasiya infrastrukturunun inkişafı, innovasiyaların tətbiqi üçün zəruridir. Dövlət tənzimləməsi, hava limanlarının, hava nəqliyyatı idarəetmə sis-

**https://doi.org/10.36719/2025/XII**

temlərinin və digər infrastruktur elementlərinin müasir texnologiyalara uyğunlaşdırılmasını təmin edir. Aviasiya sahəsi, ətraf mühitə zərərli təsir göstərən sahələrdən biridir. İnnovasiyalar, yanacaq səmərəliliyinin artırılması, emissiyaların azaldılması və ekoloji təmiz texnologiyaların tətbiqi yolu ilə ətraf mühitə təsiri azaltmağa kömək edir. Dövlət, bu cür innovasiyaları dəstəkləməklə ətraf mühitin qorunmasına töhfə verir. İndiki gündə innovasiya siyasəti bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə dövlət səviyyəsində idarəetmənin əsas funksiyalarından biridir. Bu bütövlükdə milli iqtisadiyyatların perspektivlərinin, ayrı-ayrı təşkilatların özünün mövqelərinin rəqabət mübarizəsində mövqelərinin möhkəmləndirilməsinin və gələcəkdə yüksəlməsi baxımından yeni texnologiyaların olması ilə izah edilir. Ümumilikdə iqtisadiyyatı dərindən transformasiya edən bazis və tarixi innovasiyalar 4 əsas qüvvənin: dövlətin, elmin, sahibkarların və cəmiyyətin qarşılıqlı əlaqəsini, tərəfdaşlığını nəzərdə tutur. Bu qüvvələrin hər biri özünün maraqlarına malik olmaqla bu tərəfdaşlıqda spesifik funksiyalar yerinə yetirir, innovasiyalardan bəhrələnməkdə, yüksək innovasiyalı mənfəətdə öz paylarına malik olmalıdırlar. Azərbaycan Respublikasının mülki aviasiya sistemində innovasiya fəaliyyətinin dövlət tənzimləməsi məsələlərinin araşdırılmasında risk amilinin nəzərə alınması olduqca vacibdir. İnnovasiya riskinin mühüm amili əsasən elmi, texniki və ixtiraçılıq fəaliyyətinin davamlılığı, vaxtaşırı daha səmərəli məhsul və texnologiyaların meydana çıxmasından ibarətdir. Bu da əvvəllər yaradılmış və mənimsənilmiş innovasiyaların effektivliyinin erkən azalmasına səbəb olur. İnnovasiyaların yolunda inhisarçı məhdudiyyətləri də nəzərə almaq lazımdır. Qeyd etmək lazımdır ki, son illər Azərbaycan Respublikasında dövlət və elmi ictimaiyyət iqtisadiyyatın innovasiyalı inkişaf məsələlərini daim diqqət mərkəzində saxlamış, elmi-tədqiqat və təcrübə konstruktiv işlərinin (ETTKİ) təşkili istiqamətində müəyyən stimullaşdırıcı və tənzimləyici tədbirlər həyata keçirmişlər. Lakin aparı-

**https://doi.org/10.36719/2025/XII**

lan iqtisadi və institutsional islahatların lazımi nəticələr verməməsi müasir çağırışlar kontekstində milli iqtisadiyyatın innovasiyalı inkişafı üçün əlverişli mühitin yaradılmasını və dövlət tənzimlənməsi mexanizminin təkmillədirilməsini zəruri edir. Bu baxımdan iqtisadiyyatın bütün sferalarında, o cümlədən mülki aviasiya sahəsində innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı problemlər xüsusi aktuallıq kəsb edir və onların elmi tədqiqinə böyük ehtiyac vardır. Azərbaycan Respublikasının mülki aviasiya sistemində innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi məsələlərinin araşdırılmasında risk amilinin nəzərə alınması çox vacibdir. İnnovasiya riskinin mühüm amili əsasən elmi, texniki və ixtiraçılıq fəaliyyətinin davamlılığı, vaxtaşırı yüksək keyfiyyətli məhsul və yeni innovativ texnologiyaların meydana çıxması sayılır. Bu isə öz növbəsində əvvəllər yaradılmış və mənimsənilmiş innovasiyaların effektivliyinin erkən azalmasına səbəb olur. Yeni innovasiyaların işlənməsi və tətbiqində inhisarçı məhdudiyyətləri də nəzərə almaq lazımdır. Bazarda üstünlük təşkil edən texniki sistemlərin inkişafına və yayılmasına böyük sərmayə qoyan inhisarlar və transmilli şirkətlər bu və ya digər üsullarla həm öz şirkətlərində, həm də rəqib firmalarda rəqabətədavamlı məhsulların və yeni texnologiyaların mənilməsinə mane ola bilərlər. Bəzi inkişaf etməkdə olan ölkələrdə innovativ məhsul və texnologilara qarşı maneələrə rast gəlinir. Belə maneələrə faktiki dəlillər Rusiyada olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatına keçidlə əlaqədar genişmiqyaslı islahatların aparıldığı və yüksək texnologiyalı müəssisələrin özəlləşdirildiyi və ya alındığı zaman dəfələrlə ortaya çıxmışdır. İnnovasiyanın geniş vüsət alması və rəqabət qabiliyyətli məhsulların istehsalının artırılması innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmlərindən səmərəli istifadə olunması ilə əlaqədardır. Müasir dövrdə innovasiya fəaliyyətinin tənzimlənməsində dövlət bir sıra iqtisadi mexanizmlərdən istifadə etməkdədir. Məhz

adıçəkilən mexanizmlərin tətbiqi istər mülki aviasiyada və istərsə də biznes proseslərində həyata keçirilən innovativ tədbirlərin effektivliyinin yüksəldilməsinə zəmin yaradır. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmlərindən biri səmərəli vergi siyasətinin həyata keçirilməsidir. Vergi siyasətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması isə biznes proseslərində, eləcə də mülki aviasiya sahəsində vergi növlərinin sayının və vergi dərəcələrinin azaldılması, vergi güzəştlərinin tətbiqi, vergilər üzrə mexanizmlərin mütəmadi olaraq araşdırılması, vergitutmada sistemliliyin təmin edilməsi, dövlət səviyyəsində vergitutmanın üstün istiqamətlərinin müəyyənləşdirilməsi və digər amillərdən asılıdır. Son illər biznes proseslərin genişlənməsi və innovativ texnologiyaların tətbiqi nəticəsində qloballaşan iqtisadiyyatın "bilik iqtisadiyyatı" mərhələsinə keçməsinə səbəb olmuşdur. Qərb dövlətlərinin təcrübəsinə istinadən əhalinin yalnız 15%-i təsərrüfatçılıq fəaliyyətilə, qalan hissəsi isə yenilikçilik, menecment, kommersiya və kommunikasiya prorseslərilə məşğuldur. Digər inkişaf etməkdə olan ölkələr kimi, Azərbaycan Pespublikasının da qarşısında duran əsas vəzifələrdən biri yeni innovativ texnologiyalar əsasında rəqabətə davamlı məhsul istehsalına nail olmaqla "innovasiyalı iqtisadiyyata" keçməkdir. Bu prorseslər yeni ideyaların və innovativ texnologiyaların yaranmasından tutmuş onların istehsalatda tətbiqinə qədər elmtutumlu texnikadan istifadə olunmasını zəruri edir. Mülki aviasiyada innovasiya fəaliyyəti ilə bağlı həlli vacib problemlərdən biri sahənin bütövlükdə aviakompleks halında fəaliyyət göstərməsidir, çünki sərnişinlərin və yüklərin aviadaşınmasının təşkilində bir neçə hüquqi şəxs – daşıyıcı aviaşirkət, qalxma-enməyə və uçuşlara dispetçer xidmətini, eləcə də eniş sahəsindəki uçma-enmə zolağına və sərnişinlərə xidməti təşkil edən və yüklərin logistikasını həyata keçirən hava limanı, təyyarələrə xidmət göstərən aviamüəssisə-lər iştirak edirlər. Onların arasındakı əlaqələrin konkret halda ən optimal modelinin işlənib

hazırlanması və tətbiqi mülki aviasiyada innovativ inkişaf istiqamətlərindən biridir. Başqa sözlə, innovativ infrastrukturun yaradılması da mülki aviasiyada mühüm amillər sırasındadır. Aviaşirkətin maksimum çevikliyini və rəqabət qabiliyyətini təmin etməyin effektiv yollarından biri də hava daşımaları bazarının bütün seqmentlərində ana şirkətin effektiv iştirakı məqsədi ilə törəmə yük aviaşirkətinin yaradılması olacaqdır. Bu, ümumi və xüsusi hava yüklərinin daşınması imkanlarını artırmaq üçün müxtəlif tutumlu ixtisaslaşdırılmış nəqliyyat təyyarələrinin parkında olmasını, həm ölkə daxilində, həm də onun ətrafında müxtəlif yük yaradan sənayelərin potensial müştəriləri ilə sıx logistik əlaqələrin inkişafını tələb edir. Dövlətin innovasiya siyasəti texnoloji tənəzzülün aradan qaldırılmasına, yerli məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasının əsası kimi bazis innovasiyaların iri miqyasda mənimsənilməsinə, eləcə də regionlarda innovasiya fəallığının artırılmasına yönəldilmişdir. Ölkəmizdə elmin və innovasiyaların maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, elmi tədqiqatların səmərəli təşkili və ETTKİ üçün dəstəkverici vergi siyasəti innovasiya sferasını dövlət idarəçiliiyi sistemində islahatların əsas elementinə çevirməkdədir. Elmi-texniki tərəqqinin son nailiyyətlərinin mənimsənilməsi və istehsalın yenilənməsi əsasında yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edən innovasiya aktivliyinə dövlət dəstəyinin gücləndirilməsi vacibdir. İnnovasiya yönümli fəaliyyət göstərən müəssisə və təşkilatlara əlverişli vergi rejimlərinin tətbiqinin genişləndirilməsi, eləcə də hət bir vətəndaşın informasiya resurslarına əlçatanlığının təmin edilməsi və idxal olunan innovativ xarakterki avadanlıqların əlavə dəyər vergisindən azad olunması məqsədəmüvafikdir. Beləliklə, Mülki aviasiyada innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi, təhlükəsizliyin artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi, ətraf mühitə zərərin azaldılması və iqtisadi inkişafın dəstəklənməsi üçün vacibdir. Dövlət, qanunve-

**https://doi.org/10.36719/2025/XII**

ricilik, maliyyə dəstəyi, təşviq tədbirləri, tədqiqat və inkişaf proqramları, beynəlxalq əməkdaşlıq və digər vasitələrlə innovasiya fəaliyyətini tənzimləyir. Bu, mülki aviasiya sahəsinin gələcək inkişafı üçün əhəmiyyətli bir faktordur. Dövlətin innovasiyalara strateji yanaşması və bu sahədəki siyasətləri, ölkənin aviasiya sənayesinin qlobal səviyyədə rəqabət qabiliyyətini gücləndirəcəkdir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 74-80**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection / 74-80**
**https://doi.org/10.36719/2025/XII**

**Kamran Fərəcov**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0008-0618-2518
kamranfrcov@gmail.com

# Büdcə-fiskal siyasətin iqtisadiyyata təsir metodları

***Açar sözlər:*** *büdcə siyasəti, dövlət büdcəsi, fiskal siyasət, vergi nəzarəti, büdcə gəlirləri*

***Keywords:*** *budget policy, state budget, fiscal policy, tax control, budget revenues*

Bazar iqtisadiyyatı şəraitində büdcə-fiskal siyasəti məqsəd-yönlü və davamlı olmalıdır. Bu o deməkdir ki, gələcək nəsillər üçün borc yükü yaratmamaq üçün dövlət xərcləri və gəlirləri balansda olmalıdır. Burada müvafiq tədbirlərə xərclərə nəzarət, vergi sisteminin optimallaşdırılması, korrupsiyaya qarşı mübarizə və dövlət resurslarından səmərəli istifadə daxil ola bilər. Mərkəzi bank pul siyasətində əsas oyunçudur. Müasir şəraitdə mərkəzi banklar qiymət sabitliyini təmin etmək, inflyasiyaya nəzarət etmək və iqtisadi artımı dəstəkləmək üçün faiz dərəcələrinin tənzimlənməsi və ehtiyat tələbləri kimi pul siyasəti alətlərindən istifadə edə bilərlər. Büdcə-fiskal siyasət, hökumətin iqtisadiyyata təsir etmək üçün istifadə etdiyi əsas alətlərdən biridir. Bu siyasət, dövlət büdcəsinin gəlirləri (vergilər) və xərcləri (dövlət sifarişləri, sosial proqramlar, investisiyalar) vasitəsilə iqtisadiyyatdakı tələb və təklifi tənzimləməyə yönəldilir. Büdcə-fiskal siyasətin iqtisadiyyata təsir etmək üçün müxtəlif metodları var. Dövlət xərcləri, birbaşa olaraq ümumi tələbə təsir edərək, iqtisadi fəaliyyəti canlandırır. Bu xərclər, infrastruktur layihələrinə (yollar, körpülər, hava limanları və s.), təhsilə,

səhiyyəyə, sosial müdafiəyə, elmi-tədqiqat işlərinə və digər sahələrə yönəldilə bilər. Bu xərclər, dövlət qulluqçularının, inşaat işçilərinin, təhsil işçilərinin və digər sahələrdə çalışanların gəlirlərini artırmaqla, əhalinin alıcılıq qabiliyyətinə və ümumi tələbə müsbət təsir göstərir. Dövlət xərclərinin iqtisadiyyata təsiri, birbaşa xərclərlə məhdudlaşmır. Dövlət xərcləri nəticəsində artan gəlirlər, əhalinin istehlak xərclərini artırır. Bu da öz növbəsində digər sahələrdə gəlirləri artırır və bu dövriyyə davam edərək, ümumi tələbin daha da artmasına səbəb olur. Bu, multiplikator effekti adlanır və dövlət xərclərinin iqtisadiyyata təsirini daha da gücləndirir. Bəzi dövlət xərcləri, iqtisadi tsikllərlə əlaqədar olaraq avtomatik şəkildə dəyişir. Məsələn, iqtisadiyyatda resessiya zamanı işsizlik müavinətləri avtomatik olaraq artır, bu da ümumi tələbin azalmasının qarşısını alır. Bu cür xərclər, iqtisadiyyatın sabitləşməsinə avtomatik olaraq kömək edir. Vergi dərəcələrinin dəyişdirilməsi, əhalinin və şirkətlərin gəlirlərinə təsir etməklə, birbaşa olaraq istehlak və investisiya qərarlarına təsir göstərir. Vergi dərəcələrinin azaldılması, əhalinin və şirkətlərin istifadə edə biləcəyi gəlirləri artırır, bu da tələbin artmasına səbəb olur. Əksinə, vergi dərəcələrinin artırılması, tələbin azalmasına gətirib çıxarır. Vergi siyasəti, təkcə tələbə deyil, həm də təklifə də təsir edə bilər. Məsələn, şirkətlərin mənfəət vergisinin azaldılması, onların daha çox investisiya qoymasına və yeni iş yerləri yaratmasına təşviq edə bilər. Bu da təklifin artmasına və iqtisadi artımın sürətlənməsinə səbəb olur. Hökumət, müəyyən sahələri və ya fəaliyyətləri dəstəkləmək üçün vergi güzəştləri tətbiq edə bilər. Məsələn, kiçik və orta sahibkarlıq (KOS) üçün vergi güzəştləri, bu sahənin inkişafına və iqtisadiyyata töhfə verməsinə imkan yaradır. Bəzi vergi növləri, avtomatik olaraq iqtisadi tsikllərə uyğun dəyişir. Məsələn, iqtisadiyyatda artım zamanı gəlir vergisi yığımları avtomatik olaraq artır, bu da iqtisadiyyatı soyudur. Əksinə, resessiya zamanı gəlir vergisi yığımları azalır, bu da tələbi dəstəkləyir.

**https://doi.org/10.36719/2025/XII**

Dövlət, büdcə kəsirini maliyyələşdirmək üçün borc alır. Bu borclar, dövlət xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunur və iqtisadi aktivliyi artıra bilər. Lakin, dövlət borcunun həddindən artıq artması, gələcək nəslin üzərinə yük salmaqla, iqtisadiyyat üçün risk yarada bilər. Dövlət, borcları idarə etməklə, faiz dərəcələrinə və inflyasiyaya təsir göstərə bilər. Məsələn, dövlət borclarının geri ödənilməsi üçün vergilərin artırılması, əhalinin və şirkətlərin gəlirlərini azaltmaqla tələbə təsir edə bilər. Dövlət borcunun müddəti, valyutası və faiz dərəcəsi, iqtisadiyyata təsir göstərə bilər. Məsələn, qısamüddətli borcların artması, borc çevrilməsi riskini artırır. Hökumət, müəyyən sahələri dəstəkləmək üçün subsidiyalar verə bilər. Məsələn, kənd təsərrüfatına verilən subsidiyalar, bu sahənin inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına kömək edir. Dövlət, mal və xidmətlər alaraq, birbaşa olaraq ümumi tələbə təsir edir. Bu satınalmalar, yerli istehsalçıları dəstəkləyir və iqtisadi aktivliyi artırır. Sosial müavinətlər, təqaüdlər və digər transfer ödənişləri, əhalinin gəlirlərini və alıcılıq qabiliyyətini artırmaqla, ümumi tələbə müsbət təsir göstərir. Büdcə-fiskal siyasət, iqtisadiyyata müxtəlif yollarla təsir edə bilər. Bu təsirlər, müsbət və ya mənfi ola bilər. Siyasət qərarlarının düzgün verilməsi, iqtisadiyyatın canlandırılmasına, inflyasiyanın nəzarətdə saxlanılmasına, məşğulluğun artırılmasına və sosial rifahın yüksəldilməsinə imkan yaradır. Əksinə, səhv qərarlar, iqtisadi disbalanslara, inflyasiyanın yüksəlməsinə, işsizliyin artmasına və digər mənfi nəticələrə səbəb ola bilər. Büdcələrin gəlir hissəsinin formalaşması üçün əsas kimi vergi daxilolmaları çıxış edir və ona görə də bu gəlirlərin vergiyə cəlb edilməsi, onların hüdudları və artım ehtimalı məsələləri xüsusi maraq doğurur. Vergitutmadan əldə edilən gəlirin məbləği bilavasitə vergi potensialı ilə bağlıdır. Vergi yığımında əsas ümummilli vəzifələrin həlli, antiböhran tədbirlərinin səmərəliliyinin artırılması və sabit və məhsuldar iqtisadi inkişafa nail olmaq üçün vergi potensialının obyektiv qiymətlən-

**https://doi.org/10.36719/2025/XII**

dirilməsi zəruridir ki, bu da verginin vəziyyəti haqqında ekstrospektiv məlumatlara ciddi ehtiyac yaradır.

Büdcə-siyasəti, o cümlədən dövlət xərcləri və vergilər müxtəlif kanallar vasitəsilə iqtisadi artıma və sosial inkişafa təsir göstərə bilər. Bu kanal həm makroiqtisadi, həm də mikroiqtisadi səviyyələri əhatə edir. Makroiqtisadi baxımdan inkişaf etməkdə olan ölkələrdə ehtiyatlı maliyyə-büdcə siyasəti, yəni büdcə kəsirinin və dövlət borcunun aşağı səviyyədə saxlanılması iqtisadi artımın əsas vasitələrindən biridir. Vergitutmanın səviyyəsi və strukturu, dövlət xərclərinin həcmi və strukturu, büdcə kəsirinin səviyyəsi vasitəsilə ölkənin bazar tarazlığına və iqtisadi artıma təsir edən əsas amillərdən biri də maliyyə-büdcə siyasətdir. Lakin büdcə-fiskal siyasətin əsas çatışmazlıqlarından biri çevikliyin olmamasıdır. Bu amil maliyyə-büdcə siyasətin makroiqtisadi tənzimləmə aləti kimi istifadəsini nisbətən məhdudlaşdırır. Eyni zamanda, ölkə gəlirlərinin əhəmiyyətli hissəsinin respublika büdcəsi vasitəsilə bölüşdürülməsi onun iqtisadi parametrlərə təsirinin öyrənilməsini tələb edir. Bazar iqtisadiyyatı şəraitində maliyyə bazarları daha dəyişkən və risklərə məruz qala bilər. Buna görə də hökumətlər maliyyə böhranlarının qarşısını almaq və onların nəticələrini yumşaltmaq üçün maliyyə sektorunu tənzimləmək və nəzarət etmək üçün tədbirlər görə bilər. Qloballaşma şəraitində fiskal və pul siyasətinin inkişafı planının tətbiqi iqtisadi ekspertlər, ictimai təşkilatlar və maraqlı tərəflərlə məsləhətləşmələr yolu ilə həyata keçirilməlidir. Dövlətin sərəncamında olan bütün pul vəsaitləri “büdcə” anlayışı ilə birləşir. Məhz bu kateqoriya ilə büdcə siyasəti və iqtisadiyyatın tənzimlənməsinin büdcə üsulları əlaqələndirilir. Büdcə tənzimlənməsi müəyyən edilmiş dövlət minimum sosial standartları nəzərə alınmaqla yerli büdcələrin gəlirlərinin sabitləşdirilməsi üçün həyata keçirilən müxtəlif səviyyəli büdcələr arasında vəsaitlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi üzrə əməliyyatların məcmusudur. Qanunla müəyyən edilmiş gəlir mənbə-

lərinin müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi büdcə tənzimlənməsinin əsasını təşkil edir. Büdcələrin tərkibinə məqsədli və ehtiyat büdcə fondları daxil ola bilər. Bu vəsaitlər sosial, iqtisadi və digər məqsədlərin həyata keçirilməsi üçün yuxarı səviyyələrin büdcələrindən aşağı səviyyələrin büdcələrinə pulsuz köçürülür. “Vergilər və vergitutma” dərsliyinin müəllifləri A.E.Serdyukov, E.S.Vılkova və A.L.Taraşeviçin təklif etdikləri kateqoriyaların fəlsəfi, linqvistik və iqtisadi mənasının ardıcıl nəzərdən keçirilməsinin məntiqi çox inandırıcı görünür. Vergi nəzarəti ifadəsini tədqiq etdikdə, M.Karaseva dövlətdə vergitutma sferasında mövcudlügü ilə seçilən siyasi, iqtisadi, təşkilati və hüquqi xarakter daşıyan bütöv ictimai münasibətlərin cəmi anlamına istinad edir. Aparılmış tədqiqatlardan sonra bu müəlliflər dövlətin vergi siyasətinin aşağıdakı tərifinə gəliblər: “dövlət orqanlarının və dövlət idarəçiliyinin vergitutma məsələlərinin kompleks həlli üçün dövlətin ümumi iqtisadi strategiyası çərçivəsində həyata keçirilən fəaliyyəti, vergitutma məsələlərinin kompleks həlli konkret dövlətin tarixi inkişafının müvafiq mərhələsində onun maraq və məqsədləri”. Bununla belə, bu tərifdə müəlliflərin dövlət orqanlarına və dövlət orqanlarına necə qarşı çıxdıqları qeyri-müəyyən olaraq qalır. Bildiyiniz kimi, dövlət orqanları hökumətə məxsusdur. Eyni zamanda, müəlliflər vergilər sahəsində yerli özünüidarəetmə orqanlarının imkanlarını nəzərə almayıblar. V.Q.Panskovun verdiyi tərif də maraqlıdır. Vergi siyasəti dövlətin, cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə tələbatının ödənilməsi, habelə yenidən bölüşdürülməsi yolu ilə ölkə iqtisadiyyatının inkişafı məqsədi ilə ölkənin vergi sistemini formalaşdırmaq üçün dövlətin iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmusudur. maliyyə resurslarının. Bu tərif təkcə dövlətin (müəyyən inkişaf mərhələsində) deyil, həm də ayrı-ayrı sosial qrupların maraqlarını, habelə ölkə iqtisadiyyatının inkişafını nəzərə alır. Lakin son iki məqsəd vergi siyasətinin məqsədlərinə deyil, dövlətin

**https://doi.org/10.36719/2025/XII**

özünün məqsədlərinə aiddir. Həqiqətən də, bu məqsədlər üçün yenidən bölüşdürmə ondan kənarda deyil, ölkənin büdcə sistemi vasitəsilə həyata keçirilir. Azərbaycan hökuməti, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişaf etdirilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində ciddi səylər göstərir. Bu məqsədə çatmaq üçün maliyyə-büdcə siyasəti, innovasiyaları, texnologiya transferini, sahibkarlığı və özəl sektoru dəstəkləyən tədbirlər görməlidir. Xarici və daxili investisiyaların cəlb edilməsi, iqtisadi inkişafın sürətləndirilməsi üçün vacibdir. Maliyyə-büdcə siyasəti, investisiya mühitinin yaxşılaşdırılması, bürokratiyanın azaldılması və vergi sisteminin optimallaşdırılması kimi məsələlərə diqqət yetirməlidir. Vergi daxilolmaları büdcə gəlirlərinin yaradılmasının əsasını təşkil edir, ona görə də bu gəlirlərin vergiyə cəlb edilməsi, onların həddi, artım potensialı məsələləri xüsusi maraq doğurur. Vergitutmadan əldə edilən gəlirin məbləği bilavasitə vergi potensialından asılıdır. Vergilərin yığılması ilə bağlı əsas ümummilli vəzifələrin həlli, antiböhran tədbirlərinin səmərəliliyinin artırılması, davamlı və məhsuldar iqtisadi inkişafa nail olmaq üçün vergi potensialının obyektiv qiymətləndirilməsi zəruridir ki, bu da dövlət orqanları haqqında ekstraspektiv məlumatlara ciddi ehtiyac yaradır. Vergi potensialı bu gün regionların sosial-iqtisadi inkişafının yaxşılaşdırılması məsələlərində əsas müzakirə mövzularından biridir. İqtisadiyyatın səmərəli tənzimlənməsi, onun mütərəqqi inkişafının təmin edilməsi, investisiya fəaliyyəti, kiçik və orta sahibkarlıq üçün əlverişli şərait yaradılması daha çox düzgün qurulmuş vergi siyasətindən, vergi tənzimlənməsindən asılıdır. Vergi siyasəti dövlətin əsas alətidir ki, onun köməyi ilə ölkədə vergi potensialı formalaşdırılır, inkişaf etdirilir və ondan səmərəli istifadə etməklə böyük zirvələrə nail olmaq mümkündür. O, iqtisadiyyatın ayrı-ayrı sahələrinin sosial-iqtisadi inkişafına təkan verməklə, ölkənin əsas funksiyalarını həyata keçirmək üçün resurslara olan maraq və tələbatının yüksək dərəcədə ödənilməsi nəzə-

**https://doi.org/10.36719/2025/XII**

rə alınmaqla qurulmalıdır. Məhz vergi potensialı bu gün regionların sosial-iqtisadi inkişafının yaxşılaşdırılması ilə bağlı əsas müzakirə obyektlərindən biridir. Müasir şəraitdə istənilən dövlət regionların özünümaliyyələşdirmə qabiliyyətini hesablamaq və büdcələrarası bərabərləşdirmə siyasətinin aparılması şəklində özünü göstərən dövlət dəstəyinə ehtiyacı müəyyən etmək üçün vergi potensialı göstəricisindən istifadə edir. Buna əsaslanaraq, vergi potensialının formalaşması mexanizmlərinin və nəzəri əsasların, nəzəri əsasların ətraflı öyrənilməsinə, bu göstəricinin artırılması üçün alətlərin işlənib hazırlanmasına və vergitutma üzrə universal qiymətləndirmə metodunun formalaşdırılmasına ehtiyac var.

Büdcə-fiskal siyasəti, əhalin sosial ədalət və bərabərlik prinsipləri əsasında maliyyələşdirilməsini təmin etməlidir. Bu, əhalinin yoxsul təbəqəsinə sosial yardımların göstərilməsi, təhsilə və səhiyyəyə əlçatanlığın artırılması, məşğulluq imkanlarının yaradılması və digər sosial siyasət tədbirləri vasitəsilə həyata keçirilməlidir. Büdcə prosesinin şəffaflığı, ictimaiyyətin iştirakı və hesabatlılığın təmin edilməsi, büdcə-fiskal siyasətinin effektivliyi üçün vacibdir. Səmərəli büdcə idarəetmə sistemi, korrupsiyanın azaldılmasına, dövlət resurslarından səmərəli istifadəyə və ictimai etimadın artırılmasına kömək edir. Büdcə xərclərinin nəticələrə əsaslanaraq planlaşdırılması və idarə olunması, büdcə vəsaitlərindən daha səmərəli istifadə edilməsinə imkan yaradır. Proqram büdcələşməsinə keçid, hökumətin məqsədlərinə nail olunmasına yönəlmiş büdcə xərclərinin planlaşdırılması və həyata keçirilməsi üçün zəruridir. Büdcə-fiskal siyasət, hökumətin iqtisadiyyata təsir etmək üçün istifadə etdiyi güclü alətlərdən biridir. Dövlət xərcləri, vergilər, dövlət borcu və digər fiskal alətlər vasitəsilə iqtisadiyyatın müxtəlif sahələrinə təsir göstərə bilər. Siyasətin səmərəliliyi, düzgün qərarların verilməsindən, iqtisadi şərtlərin nəzərə alınmasından və digər siyasətlərlə (məsələn, monetar siyasətlə) koordinasiya edilməsindən asılıdır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 81-85**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 81-85**
**https://doi.org/10.36719/2025/XII**

**Fidan Ələkbərova**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0003-6363-0325
alekperfidan@gmail.com

# Turizm xidməti bazarında dövlət-biznez tərəfdaşlığının inkişaf istiqamətləri

***Açar sözlər:*** *turizm bazarı, xidmət sektoru, dövlət-biznes tərəfdaşlığı, qeyri-neft sektoru, sahibkarlıq*
***Keywords:*** *tourism market, service sector, state-business partnership, non-oil sector, entrepreneurship*

Müasir biznes mühitində müəssisələrin uğuru bilavasitə onların satış və xidmət fəaliyyətinin səmərəliliyi ilə bağlıdır. Bizim dövrümüzdə müəssisələr təkcə mənfəəti deyil, həm də davamlı inkişafın məqsədlərini düşünürlər. Satış və xidmət fəaliyyətinin maliyyə nəticələrinin təhlili müəssisələrə müştəri məmnuniyyətini artırmağa, sadiq müştərilər yaratmağa və bununla da gəlirləri artırmağa imkan verir. Müasir istehlakçılar yüksək keyfiyyətli məhsul və xidmətləri, eləcə də mükəmməl müştəri xidmətini yüksək qiymətləndirirlər. Satış və xidmət fəaliyyətinin maliyyə nəticələrinin təhlili mənfəəti artıran və ya azaldan amilləri müəyyən etməyə, xərcləri optimallaşdırmağa və gəliri artırmağa imkan verir. Qlobal rəqabətin artdığı müasir dövrdə müəssisələr daha effektiv və səmərəli fəaliyyət göstərməyə məcbur olurlar. Satış və xidmət fəaliyyətinin maliyyə nəticələrinin təhlili müəssisənin rəqabət üstünlüyü əldə etmək üçün strateji qərarlar qəbul etməsində mühüm rol oynayır. Azərbaycanda turizm ölkəyə valyuta axınına töhfə verməklə iqtisadiyyatın perspektivli və fəal inkişaf edən sektoru kimi özünü möhkəm qaydada təsdiq-

**https://doi.org/10.36719/2025/XII**

ləyib. Dünya təcrübəsi göstərir ki, mövcud durumda turizmin inkişafı strategiyasının reallaşması artıq dövlətin səlahiyyəti sayıla bilməz, onun bizneslə qarşılıqlı əməkdaşlığı çərçivəsində həyata keçirilməlidir. Belə "birliyin" effektiv modeli dövlət-biznes tərəfdaşlığıdır. Azərbaycanda mövcud dövlət-biznes tərəfdaşlıq təcrübəsindən aydın olur ki, uğurla reallaşan dövlət proqramları və mövcud normativ hüquqi baza sosial infrastrukturun sürətli inkişafını tam təmin etmək iqtidarında deyir, belə ki onlar biznes strukturlarının bu prosesdə iştirak dairəsini lüzumsuz olaraq məhdudlaşdırır. Onlara verilən səlahiyyətlərin nəzərə çarpan məhdudiyyətlərini vurğulamağa lüzum var ki, bu da bu strukturları uzun geri qaytarılma müddətilə kapital tutumlu layihələri gerçəkləşdirməkdən praktiki olaraq istisna edir. Bunlara turizm xidməti bazarının inkişafına müsbət təsir göstərən turizm infrastrukturu obyektlərinin tikintisi, istismara verilməsi və istismarı daxildir. Daxili təcrübə turizm xidməti bazarında dövlət-biznes tərəfdaşlıq mexanizmlərindən istifadədən ötrü mövcud potensialı göstərir. Bu məsələdə aparıcı dünya güclərindən nəzərə çarpacaq dərəcədə geriləmə olmasına baxmayaraq, bu mexanizmlərin tətbiqi ölkənin qlobal turizm xidmətləri bazarında beynəlxalq rəqabət qabiliyyətinin artmasına öz töhfəsin aşılaya bilər. Bir faktı da qeyd edək ki, adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) artım dinamikasına ölkədə yeni iş yerlərinin yaradılması amili mühüm təsir göstərir. Belə ki, regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına nail olmaq məqsədilə turizm dünya iqtisadiyyatında ən gəlirli sahələrdən birini tutur. Neft, tibb, ma-

**https://doi.org/10.36719/2025/XII**

şınqayırma sahəsindən sonra dördüncü ən gəlirli sahələrdən biridir. Buna görə də Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra bu sahəni inkişaf etdirməyi qarşıya məqsəd qoymuşdur. Əlbəttə, bu təbii bir haldır, çünki, təkcə neft sahəsi ilə inkişaf etmək olmaz və qeyri-neft sektorunun inkişafı vacibdir. Aparılan iqtisadi islahatlar hamısı buna istiqamətlənmişdir.

Ölkənin coğrafi mövqeyini, iqlim mühitini nəzərə alaraq, turizmin bir çox növlərinin inkişafı üçün potensial mövcuddur. Ümumiyyətlə, bu potensialın reallaşdırılması üçün dövlət və özəl sektorların davamlı dəstəyi vacib faktorlardan biri hesab olunur. Təəssüflə qeyd etməliyik ki, ölkəmiz böyük turizm potensialına malik olmasına baxmayaraq, onun çox az bir hissəsindən istifadə olunur. Hazırda AR regionlarının və bütövlükdə ölkənin turizm potensialından səmərəli istifadə məsələsi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycanda kənd turizmi potensialı kənd əhalisinin həyat tərzinə, sosial rifahına təsir göstərir və yeni vərdişlərin yaranmasına səbəb olur. Yerli sakinlər turistlərin xərclədiyi vəsait hesabına birbaşa iqtisadi mənfəət qazanırlar. Kənd turizminin inkişafı iri kapital qoyuluşu tələb etmir, lakin ciddi planlaşdırma və proqramlaşdırmaya ehtiyac duyur. Azərbaycan Respublikasının kənd turizminin potensialı mütəmadi olaraq dəyərləndirilməlidir. Kənd turizmi turistləri ənənəvi yaşayış məskənlərində yerləşdirməkdən, onları yerli qida məhsulları ilə təchiz etməkdən və turistlərin kənd həyatında baş verən hadisələrdə iştirakını təmin etməkdən, əhalinin iş yerləri ilə təmin edilməsindən, ərazilərin təbii-iqtisadi potensialından səmərəli istifadə edilməsindən ibarətdir. Son illərdə bu regionlarda kiçik mehmanxana tipli istirahət mərkəzləri, qonaq evləri tikilmiş və turistlərin istifadəsinə verilmişdir. Quba-Xaçmaz turizm sahəsi kimi formalaşmasına təsir edən əsas aparıcı amil - meşələrin, Xəzər sahillərinin, ekoloji təmiz havanın, inkişaf etmiş nəqliyyat şəbəkəsinin, bağçılığın və heyvandarlığın mövcudluğu sayılır. Eyni zamanda Quba rayonunun,

**https://doi.org/10.36719/2025/XII**

Qusarın, Laza kəndinin dağlıq əraziləri, Böyük Qafqaz dağlarından keçən keçidlər, turizm üçün unikal şərait yaradır. Azərbaycan Respublikası ərazisində kənd turizmi Abşeron iqtisadi rayonuna yaxın yerləşən Quba-Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonunda inkişaf etməkdədir. Lakin Gəncə-Qazax iqtisadi rayonunda hələ də arzuolunan səviyyədə inkişaf etməmişdir. Kənd turizminin inkişaf etdirilməsi məqsədilə, bu sahədə layihələr hazırlanmalı və həyata keçirilməlidir. Turizm şirkətlərinə, mehmanxanalara uzunmüddətli aşağı faizli kreditlərin verilməsi, gəlmə turizm forması üçün turizm şirkətlərinə vergi güzəştlərinin tətbiq edilməsi ölkəmizdə turizmin inkişafına güclü təkan verə bilər. Köhnə yolların bərpası, genişləndirilməsi, yeni yolların çəkilməsi ölkə vətəndaşlarının və xarici vətəndaşların istirahət ocaqlarına rahat çatması üçün əhəmiyyətlidir. Eyni zamanda xarici turistlərin Azərbaycana gəlib bu yenidənqurma işlərinin şahidi olması ölkəmizin yaxın gələcəkdə əsl turizm ölkəsinə çevriləcəyinə ümid verir.

Respublikamızda yaradılmış Sağlamlıq və Termal Turizmə dəstək Assosiasiyası sağlamlıq ocaqlarının yerləşdiyi ərazisi, sağlamlıq mərkəzlərində müxtəlif əyləncə proqramları, ətraf əraziyə ekskursiyaların təşkili, müalicə xidmətləri haqqında, xidmət personalı haqqında məlumatlar yerləşdirilmişdir, kataloqlar hazırlanması işində fəaliyyətə başlamışdır. Eyni zamanda müalicə ehtiyatlarının yerləşdiyi əraziləri göstərən xəritəsi də hazırlanır. Azərbaycanda kurort işinin təşkili və inkişaf etdirilməsi istiqamətində dövlət siyasəti həyata keçirilir. İnsanların istirahəti, müalicəsi, sağlamlığının təmin edilməsi baxımından önəmli rol oynayan sanatoriya-kurortlar eyni zamanda da əhalinin məşğulluğunun artırılması, regionun sosial-iqtisadi inkişafının, infrastrukturun, xidmət və digər sahələrin inkişafında da önəmli rol oynayır. Dövlət-biznes tərəfdaşlığının effektivliyi innovativ fokusla iri turizm layihələrinin həyata keçirilməsi zamanı xüsusilə aydın görünür.

**https://doi.org/10.36719/2025/XII**

Tədqiqat nəticəsində gəldiyim qənaətə əsasən, iki məcburi şərtə riayət etmək çox vacibdir:

- strateji hədəflərin dövlət tərəfindən dəqiq müəyyən edilməsi və yerli layihələrin reallaşması yolu ilə onlara nail olunması;
- ümumi layihələrin həyata keçirildiyi dövr üçün dövlət və biznes arasında tərəfdaşlıq qaydalarının müəyyən edilməsi.

Ümumiyyətlə, turizm xidmətləri bazarında sahibkarlıq fəaliyyətinin əsas istiqamətləri texnologiyanın tətbiqi, dayanıqlılığa diqqətin cəmlənməsi, fərdiləşdirilmiş təcrübələr, rəqəmsal marketinq strategiyalarından istifadə və əməkdaşlıqların formalaşdırılmasıdır. Bu tendensiyaları izləməklə, sahibkarlar turistlərin dəyişən ehtiyaclarını və üstünlüklərini qarşılaya və sənayedə rəqabət üstünlüyü əldə edə bilərlər. Tədqiqatın nəticələrindən bəlli olur ki, turizm xidməti bazarının inkişafı bütün iştirakçıların gəlirlərinin artmasına kömək edəcək və bununla da yeni sahibkarlar tərəfindən təmsil olunan təsərrüfat subyektləri üçün bu sahənin yüksək gəlirliliyini təmin edəcəkdir.

Turizm-rekreasiya zonalarının hüquqi statusunu müəyyənləşdirmək, turizm zonalarının və turist marşrutlarının müəyyən olunmasını təmin etmək, turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanmasına və tətbiq edilməsinə nail olmaq əhəmiyyətlidir. Eyni zamanda turizm sahəsində çalışan insanların peşə hazırlığı səviyyəsini artırmaq və turizm sahəsində zəngin kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək, turizm ehtiyatlarının qorunmasını təmin etmək və bu ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq lazımdır. Kənd turizmi sahəsində ilk növbədə ixtisaslı kadrlar yetişdirmək üçün xarici ölkələrdən mütəxəssislərin dəvət edilməsi, təlimlərin keçirilməsi lazımdır. İşsizliyin azaldılması və kənd təsərrüfatının xüsusilə də geniş yayılmadığı kənd və rayonlarda əhalinin məşğulluğunu təmin etmək üçün kənd turizminin inkişaf etdirilməsi vacib məsələlərdən biridir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 86-89**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection / 86-89**
**https://doi.org/10.36719/2025/XII**

**Müşfiq Tarıverdiyev**
Mingəçevir STEAM Mərkəzi
magistrant
https://orcid.org/0009-0005-4106-8225
tariverdiyevmushfiq@gmail.com

# Kiçik yaşlı məktəblilərin tərbiyəsində məktəb ilə ailənin birgə işi

***Açar sözlər:*** *ailə, uşaq tərbiyəsi, sosiallaşma, əməkdaşlıq, şəxsiyyətin formalaşması*
***Keywords:*** *family, child upbringing, socialization, cooperation, personality development*

Ailə, uşağın həyatında ilk sosial mühit olaraq onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Uşaq ailədə mənəvi və əxlaqi dəyərləri, mədəni ənənələri və sosial normaları öyrənir. Uşaq tərbiyəsində ailənin rolunu bir çox mütəfəkkir və alimlər vurğulamışdır. Bu şəxslərdən biri olan XI əsrdə yaşamış, türk dilinin ilk lüğətini və ensiklopedik mənbəsini hazırlayan Mahmud Kaşğari belə demişdir: "Ailə, uşağın ilk məktəbi, valideynlər isə ilk müəllimləridir". Bu fikirdə ailənin və valideynlərin təsir gücü vurğulanaraq deyilir ki, valideynlər, uşağa təkcə sözlə deyil, hərəkətləri və münasibətləri ilə də dərs verən ilk müəllimlərdir.

Ailə insanın sosiallaşması, tərbiyəsi və psixoloji dəstək almasını, müəyyən həyat tərzi və münasibətlərinin formalaşmasını şərtləndirən institutdur. Ailə ayrıca şəxsiyyətin, eləcə də bütövlükdə cəmiyyətin həyatında mühüm rol oynayır. Ailə psixoterapevtik mühitdir (Ağayeva, 2023, s.59).

Ailənin və məktəbin birgə işinin əhəmiyyəti, uşağın inkişafında mükəmməl bir təməl yaratmağa kömək edir. Ailə, uşağın

**https://doi.org/10.36719/2025/XII**

ilk təhsil və tərbiyə mühiti olaraq, ona əsas əxlaqi və sosial dəyərləri öyrədir. Məktəb isə bu təlimatları daha da inkişaf etdirir, uşağın intellektual bacarıqlarını artırır və cəmiyyətlə necə münasibət quracağını öyrədir.

Ailənin və məktəbin əməkdaşlığı uşağın tərbiyə və təhsil prosesindəki uğuru üçün vacibdir. Ailə, uşağın məktəbdəki fəaliyyətlərini dəstəkləyərək, təhsil həyatını müşahidə edir və lazım olduqda müəllimlərlə əməkdaşlıq edir. Məktəb isə, ailənin verdiyi dəyərləri və tərbiyəni zənginləşdirərək, uşağın inkişafını hərtərəfli dəstəkləyir. Bu iki institutun birgə fəaliyyəti, uşağa düzgün davranış modellərini öyrətməklə yanaşı, onun gələcək-dəki şəxsiyyətinin və sosial bacarıqlarının inkişafında əvəzolun-maz rol oynayır. A.S.Makarenkonun dediyi kimi: "Məktəb dövlət təşkilatıdır, ailə isə məişət təşkilatı; ona görə də məktəb dövlət tərbiyəsinin müvəkkili kimi ailə tərbiyəsinə təsir etməli-dir."

Böyüməkdə olan nəslin tərbiyəsi mənəviyyatca zəngin, ide-yaca mətin, yüksək əxlaqlı şəxsiyyət formalaşdırılması bu gün cəmiyyətimiz qarşısında duran mühüm vəzifədir. Bu kompleks problemdir. Bu problemin həllində məktəb həlledici rol oynasa da ailə və ictimaiyyətin köməyi olmadan tərbiyə işi tam müvəf-fəqiyyətlə nəticələnə bilməz (Ağayev, 2006, s.155).

Ailə və məktəbin qarşıya qoyduğu məqsəd birdir, hər ikisi uşaq və gənclərə yüksək elmi biliklər verməklə yanaşı, hərtərəfli bacarıq, vətənə hədsiz məhəbbət, millətə sədaqət, əməyə hör-mət, kollektivçilik və həmrəylik hissi, yüksək şüurlu intizam, nümunəvi əxlaqi sifətlər tərbiyə etmək və s. keyfiyyətlər aşılayır (Ağayev, 2006, s.160).

Ailə və məktəb, uşağın maraqlarına uyğun olaraq, onun təh-sili və inkişafı üçün məsuliyyəti bölüşməlidir. Məktəb-ailə mü-nasibətlərinin əlaqələndirilməsi sahəsində aparılan işlər sırasın-da mühazirələr, "açıq qapı" günləri, disputlar və s. tədbirlər də mühüm rol oynayır. Valideynlər daim təlim-tərbiyə prosesində

iştirak etməli, övladlarının parlaq gələcəyi naminə məktəblə müntəzəm əlaqə saxlamalıdırlar. Onlar məktəbin ictimai həyatında, onun idarəetmə işlərində iştirak etməklə problemlərlə yaxından tanış olur və bu problemlərin həllində maraqlı tərəf kimi iştirak etməyə çalışırlar (Əbilova, 2023, s.60).

Məktəbin ailələrlə əlbir işinin müxtəlif forma və metodları var. Bunlar aşağıdakılardır: a) fərdi əlaqə formaları. Bu əlaqə zamanı müəllim hər bir valideyni ayrılıqda məktəbə çağırır, uşağın təlim işlərinə kömək və ailə tərbiyəsi barədə valideynlərə məsləhət verir. b) qrup halında əlaqə formaları. Bu əlaqə valideynlərə pedoqoji – psixoloji bilikləri çatdırmaq məqsədi daşıyır. c) kollektiv əlaqə. Bu əlaqənin əsas nümunəsi ümumvalideyn iclasıdır. Hər rübün və tədirs ilinin yekununda bu iclaslar keçirilir. Hər bir müəllim və sinif rəhbəri bu iclaslara ciddi hazırlaşmalı, rübün, yaxud tədris ilinin yekunlarını çatdırmaqla bərabər, həm də valideynlərə pedoqoji biliklər verməlidir. Bütün bu deyilənlərlə yanaşı, məktəbdə valideyn komitəsi (Valideyn - müəllim assosiasiyaları) yaratmaq vacibdir. Valideyn komitəsi həm ümumməktəb, həm də siniflər üzrə yaradılır, ilin əvvəlində hər sinfin valideyn iclasında 3-5 nəfərdən ibarət komitə seçilir (Bədəlova, 2015).

Məktəb və ailə arasında səmərəli əməkdaşlıq uşağın tərbiyəsi, cəmiyyətə yararlı bir fərd kimi yetişməsi üçün ideal şərait yaradır. Uşağın hərtərəfli inkişafı üçün ailə və məktəb arasında əməkdaşlıq mütləqdir. Bunun üçün: 1) Məktəbdə valideynlər üçün mühazirələr və "açıq qapı" günləri təşkil edilməlidir. 2) Müəllimlər valideynlərlə fərdi görüşlər keçirərək uşağın inkişafı barədə müzakirələr aparmalıdır. 3) Valideyn-müəllim komitələri yaradılaraq, məktəb və ailə arasında birgə fəaliyyət təşviq edilməlidir. 4) Valideynlər uşağın təlim və tərbiyə prosesində fəal iştirak etməli, mütəmadi olaraq məktəblə əlaqə saxlamalıdırlar. Beləliklə, ailə ilə məktəbin səmərəli əməkdaşlığı uşağın hərtə-

rəfli inkişafını və cəmiyyət üçün dəyərli bir şəxsiyyət kimi formalaşmasını təmin edəcək.

## Ədəbiyyat

1. Ağayev, M. (2006). Kişik yaşlı məktəblilərin tərbiyəsi. *ADPU-nun mətbəəsi*.
2. Ağayeva, G. (2023). Ailədaxili münasibətlərin uşaq şəxsiyyətinin formalaşmasında rolu. *Əmək və sosial münasibətlər*. №1 (19), s 59-65.
3. Bədəlova, S. (2015). *Təlim tərbiyə. Mühazirə mətnləri*. ADPU-nəşriyyatı.
4. Əbilova, L.A. (2023). Kiçik yaşlı məktəblilərin Şəxsiyyət kimi formalaşmasında ailə ilə məktəbin birgə işi. *Məktəbəqədər və ibtidai təhsil jurnalı*. №4 - s 49-61.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 90-92**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection / 90-92**
**https://doi.org/10.36719/2025/XII**

**Səməd Qasımov**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0002-4878-5698
789sqasimov5672882@gmail.com

# İdarəetmə sisteminin effektivliyinin meyarları

***Açar sözlər:*** *effektivlik, təşkilat, idarəetmə prosesi, investisiya, innovasiya*
***Keywords:*** *efficiency, organization, management process, investment, innovation*

İdarəetmə sistemi digər fəaliyyət növləri kimi, onun qiymətləndirilməsini və effektivliyinin müəyyən edilməsini tələb edir. Bu məsələ olduqca mürəkkəbdir, çünki rəsmiləşdirilmiş nəticələrin olmaması, yerinə yetirilən müəyyən iş növlərinin kəmiyyət qiymətləndirilməsi səbəbindən qiymətləndirmələr həmişə birbaşa şəkildə həyata keçirilə bilməz. Buna görə də, idarəetmə işinin səmərəliliyini müəyyən etmək üçün çox vaxt dolayı üsullardan istifadə olunur.

İdarəetmə prosesində aşağıdakılardan istifadə edilir: insan, maddi, informasiya, maliyyə resursları və onlardan məqsədyönlü istifadə olunmasından asılı olaraq nəticə əldə edilir. İdarəetmənin effektivliyi idarəetmə sistemlərinin qarşılıqlı əlaqəsi kimi sistemin və idarəetmə prosesinin fəaliyyətinin səmərəliliyi, yəni idarəetmə komponentlərinin qarşılıqlı əlaqəsinin inteqrasiya olunmuş nəticəsidir. İdarəetmənin effektivliyini qiymətləndirərkən ən çətini onun nəticəsini müəyyən etməkdir.

İdarəetmə işinin nəticələri və səmərəliliyi bir çox şərtlərdən asılıdır. Bunlara daxildir: işçinin potensialı, onun müəyyən işi

**https://doi.org/10.36719/2025/XII**

yerinə yetirmək qabiliyyəti; istehsal vasitələri; kollektivin fəaliyyətinin sosial aspektləri; təşkilat mədəniyyəti və s.

İdarəetmənin effektivliyinin bir çox növləri mövcuddur:

- təsir vasitəsi ilə - hədəf, strateji və taktiki, planlı, proqnozlaşdırıcı, proqramlı, konseptual, motivasiya və stimullaşdırıcı, resurs və potensial;
- təsirin məzmununa görə - iqtisadi, sosial, innovativ, təşkilati, ekoloji;
- effektin təzahür səviyyəsinə görə - milli iqtisadi, regional, sahəvi, xarici iqtisadi;
- səmərəliliyin formalarına görə - menecerin fəaliyyəti, idarəetmə aparatı, idarəetmə prosesi, idarəetmə sistemi, idarəetmə innovasiyaları;
- idarəetmə sistemlərinin növləri üzrə - marketinq, innovasiya, istehsal, maliyyə.

İdarəetmənin effektivliyinin qiymətləndirilməsi kifayət qədər mürəkkəbdir, ona görə də belə bir qiymətləndirmə üçün səmərəliliyə təsir edən müxtəlif amilləri nəzərə alan çoxlu sayda meyar və üsullar mövcuddur. İdarəetmənin effektivliyinin qiymətləndirilməsində aşağıdakılar nəzərə alınmalıdır:

- idarəetmənin nəticəsi həmişə mənfəətlə olmur;
- belə qiymətləndirmə birbaşa və dolayı nəticəyə gətirib çıxarır ki, bu da onun əldə edilməsində rəhbərliyin rolunu gizlədir;
- idarəetmənin nəticəsi təkcə iqtisadi deyil, həm də sosial, sosial-iqtisadi ola bilər.

İdarəetmənin effektivliyinin qiymətləndirilməsində mühüm göstəricilər subyektlərin yekun nəticələrini və idarəetmənin effektivliyini ən tam xarakterizə edən mənfəət və rentabellikdir. Eyni zamanda, bu təsərrüfat vahidinin fəaliyyəti ilə əlaqəli olmayan amillərin mənfəətə təsirini istisna etmək lazımdır. İdarəetmənin effektivliyini qiymətləndirərkən bütün ümumiləşdirmə sistemindən və xüsusi göstəricilərdən kompleks şəkildə istifadə etmək lazımdır. İdarəetmə fəaliyyətinin idarəetmə sub-

**https://doi.org/10.36719/2025/XII**

yektinə münasibətdə effektivliyini kəmiyyət (iqtisadi effekt) və keyfiyyət göstəriciləri (sosial səmərəlilik) ilə xarakterizə etmək olar.

İdarəetmə sisteminin fəaliyyətinin kəmiyyət göstəricilərinə aşağıdakılar daxildir:

– əmək göstəricilərinin məcmusu - idarəetmə sahəsində canlı əməyin qənaəti (idarəetmə proseslərinin sayı, əmək intensivliyinin azalması) və s.;

– idarəetmə sisteminin maliyyə fəaliyyətinin göstəriciləri (idarəetmə xərclərinin azaldılması və s.);

– vaxta qənaət göstəriciləri (informasiya texnologiyalarının, təşkilati prosedurların tətbiqi nəticəsində idarəetmə dövrlərinin müddətinin azaldılması) və s.

Bu göstəricilərin effektivliyi əmək şəraitinin asanlaşdırılması və yaxşılaşdırılması, kollektivdə psixoloji vəziyyətin yaxşılaşdırılması, menecerlərlə ifaçılar arasında normal münasibətlərin qurulması və s. ilə xarakterizə oluna bilər. Əgər idarəetmənin səmərəliləşdirilməsi nəticəsində qeyd edilən göstəricilərin yüksək səviyyəsinə nail olmaq mümkün olarsa, o zaman idarəetmə sisteminin təşkilində müsbət dəyişiklik baş verir və iqtisadi effekt əldə edilir. Təşkilatın idarə edilməsinin təkmilləşdirilməsi, kompyuter informasiya texnologiyalarının tətbiqi müəyyən kapital qoyuluşları, investisiyalar tələb edir ki, bu da bu layihələrin idarə olunmasının qiymətləndirilməsini tələb edir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 93-95**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 93-95**
**https://doi.org/10.36719/2025/XII**

**Günay İsmayılova**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0000-5122-714X
ismagunay@mail.ru

# Banklarda etik davranış qaydalarının icrasında mövcud problemlər və onların həlli yolları

***Açar sözlər:*** *müştəri məmnuniyyəti, etik davranış qaydaları, etik kodeks, daxili nəzarət, şəffaflıq*
***Keywords****: customer satisfaction, rules of ethical conduct, code of ethics, internal control, transparency*

Bank sektorunda etik davranış qaydaları işçi-müştəri münasibətlərinin şəffaflığı və güvənə əsaslanması üçün olduqca mühüm əhəmiyyətə malikdir. Lakin etik qaydaların icrasında bir sıra problemlər də mövcuddur. Bunlara misal olaraq aşağıda qeyd olunanları göstərmək olar:

1. İşçilərin məlumatlılıq səviyyəsinin aşağı olması
2. Mənfəət əsaslı yanaşma
3. Daxili nəzarətin zəifl olması
4. Şəxsi məlumatların qorunmaması və s.

Bu problemlərin həlli üçün etik kodekslərin tətbiqi, mütəmadi təlimlər, şəffaf nəzarət sistemləri və müştəri məmnuniyyətinə fokuslanan yanaşmalar olduqca vaciblik təşkil edir. Bu sistem bank sektorunda etik davranış qaydaları, müştəri məmnuniyyətinin təmin edilməsi, o cümlədən, maliyyə bazarlarında güvənin qorunması üçün gərəklidir.

Etik davranış qaydalarının əhəmiyyəti - bank sektorunda etik davranış qaydaları işgüzar mühitin sağlamlaşdırılması, həmçinin onun güclü olması və müştərilərlə işçi arasında etibarın qorun-

**https://doi.org/10.36719/2025/XII**

ması üçün əsas prinsiplərdən biridir. Bu qaydalar bilavasitə şəffaflığı təmin edir, qanunsuz fəaliyyətlərin və sui-istifadə hallarının qarşısını alır, həmçinin bankların cəmiyyət tərəfindən müsbət imicinin formalaşmasına da müsbət təsir göstərir.

Etik davranış qaydalarının bir sıra mövcud problemlərini aşağıdakı kimi qeyd etmək olar:

- **Maarifləndirmə çatışmazlığı**: Bir çox bank işçisi etik davranış qaydalarını kifayət qədər anlamır və ya bu qaydaları tətbiq etməkdə müəyyən çətinliklər çəkir.
- **Mənfəət əsaslı yanaşma**: Banklar qısa müddətli qazanc əldə etmək məqsədilə bəzən etik qaydaları görməzdən gələ bilirlər. Bu da müştəri hüquqlarının pozulmasına, o cümlədən bank imicinin korlanmasına gətirib çıxarır.
- **Daxili nəzarət mexanizmlərinin zəifliyi:** Etik pozuntuların aşkar olunması və qarşısının alınması üçün sistemlərin yetərsiz olması problemləri həll etmir. Əksinə onları dərinləşdirir.
- **Müştəri məlumatlarının təhlükəsizliyi**: Şəxsi məlumatların qorunmasında zəif yanaşmalar müştərilərin güvənini azaldır, həmçinin banka qarşı mənfi fikirlər formalaşdırır.
- **İşçilərarası münasibətlərin qeyri-etik olması**: İş yerində diskriminasiya, mobbinq və ya təzyiq halları əmək məhsuldarlığını aşağı salır.

Bu tipli daha bir neçə problemləri qeyd etmək olar. Lakin bu problemlərin həlli yollarına fokuslanmaq, onları həll etmək daha çox səmərə verəcəkdir.

**Aşağıda bir sıra həll yolları qeyd olunmuşdur:**

- **Maarifləndirmə və təlim**: Bank əməkdaşlarına etik davranış qaydaları haqqında mütəmadi təlimlərin, seminarların keçirilməsi daha çox müsbət nəticələr verəcəkdir.
- **Etik kodeksin tətbiqi**: Şirkətin etik standartlarını və davranış qaydalarını əhatə edən sənədin hazırlanması, işçilərə çatdırılması və onların tətbiqi.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 93-95**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 93-95**
**https://doi.org/10.36719/2025/XII**

- **Şəffaf nəzarət mexanizmləri**: Pozuntuların qarşısını almaq üçün daxili audit və nəzarət sistemlərinin gücləndirilməsi, sistemli yanaşma vacib mərhələdir.

Etik davranış qaydalarının bank sektorunda uğurla tətbiqi yalnız qaydaların mövcudluğu ilə deyil, həm də onların effektiv icrasını təmin edən idarəetmə mexanizmlərinin gücləndirilməsi ilə həyata keçirilir. Etik qaydalara riayət etməklə banklar həm müştərilərin etibarını qazana bilər, həm də uzunmüddətli biznes uğurları əldə edə bilərlər. Buna görə də banklar etik dəyərləri korporativ mədəniyyətin əsasına çevirməli, işçiləri və rəhbərliyi bu prinsiplərə uyğun hərəkət etməyə təşviq etməlidirlər.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 96-99**
*Modern Requirements in Science and Education* **XII Theses Collection / 96-99**
**https://doi.org/10.36719/2025/XII**

**Müşfiq Tarıverdiyev**
Mingəçevir STEAM Mərkəzi
magistrant
https://orcid.org/0009-0005-4106-8225
tariverdiyevmushfiq@gmail.com

# Mobinq və bullinqin təhsilin idarə edilməsinə təsiri və effektiv yanaşmalar

***Açar sözlər:*** *mobillinq, bullinq, məktəb, zorakılığın səbəbləri, müəllim, pedaqoji problem*
***Keywords:*** *mobilizing, bullying, school, causes of violence, teacher, pedagogical problem*

Tədqiqat mobbinq və bullinqin insana təsirləri ilə bağlı milli və beynəlxalq araşdırmaları təhlil etmək üçün aparılıb. Tədqiqatlar təhlil edilərkən, tədqiqatların aparıldığı illərə, istifadə olunan açar sözlərə, məqsədlərə, istifadə olunan metodlara, tədqiqat qruplarına, məlumat toplama vasitələrinə, məlumat təhlillərinə, araşdırılan mövzulara, nəticələrə görə qiymətləndirilmişdir. Tədqiqatda mobbinq prosesi, mobbinqi yaradan amillər, bullinqin fəsadları müzakirə edilir və mobbinqlə mübarizə yolları göstərilir. Məzmun təhlili nəticəsində müəyyən edilib ki, mobbinq və bullinq fərdin psixoloji dayanıqlığına mənfi təsir göstərir.

Etika, hüquqi baxımdan mobbinq kimi tanınan "psixoloji zorakılıq" latın "mobil vulgus" sözündən gəlir (Eser, 2006; Tutar, 2004).

Leymann (1996) tərəfindən iş dünyası kontekstində mobbinq anlayışının tərifi belədir: "Mobbinq emosional hücumdur. Bu, bir və ya bir neçə şəxsin digər şəxsə qarşı düşmənçilik və əxlaqsız üsullarla sistemli şəkildə həyata keçirdiyi psixoloji terrordur. Mobbinq anlayışı iş yerində psixoloji terror, iş yeri trav-

**https://doi.org/10.36719/2025/XII**

ması, iş yerində zorakılıq, iş yerində psixoloji təcavüz, iş yerində emosional hücum, qorxutma, emosional istismar anlayışlarına uyğun gəlir (Çobanoğlu, 2005, s.20).

Psixoloji zorakılığa fərdin şəxsiyyətinə, reputasiyasına, peşə həyatına, şəxsi həyatına və cinsi təcavüzə birbaşa və ya dolayı yolla hücumlar daxildir. "Mobbinq psixoloji zorakılıq və ya psixo-terrordur, lakin zorakılıq deyildikdə, ümumiyyətlə, fiziki müdaxilə və maddi izlər buraxan faktiki zorakılıq yada düşür. Bununla belə, zorakılıq təkcə kobud formada fiziki deyil, həm də iqtisadi, siyasi və psixoloji ola bilər. Zorakılığın zərif və mürəkkəb forması olan mobbinq fiziki zorakılıqdan (bullinqdən) daha təhlükəli və qalıcı psixosomatik təsirlərə malik ola bilər (Tutar, 2004).

Mobbinq, ilk növbədə ünsiyyət elementlərindən uzaq durmaqla, sərt tənqid və danlamaq, istedadlara məhəl qoymamaq, məclislərdə həddən artıq yüklənmə, aşağılama kimi özünə hörmətə hücumdur. Sonradan böhtan atmaq, kiminsə haqqında yalan qeybət yaymaq kimi sosial statusa hücumlar şəklində özünü göstərir. Qabaqcıl mərhələlərində onun şiddəti getdikcə artır və bu, şifahi cinsi qısnama (qadınlara qarşı), din, dil, irq, fiziki fərqlərə görə ayrı-seçkiliyə və hətta qurbanın istefasına və işdən çıxarılmasına səbəb ola bilər. Psixoloji zorakılıq prosesi ya insanın özünü öldürməsi və qeyd-şərtsiz itaətini təmin etməsi, ya da istefa verməsi və ya hətta intiharla başa çatır (Tutar, 2004).

İngilis dilində bullying (bullying, bully - bully, brawler, bully, brute, rapist) başqa birində qorxu yaratmağa və bununla da onu özünə tabe etməyə yönəlmiş qorxutma, fiziki və ya psixoloji terror mənasını verir. Hal-hazırda elmi ədəbiyyatda zorakılıq bir uşaq və ya bir qrup uşaq tərəfindən digər uşağa (digər uşaqlara) qarşı uzunmüddətli qəsdən qəddar, fiziki və (və ya) psixi rəftar prosesi kimi müəyyən edilir.

Bullinqin əsas səbəbi uşaqlara əxlaqi və etik normaların aşılanmamasıdır. Şəxsiyyətin şəxsiyyət kimi tam inkişafı və real-

laşması xüsusi şəraitdə mümkündür. Bu şərtlər fərdin yüksək keyfiyyətli sosiallaşmasından və təhsil mühitində psixoloji sağlamlığından ibarətdir. Həmçinin, şəxsi keyfiyyətlərlə yanaşı, sosial inkişaf problemi də zorakılığın yaranmasına kömək edir. Məişət zorakılığı və həddindən artıq müdafiə sistematik olaraq zorakılıq qurbanlarının ailələrində baş verir. Zorbalığa başlayan uşaqlar çox vaxt məişət zorakılığının qurbanı olurlar.

Məktəb zorakılığı psixoloji zorakılığın kifayət qədər yayılmış formasıdır. Psixi sağlamlığa və sosiallaşmaya dəyən zərər müəyyən meyarlara cavab verir. Bura düşmən niyyət, ətraf mühitin tarazlığının pozulması, təkrarlama, sıxıntı və təxribat daxildir. Zorbalığın şagird üçün qəzəb, depressiya, stress və intihar da daxil olmaqla geniş nəticələri ola bilər. Bundan əlavə, zorakılıq edən şəxs müxtəlif sosial pozğunluqlar inkişaf etdirə və ya cinayət fəaliyyətinə cəlb olunma şansını artıra bilər.

Uşağın davranışında həmişə uşağın zorakılığa məruz qaldığına və ya zorakılığa məruz qaldığına dair xəbərdarlıq əlamətləri var. Dünyada zorakılığın qarşısının alınması xidmətləri və zorakılığa məruz qaldıqları təqdirdə uşaqların öhdəsindən necə gələ biləcəkləri barədə məlumat verən bir çox proqram və təşkilatlar mövcuddur (Browne ve Smith, 2008).

Məktəb zorakılığı uşağın davranışının arxasında duran səbəblərlə müşayiət olunur. Məktəb zorakılığının və zorakılığın əsas səbəbləri gender və sosial normalar və daha geniş kontekst və struktur amillərdir.

Zorbalıq məktəbdə şagirdlərin fiziki və emosional təhlükəsizliyini təhdid edə bilər və onların öyrənmə qabiliyyətinə mənfi təsir göstərə bilər. Zorbalıqla mübarizə aparmağın ən yaxşı yolu onu başlamazdan əvvəl dayandırmaqdır. Bunun qarşısını almaq üçün müəllimlər tərəfindən ən çox istifadə edilən strategiyalar ünsiyyət, vasitəçilik və kömək axtarışıdır.

Məktəb işçilərinin və şagirdlərin zorakılığın qarşısının alınması və aradan qaldırılması üçün təlimlərin keçirilməsi məktəb-

**https://doi.org/10.36719/2025/XII**

lərdə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Zorbalığın baş verməmişdən əvvəl həll edilməsi ilə yanaşı, qarşısının alınması strategiyası tələbələri zorakılıq haqqında maarifləndirməkdir (Ərşad, 2016).

Beləliklə, təhsil mühitində bullinqin qarşısının alınması müxtəlif yollarla həyata keçirilə bilər. Zorbalığın qarşısının alınması hərtərəfli psixoloji, pedaqoji və sosial işdir. Psixoloq, müəllim, sosial işçi, valideyn kimi mütəxəssislər olmadan həyata keçirilə bilməz. Bu problem bütün mütəxəssislərin cəlb edilməsi ilə məqsədyönlü iş tələb edir.

1. **Ədəbiyyat**

2. Browne, M. N. and Smith, M. A. (2008). Mobbing In the Workplace: The Latest İllustration of Pervasive Individualism in American Law. *Employee Rights and Employment Policy Journal*, 12, 131-161.
3. Çobanoğlu, Ş. (2005). *Mobbing; İşyerinde Duygusal Saldırı ve Mücadele Yöntemleri*. Timaş Yayınları Psikoloji Dizisi.
4. Eser, O. (2006). Mobbing Kavramının Türkçe Serüveni. http://turkoloji.cu.edu.tr/YENI%20TURK%20DILI/oktay_eser_mobbing_kavrami.pdf adresinden erişildi.
5. Ərşad, S. (2016). Uşaq və yeniyetmələrdə psixoloji travmanın müalicəsi üçün təlimatlar. Holocomb.
6. Tutar, H. (2004). İşyerinde Psikolojik Şiddet Sarmalı: Nedenleri ve Sonuçları. *Yönetim Bilimleri Dergisi*. 2 (2), 101-128

**https://doi.org/10.36719/2025/XII**

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Xalıqverdi Babayev**
AMEA, Lənkəran Regional Elmi Mərkəzi
aqrar elmlər üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-0841-3179
babayev.xaliqverdi58@mail.ru
**Nahid Əzizli**
Lənkəran Dövlət Universiteti
https://orcid.org/0009-0007-9522-0215
nahidezizli43@gmail.com
**İlhaməİbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0009-0001-0267-7168
ilhame.ibrahimli@mail.com

# Feyxoa bitkisinin azotla qidalanmasının optimallaşdırlılması

***Açar sözlər:*** *feyxoa, üzvi və mineral gübrələr, azotlu gübrələr, məhsuldarlıq, keyfiyyət, münbitlik*

***Keywords:*** *feihoa, influence of mineral fertilizers, nitrogen, soil fertility, productivity, fruit quality*

Lənkəran-Astara bölgəsinin fermer təsərrüfatlarının torpaq sahələrində feyxoa bitkisinin yetişdirilməsinə üstünlük verilsə də, onun gübrələnməsi düzgün istifadə edilmədiyindən əksər əkin yerləri bataqlaşmış və şoran sahələr genişlənmişdir. Son zamanlar regional iqlim dəyişkənliyi və rütubətli zona üçün xarakterik olan intensiv yağışlar nəticəsində qrunt sularının səviyyəsi

**https://doi.org/10.36719/2025/XII**

qalxmış, əkin qatında duzların miqdarı çoxalmaqla bitkilərin böyümə, inkişafı və məhsuldarlığı kəskin surətdə azalmışdır. Ona görə də torpağın su rejiminin bitkinin kökü yayılmış torpaq qatında nəmləndirilməsi, digər amillərin, o cümlədən gübrələrin də səmərəliliyini artırmış olur. Beləliklə, bütün vegetasiya amilləri (işıq, istilik, su, hava və qida maddələri) optimal surətdə əlaqələndirildikdə torpaqda effektiv münbitlik yaranmaqla yüksək və keyfiyyətli məhsul alınmasına şərait yaranır.

Bu məqsədlə feyxoa bitkilərinin mineral qidalanmasının optimallaşdırlılması, həmçinin gübrələmə sisteminin elmi əsaslandırılmış nəzəri və eksperimental əsasları işlənib hazırlanmamışdır. Çöl təcrübələri 2023-2024-cü illərdə Lənkəran Çay Filialının Təcrübə sahəsində aparılmışdır. Gübrələrdən düzgün istifadə edilməyəndə bitkinin məhsuldarlığı və məhsulun keyfiyyət göstəriciləri aşağı düşməklə, ətraf mühitin ekoloji müvazinətini pozmuş olur. Bu baxımdan Lənkəran bölgəsi şəraitində feyxoa bitkisinin gübrələmə sisteminin aqroekoloji əsaslarla öyrənilməsi aktual olub böyük elmi-praktik əhəmiyyətə malikdir. İşin əsas məqsədi deqradasiyaya uğramış podzollu-qleyli-sarı torpaqlarda müxtəlif növ azotlu gübrələrin feyxoa bitkisinin məhsuldarlığına təsirini öyrənmək, optimal gübrə nörmalarını müəyyən etmək və torpağın münbitlik göstəricilərinin optimallaşdırılması üçün kompleks aqromeliorativ tədbirlər sistemi işləyib hazırlamaqdan ibarətdir.

**Müxtəlif növ gübrələrin feyxoa bitkisinin məhsuldarlığına təsiri**

| Variantlar | Məhsul sent/ha | Artım | |
|---|---|---|---|
| | | Sent/ha | % |
| Deqradasiyaya uğramamış | | | |
| Nəzarət (gübrəsiz) | 50,5 | - | - |

**https://doi.org/10.36719/2025/XII**

| | | | |
|---|---|---|---|
| Kompost 20t/ha+ $P_{180}K_{150}$ (fon) | 73,6 | 23 | 46 |
| Fon+ $NH_4NO_3$ 120 | 92,5 | 42 | 83,2 |
| Fon+ $NH_4NO_3$ 150 | 118 | 67,5 | 133,6 |
| Fon+ $NH_4NO_3$ 180 | 122,2 | 72 | 142,6 |
| Fon+$CO(NH_2)_2$ 120 | 111 | 60,5 | 120 |
| Fon+$CO(NH_2)_2$ 150 | 138,2 | 88 | 174 |
| Fon+$CO(NH_2)_2$ 180 | 150,0 | 99,5 | 197 |
| Orta dərəcədə deqradasiyaya uğramış | | | |
| Nəzarət (gübrəsiz) | 30 | - | - |
| Kompost 20t/ha+ $P_{180}K_{150}$ (fon) | 46 | 16 | 53 |
| Fon+ $NH_4NO_3$ 120 | 53 | 23 | 77 |
| Fon+ $NH_4NO_3$ 150 | 62 | 32 | 107 |
| Fon+ $NH_4NO_3$ 180 | 74 | 44 | 147 |
| Fon+$CO(NH_2)_2$ 120 | 85 | 55 | 183 |
| Fon+$CO(NH_2)_2$ 150 | 96 | 66 | 220 |
| Fon+$CO(NH_2)_2$ 180 | 107 | 77 | 257 |

Feyxoa bitkisinin məhsuldarlığına gübrələr, xüsusilə, onların müəyyən edilmiş optimal normaları daha yaxşı təsir göstərmişdir. Cədvəldən aydın olur ki, tətbiq olunan gübrələr, xüsusən, azotun $NH_4N0_3$ və CO $(NH_2)_2$ formaları, onların norma və nis-

**https://doi.org/10.36719/2025/XII**

bətlərindən asılı olaraq, məhsuldarlığa müxtəlif dərəcədə təsir göstərmişdir. Belə ki, hər iki gübrə formaları ilə ən yüksək məhsuldarlıq 180 kq karbamid CO $(NH_2)_2$ $P_{150}K_{120}$+20t/ha "Lənkəran" kompostu və eyni fonla (zəminlə) $N_{180}$ $(NH_4NO_3)$ verilmiş variantlarda alınmışdır. Hər iki gübrə formalarında $N_{180}P_{180}K_{150}$+20t/ha "Lənkəran" kompostunun tətbiqi gübrəsiz sahəyə nisbətən artım 72,0-99,5 sent/ha və ya 142,6-257,0 % olmuşdur.

Lənkəran bölgəsi şəraitində deqradasiyaya uğramış torpaqlarda ilk dəfə olaraq müxtəlif növ, forma və nisbətlərdə azotlu gübrələri verilməsinin feyxoa bitkisinin böyüməsinə, inkişafına və məhsuldarlığına təsiri öyrənilmiş və səmərəli gübrə normaları müəyyən edilmişdir. Alınmış nəticələr göstərir ki, azot gübrə formalarından karbamid $(CO(NH_2)_2$ tətbiqi ammonium nitrata $(NH_4N0_3)$ nisbətən daha səmərəlidir və daha yaxşı təsir göstərmişdir. Yəni, ammonium nitrata nisbətən artım 33,0 sent/ha və ya 110,0 % təşkil edir.

***Elm və Təhsildə Müasir Tələblər* XII Tezislər Toplusu / 104-107**
***Modern Requirements in Science and Education* XII Theses Collection/104-107**
**https://doi.org/10.36719/2025/XII**

**Rəhim Bilalov**
Lənkəran Dövlət Universiteti
baytarlıq elmləri üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-6869-7355
rahim19511951@gmail.com
**Mirkamran Mehtizadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-8737-8413
mehtizademirkamran@gmail.com

# Mastit xəstəliyi zamanı iqtisadi zərər

***Açar sözlər:*** *süd vəzi, inək, iltihab, xəstəlik, mastit, iqtisadi zərər*
***Keywords:*** *mammary gland, cow, inflammation, disease, mastitis, economic loss*

Heyvandarlıqda ən mühüm vəzifələrdən biri süd istehsalının artırılması və onun sanitar keyfiyyətinin yüksəldilməsi olmalıdır. Bu da öz növbəsində təsərrüfatların iqtisadiyyatı və ölkə əhalisinin ərzaq təhlükəsizliyi, həmçinin insanların sağlamlığı üçün böyük əhəmiyyət kəsb edir. Mastit-süd vəzilərinin iltihabıdır. Xəstəlik süd vəzin bir hissəsinin və ya bütünlüklə zədələnməsi ilə baş verir. Mastitin yaranmasında infeksion faktor xüsusi əhəmiyyət kəsb edir. Mastit xəstəliyi təhlükəli kateqoriyaya aiddir, çünki inəyin südü xəstəlik müddətində və müalicə üçün istifadə edilən antibiotiklərin varlığı səbəbindən bir müddət sonra da istifadə üçün yararsız olur. Buna görə də, fermerlər heyvanın müalicəsi üçün böyük maliyyə zərərləri çəkir və xəstəliyi bərpa etmək üçün vaxt və vəsait itirirlər. Əksər müəlliflər iddia edirlər ki, mastitlərin yaranmasında heyvanların 90% sağılma texnolo-

**https://doi.org/10.36719/2025/XII**

giyası və sağım aparatları ilə istifadə qaydalarının pozulmasıdır. Müasir elmi məlumatlar təsdiqləyir ki, mastit dünyanın bütün ölkələrində südçülük təsərrüfatlarının əsas problemidir. İnəklərdə mastit çox ciddi, geniş yayılmış bir xəstəlik olaraq uzunmüddətli operativ müalicə tələb edir. İnəklərin mastitləri yalnız iqtisadi səmərəliliyin pozulması ilə yanaşı, həm də heyvanların məhsuldarlığının azalmasına, onların çoxalma qabiliyyətinin pozulmasına, hazır məhsulların keyfiyyətinin aşağı düşməsinə və yeni doğulan körpələrin yaşama qabiliyyətinə də təsir göstərə bilir. Mastitdən yaranan iqtisadi ziyanlara süd məhsuldarlığının azalması, müalicə və profilaktika xərcləri, inəklərin çıxdaş edilməsi ilə bağlı xərclər, aşağı keyfiyyətli ağız südü ilə bəslənən buzovların xəstələnməsi, ölməsi və s. aid edilir. Xəstəlik zamanı bir inəkdən süd itkisi, statistik məlumatlarına görə, illik süd məhsuldarlığının orta hesabla 15-20%-ni təşkil edir. Heyvandarlıq üçün ən böyük təhlükə kliniki mastitlərdən daha tez-tez baş verən subklinik mastitdir. Heyvandarlıq təsərrüfatlarında heyvanların subklinik mastitinin müayinəsi çox vaxt aparılmır və buna görə də xəstə heyvanlardan alınan süd ümumi südə qarışır və bu təhlükəlidir, çünki xəstələrin südündə orqanizmə mənfi təsir göstərən patogenlər və onların toksinləri ola bilər və insanların ağır intoksikasiyasına və mədə-bağırsaq traktının ağır xəstəliklərinə gətirib çıxara bilir. Mastitin patologiyasında aparıcı rol streptokoklar və stafilokoklara aid olduğundan, südə ən çox məhz onlar düşürlər. Belə ki, qida toksikoinfeksiyalarının, xüsusilə stafilokok infeksiyalarının yayılmasında südün rolu dəfələrlə faqotipizasiya yolu ilə təsdiq olunmuşdur. Süd vəzində iltihabi proses həmçinin aşağı və yüksək temperaturların, müxtəlif kimyəvi maddələrin təsiri nəticəsində də yarana bilər. İnəklərin sağım texnologiyasının pozulması zamanı mastit ən çox aseptik iltihab şəklində başlayır. Sonradan baş verən yoluxmalar fonunda mikrofloranın iştirakı ilə septiki proses inkişaf edir. İnəklərdə süd vəzinin müxtəlif patologiyalarının baş verməsi, kliniki ola-

raq aydın şəkildə görünən iltihabın müxtəlif formalarına keçir və yaxud bütün laktasiya dövründə gizli şəkildə davam edərək, yelin paycıqlarının atrofiyasına və nəticədə süd məhsuldarlığının əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

Mastitlərin diaqnostikasında CMT-kaliforniya mastitis testindən istifadə olunur. Mastitlərin müalicəsində etiotrop vasitələr qismində antibakterial preparatlardan, məsələn, mastivin, mastikan, mastiloksdan, qlükokortidlər (ksimast) əsasında hazırlanmış məlhəmlər və linimentlərdən, kazein laxtalarının həll olunması üçün fermentlər əsaslı preparatlardan (mastizm) və yelinə sesteraldaxili yeridilməsi üçün nəzərdə tutulmuş, mikrobəleyhi fəallığa malik olan digər kimyəvi terapevtiki birləşmələrdən istifadə olunur. Südünü qurutmuş inəklərdə mastitin qarşısının alınması üçün DC mastisin kimi uzun müddətli təsir göstərən dərmanlar verilir. Süd vəzinin vəziyyətinə nəzarət qurutma dövrünə keçməzdən 2 həftə sonra və gözlənilən doğuma 2 həftə əvvəl aparılır və zəruri hallarda müalicə təyin edilir. Mastitlərin patogenetik müalicəsində novokain-antibiotik blokadaları tətbiq edilir. Əgər yaranma səbəbləri aradan qaldırılmasa, sadəcə müalicə tədbirləri mastit xəstəliyinin yayılmasının effektiv şəkildə qarşısını ala bilməz. Profilaktik tədbirlər mastitin yaranma səbəblərinin və onun yaranma ehtimalını artıran amillərin aradan qaldırılmasına, süd vəzisinə patogen və şərti patogen mikroorqanizmlərin daxil olmasının qarşısının alınmasına, heyvanların ümumi müqavimətinin və lokal müqavimətinin artırılmasına yönəldilməlidir.

Mastit xəstəlikləri zamanı əsas iqtisadi ziyanın əmələ gəlməsinə səbəb olan göstəricilər aşağıdakılardır: 1.Süd məhsuldarlığının azalması; 2.Südün keyfiyyətinin dəyişməsi; 3.Süddə yağ və zülalların aşağı düşməsi; 4.İnəklərin istismar müddətinin qısalması; 5.Yeni doğulmuş buzovlarda mədə-bağırsaq xəstəliklərinin baş verməsi; 6.Körpə buzovlar arasında ölüm hallarının olması; 7.İnəklərin vaxtından əvvəl çıxdaş edilməsi; 8.Xəstə

**https://doi.org/10.36719/2025/XII**

inəklərin müalicə-profilaktikasına sərf olunan xərclər. Xəstəliyin heyvandarlığa vurduğu iqtisadi ziyanı hesablamaq üçün qeyd olunan göstəriciləri bir-bir araşdırıb, təhlil etmək və nəticədə sərf olunan və ya itirilən maliyyə xərclərini hesablamaq lazımdır. Bu məqsədlə hesablamalar apararkən inəklərin saxlanma, bəslənmə şəraiti, onların cinsi, yaşı, laktasiya dövrü, yelin və əmcəklərin sanitariya-gigiyena vəziyyəti, baytarlıq xidməti və normativlərə uyğun olaraq yemləndirilməsi nəzərə alınmalıdır. Normal süddən bir sıra süd məhsulları-pendir, yağ, kefir, şor, xama, qaymaq və s. hazırlanır. Bunun üçün südün keyfiyyətli olması, mikrobioloji cəhətdən təmiz və texnoloji cəhətdən yararlı olması çox vacibdir. Çünki keyfiyyətsiz süddən keyfiyyətsiz də süd məhsulları alınar və bəzən isə süd məhsulu texnoloji baxımdan yararsız ola bilər. Belə məhsullar isə bazarda alınmır, tez xarab olur, iqtisadi zərərə səbəb olur. Süd məhsulunun azalması nəticəsində mastitli hər baş inək təsərrüfata orta hesabla 300-400 manat, südün keyfiyyətinin dəyişilməsilə mastitli xəstə inəyin südündən hazırlanmış süd məhsullarının orta hesabla 300 manat, süddə yağ və zülalların miqdarının aşağı düşməsilə orta hesabla 600 manat, inəklərin istismar müddətinin qısalması hesabına hər bir fermaya orta hesabla 4000-5000 manat, yeni doğulmuş buzovlarda mədə-bağırsaq xəstəliklərinin baş verməsi və ölüm hallarının olması heyvandarlığa orta hesabla 200 manat iqtisadi zərər verir.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 108-110**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection/108-110**
**https://doi.org/10.36719/2025/XII**

**Gülay Hacıyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0003-0346-7183
glyhjyffa0716@mail.com

# Xara yosununun bioloji xüsusiyyətləri

***Açar sözlər:*** *Göygöl, xara yosunu, şirin su, növ, əhəmiyyət*
***Keywords:*** *Goy-gol, algae, fresh water, species, importance*

Su xarici faktorlardan biri kimi su və bataqlıq bitkiliklərinin formalaşması və inkişafında böyük əhəmiyyət daşımışdır. Su və bataqlıq bitkiləri arasında suya müxtəlif cür uyğunlaşmış növlər vardır. Tarixən qədim növlər - hidatofitlər quru həyat tərzi ilə tamamilə əlaqəni kəsmiş, əsl su mühitinin bitkiləri olmuşlar. Onların bütün inkişaf dövrünün suda keçməsinə baxmayaraq, bəzi bitkilər öz morfoloji quruluşlarını dəyişərək müəyyən müddətdə sudan kənarda yaşamağa uyğunlaşmışlar.

Suda-quruda yaşayan bitkiliklərin formasiya sinfi. Bu sinfə aid olan bitkilər geniş ekoloji amplitudaya malikdirlər. Su bitkiləri assosiasiyalarına nisbətən buradakı assosiasiyalar növlərlə daha çox zəngindirlər.

Su bitkiliyi quraqlıq bitkiliyi assosiasiyaları arasındakı su hövzələrinə və bataqlaşmış məskən şəraitlərinə uyğunlaşmışlar. Belə hövzələrə istər torpaq səthinə çıxmış qrunt suları tərəfindən əmələ gələn təbii və istərsə də insanlar tərəfindən yaradılmış süni hövzələr, o cümlədən kanallar aiddir.

Respublikamızın su bitkiliyinin əmələ gətirdikləri assosiasiyaların sayı və ayrı-ayrı ekoloji qruplardakı növlərin miqdarı sahilyanı-çəmən və çəmən bataqlıqlara nisbətən kasıbdır.

**https://doi.org/10.36719/2025/XII**

Yosunların böyük praktik əhəmiyyəti vardır, bunlar müxtəlif məqsədlər üçün istifadə oluna bilər. Bildiyimiz kimi yosunlar əsas qida mənbələrindən biridir. Bunlardan bir çox növləri insan qidasını, dəniz heyvanlarının, xüsusilə balıqların, xərçənglərin və s. yemini təşkil edir.

Su bitkilərinin inkişafı üçün Göy-göldə yayılmış su bitkiləri şirin sularda, bataqlaşmış və rütubətli ərazilərdə geniş yayılmışlar. Bu bitkilərdən xara yosunlarını (*Chrophyta*) misal göstərmək olar;

**Xara yosunları** – (lat. CHAROPHYTA) – ibtidai bitkilər qrupudur. Bəzi təsnifatlara görə bu bitkilərə müstəqil şöbə, digərlərinə görə isə yaşıl yosunlar şöbəsinin bir sinfi kimi baxılır. Xaralar həm ali bitkilərin, həm də yosunların xüsusiyyətlərini özündə birləşdirir. Onların qalıqları devon dövrünə aid edilir. Bunlar digər yaşıl yosunlardan çoxhüceyrəli və mürəккəb quruluşlu cinsiyyət orqanları və ali bitkilərə bənzər tallomları ilə fərqlənir. Tallomun hüceyrələri bir neçə qatda, yəni daxili və xarici qatlarda yerləşir. Nəticədə, tallomun örtük qatı əmələ gəlir. Tallomunun quruluşu ilə canlı nümunələrdə və herbarisində tanış olmaq mümkündür. Tallomun iriliyi 15-18 *sm-ə* qədərdir.

Burada da gövdə, kök (rizond) və yarpağabənzər hissələr vardır.

Xaralar başlıca olaraq sakit axan şirin sularda, gilli su hovuzlarında, dayaz gölməçələrdə və başqa yerlərdə geniş yayılmışdır. Bunlara Respublikamızın aran dağətəyi və dağlıq hissələrində, məsələn Abşeronda, Göygöldə və Masallıda olan şirin su göllərində təsadüf edilir.

Hal-hazırda bu şöbənin bir sinfi, bir sırası, üç fəsiləsi, 6 cinsi (nitella, xara və b.) və 300-dən (400-dən çox şirin su hövzələrində və dənizlərlərin şirin su sahələrində, yumşaq qruntlar üzərində yaşayan növü məlumdur. Xaralar sinfinə bir neçə cinsli xarakimilər (*Characeae*) fəsiləsi daxildir. Fəsilənin əsas nümayəndəsi, şirin sularda geniş yayılmış xara (*Chara*) cinsi hesab olu-

nur. Növ tərkibinə görə də ən böyük cins - xara cinsidir. Bu növlər kosmopolitlərdir və daha dayaz su hövzələrində yaşayırlar. Onlar üçün optimal dərinlik 1-1,5 m-dir. Onlar çirkli suda inkişaf edə bilmirlər. Bu qrupa aid nümayəndələrin quruluşunu analiz edərkən, onları ali bitkilərlə qarışdırmaq mümkündür. Bu onunla əlaqədardır ki, xaralar həm ibtidai yosunların, həm də ali bitkilərin xüsusiyyətlərini özündə birləşdirir, bu da onların funksiyasında özünü biruzə verir. Xaralar şöbəsinə aid nümayandələr digər yaşıl yosunlardan çoxhüceyrəli və mürəkkəb quruluşlu cinsiyyət orqanları və ali bitкilərə bənzər tallomları ilə fərqlənirlər. Bunlarda "gövdə", кок (rizoid) və yarpağabənzar hissələr vardır. Fəsilənin əsas nümayandəsi şirin sularda geniş yayılmış xara *(Chara)* cinsi hesab olunur.

Xara yosunlarına aşağıdakı növlər aiddir: Xara Aspera, Nitella, Fleksilis, Sinkarp nitellası və b. Bəzi növlər su hövzələrinin kənarlarında, digərləri isə dənizlərdə, göllərdə yaşayırlar. Onların hüceyrələrində A və B qrup xlorofillərin, eləcədə ehtiyat maddəsi kimi nişastanın olması müəyyən edilmişdir. Adətən xara yosunları böyük qruplar şəklində yaşayaraq sualtı çəmənlər formalaşdırırlar. Onlar yumşaq su hövzələrində daha çox yayılırlar. Xaralar sərt suyu yumşaltmaq xüsusiyyətinə malikdirlər.

Xara yosunlarının quruluşu. Xaralar kifayət qədər iri, çoxhüceyrəli, tallomlarının ölçüsü 20-30 sm-dən 1-2 m çatan yosunlardır. Xarici görünüşünə görə bu yosunlar ali bitkilər – qatırquyruğukimilərə oxşayırlar. Lakin onların orqanizmində gövdə, yarpaq və köklər müşahidə edilmir.

Bitkilər insan üçün həmişə material bazası olub, onun özü və ev heyvanları üçün qida və başqa əşyalarla təmin edir və bunları nəzərə alaraq təbii qarşılıqlı tədqiqi, bizə təbii ehtiyatlardan səmərəli istifadə yollarını müəyyən etməyə və təbiəti qorumağa imkan yaradır.

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 111-115**
***Modern Requirements in Science and Education*** **XII Theses Collection/111-115**
**https://doi.org/10.36719/2025/XII**

**Aytac Cabbarova**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-4029-360X
aytac.a.cabbarova@gmail.com

# Bioloji müxtəlifliyin qorunması və regional inkişaf strategiyaları

***Açar sözlər:*** *bioloji müxtəliflik, regional inkişaf, ekosistem xidmətləri, meşə bərpası, Azərbaycan və bioloji müxtəliflik, iqtisadi inkişaf və biomüxtəliflik*
***Keywords:*** *biological diversity, regional development, ecosystem services, reforestation, Azerbaijan and biological diversity, economic development and biodiversity*

Bioloji müxtəlifliyin qorunması və iqtisadi inkişaf. Bioloji müxtəlifliyin qorunması bəşəriyyətin qarşısında duran ən mühüm ekoloji çağırışlardan biridir. Bu qorumanın yalnız ekoloji tədbirlər deyil, eyni zamanda iqtisadi və sosial yanaşmalar vasitəsilə həyata keçirilməsi mümkündür. Məhz bu səbəbdən bioloji müxtəlifliyin qorunması ilə iqtisadi inkişafın inteqrasiyası məsələsi aktuallıq qazanır. İqtisadi fəaliyyətlərin bioloji müxtəlifliyin qorunmasını həm əsas məqsəd, həm də yan məhsul olaraq dəstəkləyə biləcəyi yanaşması bu sahədə yeni perspektivlər açır. Hazırkı yanaşmaların məhdudluğu, əsasən, iqtisadi stimulların əlverişsizliyindən və bazar strukturlarının qeyri-kafi təşkilindən irəli gəlir. Bu sahədəki təşəbbüslər daha çox xüsusi mühafizə tədbirləri ilə məhdudlaşır. Məsələn, milli parklar və biosfer qoruqları çərçivəsində həyata keçirilən tədbirlər və ya üzvi kənd təsərrüfatının müxtəlifliyə müsbət təsirləri kimi nümunələr buna misal göstərilə bilər. Lakin bu cür təşəbbüslərin genişmiqyaslı

**https://doi.org/10.36719/2025/XII**

iqtisadi modellərə inteqrasiyası hələ də kifayət qədər inkişaf etməyib (OECD, 1996).

İsveçrədə həyata keçirilən bir layihə bu mövzuda uğurlu nümunə kimi çıxış edir. Layihədə ənənəvi buğda növlərindən biri olan emmer (Triticum dicoccum) aşağı daxilolma rejimi ilə becərilməyə təşviq edilmişdir. Bu təşəbbüs yalnız məhsul istehsalına deyil, həm də ekoloji kompensasiya sahələrinin idarə olunmasına və buğdadan hazırlanan müxtəlif məhsulların bölgədə istehsalına və paylanmasına yönəlmişdir. Layihə göstərir ki, bioloji müxtəlifliyi qoruyan iqtisadi fəaliyyətlər bu şərtlər daxilində uğurlu ola bilər: Layihənin əsasını yerli istehsal amilləri və sahibkarlıq təşkil edir, bu yanaşma bölgəyə xas resursların səmərəli istifadəsini təmin edir. Ənənəvi və ekoloji dəyərlərə əsaslanan məhsullar xüsusi bazarlarda üstünlük qazanır və iqtisadi baxımdan əlverişli olur. Layihə həm iqtisadi gəlirliliyi, həm də sosial və ekoloji təsirləri nəzərə alaraq balanslı bir yanaşma təqdim edir.

Bu model bioloji müxtəlifliyin qorunmasını, regional inkişaf strategiyalarına inteqrasiya etməyin mümkünlüyünü göstərir. Belə təşəbbüslər həm təbii resursların davamlı istifadəsini təmin edir, həm də yerli icmalar üçün iqtisadi imkanlar yaradır.

Regional inkişafın bioloji müxtəlifliyə təsiri. Millennium Ecosystem Assessment (MEA) 2005 hesabatı, regional inkişafın bioloji müxtəlifliyə təsirlərini ətraflı şəkildə təhlil edir. Hesabatda qeyd olunur ki, regionlarda həyata keçirilən iqtisadi inkişaf və infrastruktur layihələri ekosistemlər üzərində mühüm təsirə malikdir. Həmin təsirlər, ekosistem xidmətlərinin azalması və bioloji müxtəlifliyin itirilməsi kimi nəticələrə yol aça bilər. Hətta bir çox hallarda iqtisadi inkişafın sürətləndirilməsi, təbii resursların həddindən artıq istifadəsinə və ekosistemlərin deqradasiyasına səbəb olmuşdur. MEA hesabatı həmçinin, yerli əhali üçün bioloji müxtəlifliyin qorunmasının iqtisadi faydalarını vur-

ğulayaraq, davamlı inkişafın əhəmiyyətini önə çıxarır (Millennium Ecosystem Assessment, 2005).

OECD (Organisation for Economic Co-operation and Development) 2011-ci il tarixli "Regional Development" hesabatı da, regional inkişafın bioloji müxtəlifliyə müsbət təsirlərini ətraflı şəkildə izah edir. Bu hesabat, yerli resursların davamlı istifadəsini təşviq edən strateji yanaşmaların, ekosistemlərin qorunmasına və regional iqtisadiyyatın inkişafına necə töhfə verdiyini göstərir. Birincisi, regional inkişaf proqramları, yerli təbii sərvətləri mühafizə edərək, onların davamlı istifadəsini təmin edir. Regional inkişafın bu müsbət təsiri, kənd təsərrüfatı və meşəçilik kimi sahələrdə dayanıqlı praktikaların tətbiqi ilə daha da güclənir. İkincisi, regional inkişaf strategiyaları ekoturizm və kənd təsərrüfatı kimi sahələrdə ekosistemlərin qorunmasını təmin edərək yerli iqtisadiyyatı canlandırır. Bu fəaliyyətlər, ekosistem xidmətlərindən gələn gəlirləri artırmaqla yanaşı, bioloji müxtəlifliyin qorunmasına da şərait yaradır. Beləliklə, iqtisadi inkişafla bioloji müxtəlifliyin qorunması arasında tarazlıq qurulmuş olur. Üçüncüsü, regional inkişaf layihələri ekosistemlərin bərpası və bioloji müxtəlifliyin artırılması yönündə də müsbət təsir göstərir. Təbiətin qorunmasına və ekosistem xidmətlərinin bərpasına yönəlmiş təşəbbüslər, ekosistemlərin gücləndirilməsi və zənginləşdirilməsi üçün mühüm addımlar atır.

Azərbaycan Respublikasında Bioloji Müxtəlifliyin Qorunması və Regional İnkişaf Strategiyaları. Azərbaycan Respublikasının zəngin təbii sərvətləri və bioloji müxtəlifliyi ölkənin ekoloji və iqtisadi potensialının təməlini təşkil edir. Lakin artan antropogen təsirlər nəticəsində ekosistemlərin deqradasiyası, flora və fauna növlərinin məhvi kimi problemlər ortaya çıxmışdır. Bu problemlərin həlli məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 1368 nömrəli Sərəncamı ilə “Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı” təsdiq edilmiş-

dir. Strategiyanın əsas məqsədi bioloji müxtəlifliyin qorunması, onun səmərəli istifadəsinin təmin edilməsi və ekoloji tarazlığın bərpasıdır. Eyni zamanda, bioloji müxtəliflik regional inkişafla sinerji yaradacaq şəkildə qorunur. Yerli flora və fauna növlərindən istifadə etməklə kənd təsərrüfatının inkişafı və müasir texnologiyaların tətbiqi bu istiqamətdə atılan əsas addımlardandır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycanda müasir ekoloji texnologiyalar tətbiq edilir, genetik ehtiyatların qorunması üçün kompleks tədbirlər həyata keçirilir. Bu yanaşma həm ölkənin ekoloji resurslarının davamlı istifadəsini təmin edir, həm də regional iqtisadiyyatın inkişafına töhfə verir. Bu strategiya Azərbaycanın yalnız milli səviyyədə deyil, həm də qlobal miqyasda bioloji müxtəlifliyin qorunmasına töhfəsini gücləndirir. Eyni zamanda, erməni işğalı dövründə Qarabağda nadir bitki və heyvan növləri məhv edilmiş, meşələr yandırılmış və təbii resurslar talan edilmişdir. Bu vandalizm bioloji müxtəlifliyi ciddi təhlükə altına salmışdır. Hazırda Azərbaycan Qarabağda bioloji müxtəlifliyin qorunmasına yönəlmiş tədbirlər görür (Azərbaycan Respublikasında Bioloji Müxtəlifliyin qorunması Və Davamlı İstifadəsinə Dair Milli Strategiya və Fəaliyyət Planının Təsdiq Edilməsi Haqqında Azərbaycan Respublikasının Sərəncamı, 2006)

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Bioloji Müxtəlifliyin qorunması və Davamlı İstifadəsinə Dair Milli Strategiya Və Fəaliyyət Planının Təsdiq Edilməsi Haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. e-qanun.az
2. Entrepreneurship in biodiversity conservation andregional development. IRMI SEIDL, OLIVER SCHELSKE and JASMIN JOSHI. Institut fu¨ R umweltwissenschaften, universita¨ Tzu¨ rich, winterthurerstrasse190, CH-8057 zu¨ rich, switzerland.

**https://doi.org/10.36719/2025/XII**

3. Millennium Ecosystem Assessment (MEA) Reports (2005)
4. "OECD (Organisation for Economic Co-operation and Development) Report on Regional Development (2011)"
5. OECD 1996 Saving Biological Diversity. Economic Incentives (Paris: Organisation for Economic Cooperation and Development)

*Elm və Təhsildə Müasir Tələblər* **XII Tezislər Toplusu / 116-118**
*Modern Requirements in Science and Education* **XII Theses Collection/116-118**
**https://doi.org/10.36719/2025/XII**

**Şahin Bəkirli**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0001-7178-1700
bekirlisahin75@gmail.com

# Göygöl ərazisində yayılan su-bataqlıq bitkiliyi, onun bioekoloji xüsusiyyətləri və əhəmiyyəti

***Açar sözlər:*** *Göygöl, su-bataqlıq bitkiliyi, bioekologiya, növ, göl, bataqlıq, xalq təsərrüfat əhəmiyyəti*
***Keywords:*** *Goy-gol, wetland vegetation, bioecology, species, lake, swamp, the importance of public economy*

Bitki hər bir ölkənin qiymətli sərvətidir. Bitkiləri öyrənmək və onların səmərəli istifadəsini araşdırmaq vacib məsələlərdən biridir. Məlumdur ki, zəngin floraya malik olan ölkəmizdə müxtəlif bitkilik tipləri ilə yanaşı su-bataqlıq bitkiliyi də geniş yayılmışdır. Tədqiqat işinin yerinə yetirilməsi üçün növ zənginliyi ilə fərqlənən Göygöl florasının su-bataqlıq bitkiliyi tədqiqat obyekti seçilmişdir. Məqsəd ərazinin su-bataqlıq florasının əhəmiyyətli növlərini aşkara çıxarmaq və gələcək nəsillərə çatdırılmasından ibarətdir. Həmçinin ərazinin su-bataqlıq florasında yayılan bitkilərin taksonomik tərkibini, biomorfoloji xüsusiyyətlərini, coğrafi yayılmasını, ərazi bitkiliyində yayılma qanunauyğunluqlarını müəyyənləşdirməklə ekologiyasının təhlilini vermək. Faydalı növlərinin xalq təsərrüfatında səmərəli istifadə olunma perspektivlərini aşkara çıxarmaq və dərman, qida, texniki məqsədlərlə istifadə etdilən bitkilərin toplanması zamanı həm də mühafizəsi üçün növlərin təbii bərpasını, yox olma təhlükəsini, xüsusən yay mövsümündə ərazinin çirklənmə səbəb-

**https://doi.org/10.36719/2025/XII**

lərini aydınlaşdırmaq və qarşısını almaq üçün lazımi tədbirlər sistemi işləyib hazırlamaqdan ibarətdir.

Su bitkilərinin əksəriyyəti sellüloza, lif və kağız istehsalı üçün yaxşı xammal materialı olmaqla, həm də xalq təsərrüfatının müxtəlif sahələrində, xüsusən də balıqçılıqda, heyvandarlığın inkişafında möhkəm yem bazası, insanlar üçün qida, dərman və başqa məqsədlər üçün xammal, eləcə də su faunasının mühafizəsini təmin etməklə yanaşı, həm də onların inkişafı üçün mühitin qurulmasında su-bataqlıq bitki örtüyünün rolu əvəzsizdir.

Aparılan tədqiqat işi bu baxımdan çox aktualdır və Göygöl ərazisində yayılan su-bataqlıq bitkilərinin ərazi florasında özünəməxsus xüsusiyyətə malik olmasını, həm də zəngin və rəngarəngliyi ilə fərqlənməsini aşkara çıxarır. Bu bitkilər Göygöl, Maralgöl, Zəligöl və digər meşə göllərinin ətrafında gur inkişaf etmiş bitkilər olmaqla, hündürboylu bitkilik yaradırlar. Əraziyə baxış zamanı bu növlərin sahildən su hövzəsinə doğru suda-quruda yaşayan bitkilər formasiyasını, onlar isə tədricən əsl su bitkiləri formasiyası ilə əvəz olunduğu qeydə alındı.

Tədqiqat obyektində bataqlıq bitkiliyi geniş əraziləri əhatə etmir, onlar əsasən bulaq, dərə və göl sularının yaxınlığında kiçik talalar formasında bitkilik qrupları əmələ gətirmişlər. Araşdırmalar nəticəsində məlum oldu ki, bitkilik tipində əsasən cillər, cığlar, lığvər, çətirvari suoxu, sürünən qaymaqçiçəyi kimi bitkilər əsas rol oynayır. Bataqlıq bitkiləri hiqrofit ekoloji qrupuna aiddirlər. Ərazidə bu qrupa *Phragmites australis, Carex* L., *Rumex* L., *Pyrethrum* Zinn, *Ranunculus repens* L., *Butomus umbellatus* və s. kimi bitkilərin olduğu aşkarlandı.

Tədqiq olunan su bitkiləri növ tərkiblərinin müxtəlifliyinə və rəngarəngliklərinə görə daha zəngin olmaqla yanaşı su hövzələrində yerləşməsinə görə də bir birindən fərqlənirlər. Ərazidə hidrofitlər qrupuna aid olan bitkilərin əksəriyyəti yarpaqları ilə

**https://doi.org/10.36719/2025/XII**

su üzərində üzən bitkilər və sualtı bitkilər zonasını əmələ gətirirlər. Tədqiqat ərazisinin bitkiləri əsasən su üzərində üzən yarpaqlarla və əsas gövdəsinin su altında olması ilə xarakterizə olunurlar. Araşdırmalardan məlum oldu ki, su hövzələrində suçiçəyi, lemna, xara, buynuzyarpaq, su icilosu, oxyarpaq və s. kimi bitkilər əsil su bitkiləri formasiyasını əmələ gətirirlər.

Tədqiqat 2023-ci ildən aparılır və davam etdirilməsi nəzərdə tutulmuşdur. Mütəmadi olaraq tədqiq olunan Göygöl ərazisinə səyahətlər edilir. Su hövzələrinin bitkiləri araşdırılaraq morfoloji, sistematik, ekoloji təhlil olunur. Göl, çay və dərə senozları növ tərkiblərinin müxtəlifliyinə görə çox fərqlənirlər. Bu rəngarəngliyi yaradan fitosenozların müxtəlifliyin səbəbi isə əsasən suyun axma sürətindən, dərinliyindən, ərazinin qurşaqlar üzrə paylanmasından və qruntun xüsusiyyətindən asılıdır. Burada su yarpızı, baldırqan kimi bitki növləri cəngəllik formasında qruplaşmalar əmələ gətirərək dərə və çay boyunca paylanmışlar. Dərə və bulaq suları senozunda isə su çayotu, yarpız, cığ, subibəri, bulaqotu, ürəkotu kimi bitkilərin geniş yayıldığı qeyd olundu və tədqiq olunan ərazidə bu növlərin ehtiyatının həm də çox olması aşkarlandı.

Qeyd etmək lazımdır ki, aparılan araşdırmalardan məlum oldu ki, son zamanlar tədqiq olunan Göygöl göllərin bir sıra problemlərin olmasının şahidi olduq, bu isə ərazinin müxtəlif istiqamətli antropogen təsirə məruz qalmasından irəli gəlir, belə təsirlər heç də tədqiqat ərazisinin su hövzələrini flora və bitkiliyindən yan keçməmiş, öz ciddi təsirini göstərmişdir. Ona görə də ərazinin su hövzələrinin müasir flora və bitkiliyinin vəziyyəti, onların bioloji məhsuldarlığı, ekoloji vəziyyəti, qorunması və səmərəli istifadəsi üzrə olan məsələlərin öyrənilməsi çox vacib və aktualdır.

**https://doi.org/10.36719/2025/XII**

**Günel Ağazadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0003-9342-8793
gunel.agazade1996@mail.ru
**Rəmalə Orucova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0000-0002-5566-060X
orucovaremale@gmail.com
**Sevinc Musayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0009-9671-9071
musayeva.sevinc11@gmail.com

# Bitki genomunun öyrənilməsində istifadə olunan molekulyar markerlər

***Açar sözlər:*** *ISSR, RAPD, genom, marker, SSR*
***Keywords:*** *ISSR, RAPD, genome, marker, SSR*

Hər bir seleksiya proqramının müvəffəqiyyət qazanması, cari populyasiyanın genetik müxtəlifliyi, strukturu və potensialı haqqında əldə ediləcək informasiyanın həcmindən asılıdır. Belə ki, müxtəlifliyin olmadığı yerdə seçim də yoxdur və nümunələrin genetik yaxşılaşdırılması qeyri-mümkündür. Genetik müxtəlifliyin təyini üçün müxtəlif üsullar mövcuddur. Genetik polimorfizmin öyrənilməsi üçün morfoloji əlamətlər, biokimyəvi markerlər və s. kimi müxtəlif metodlar istifadə olunmuşdur. Genetik marker dedikdə, fərdləri təyin və bir-birilə müqayisə etməyə imkan verən və nişan rolunu oynayan hər hansı bir allel, bənd (geldə) və ya əlamət başa düşülür. Uzun zaman müxtəlifliyin təyinində başlıca olaraq morfoloji əlamətlərdən istifadə edilmişdir. Respublikamız da daxil olmaqla, keçmiş Sovet İtti-

**https://doi.org/10.36719/2025/XII**

faqına daxil olan ölkələrdə dünyanın digər ölkələri ilə müqayisədə bitkilərin təsnifatı çox dərindən öyrənilmiş və biomorfoloji əlamətlər əsasında növ daxilində populyasiyaların qiymətləndirilməsi həyata keçirilmişdir. Zəngin genetik ehtiyatların toplanması, qorunması, qiymətləndirilməsi və pasportlaşdırılması olduqca əhəmiyyətlidir. Son vaxtlar aparılmış molekulyar tədqiqat işlərinin nəticələri göstərmişdir ki, eyni növmüxtəlifliyinə malik olan nümunələr arasında polimorfizm yüksək olmur və bununla belə növmüxtəliflik əlamətləri nümunələrin genetik müxtəlifliyinin qiymətləndirilməsində müəyyən rola malikdir. Şübhəsiz ki, ətraf mühit faktorlarının təsiri altında olan morfoloji əlamətlər vasitəsilə genetik müxtəlifliyin təyini təbii ki, dəqiq deyil. PZR spesifik DNT lokusunun qısa müddətdə sürətlə artırılmasıdır. Genom səviyyəsində genetik variasiyaların aşkar edilməsi üçün DNT marker texnologiyası təkmilləşdirilmiş və beləliklə, DNT səviyyəsində müxtəlif metodlar (AFLP, RAPD, SSR, SCAR və s.) əsasında genetik müxtəlifliyin tədqiqi mümkün olmuşdur. Molekulyar markerlər çoxlu sayda allel formaları olan müəyyən bir DNT fraqmentidir. Molekulyar markerlər DNT-nin aktiv hissələri (genlər) və ya hər hansı bir genetik kodlaşdırma funksiyasına malik olmayan DNT fraqmentləri şəklində ola bilər. Morfoloji markerlərlə genomun yalnız bir hissəsi – ekspressiya olunmuş hissəsi öyrənildiyi halda, molekulyar analizlərlə həm də genomun "susmuş", fenotipik baxımından müşahidə olunmayan, neytral mutasiyaların baş verdiyi qeyri-funksional hissələri tədqiq edilir. Molekulyar markerlər ayrı-ayrı genotiplərin DNT ardıcıllığındakı polimorfizmini müxtəlif şəkillərdə üzə çıxarır, genetik variasiyanı müəyyən edir, bir-birinə morfoloji cəhətdən çox yaxın olan mədəni növləri ayıra bilir və taksonomik, filogenetik qohumluqları təyin edir. Molekulyar markerlər əvvəlcədən DNT səviyyəsində öyrənilmiş və təsbit edilmiş müəyyən canlılara məxsus gen, genlər qrupu və xüsusi bir əlaməti izləmək üçün istifadə ediləcək təyinedicidir. Eyni za-

**https://doi.org/10.36719/2025/XII**

manda molekulyar markerlər müşahidə oluna bilən morfoloji markerlərə və əsası proteinə söykənən biokimyəvi markerlərə (izoenzimlər və toxumun ehtiyat proteinləri və s.) nisbətən daha etibarlı olub, sayları həddən artıq çoxdur. Hər bir marker üsulu bir-birindən müsbət və mənfi cəhətlərinə görə fərqlənsə də, seleksiyada SSR və SNP analizlərindən istifadə daha çox tövsiyə olunmuşdur. SSR, RAPD, STS və s. markerlərdən istifadə edilməsi, genetik müxtəliflilyin müəyyən edilməsi cəhətdən ən əlverişli üsuldur. İqtisadi cəhətdən əhəmiyyətli hesab edilən kənd təsərrüfatı bitkilərinin markerlərlə öyrənilməsi onların DNT marker xəritələrinin yaradılmasına xidmət etməklə gələcəkdə seleksiya elmi üçün böyük perspektivlər yaratmışdır. Bitki genomunun öyrənilməsi üçün daha çox aşağıdakı markerlərdən istifadə olunur: RFLP, CAPS, RAPD, SCAR, AFLP, SSAP, SSR, ISSR, DArT və TNP.

**https://doi.org/10.36719/2025/XII**

## TEXNİKA ELMLƏRİ
## TECHNICAL SCIENCES

**Asəf Əliyev**
Naxçıvan Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-9406-7743
aliyevasef@ndu.edu.az

# Yol-nəqliyyat hadisələri zamanı piyadaların vurulmasına səbəb olan amillər və onların aradan qaldırılması yolları

***Açar sözlər:*** *avtomobil nəqliyyatı, yol nəqliyyat hadisəsi, piyadanın vurulması, piyadanın yaralanması, yolların kənarının çəpərlənməsi*

***Keywords:*** *car transport, traffic transport accident, pedestrian hit, pedestrian injury, fencing of roadsides*

Son zamanlar bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da nəqliyyat vasitələrinin sayı artmaqdadır. Avtomobil parkının inkişafı, yük və sərnişin daşımalarının artması yol nəqliyyat hadisələri nəticəsində insanların ölümü, yaralanması hallarına və maddi itkilərin artmasına səbəb olur.

Belə ki, Azərbaycanda yol nəqliyyat hadisələrində həlak olanların sayı 2020-ci ildə 696 nəfər, 2021-ci ildə 706 nəfər, 2022-ci ildə 834 nəfər, 2023-cü idə isə 862 nəfər olmuşdur.

Yaralananların sayı isə 2020-ci ildə 1410 nəfər, 2021-ci ildə 1452 nəfər, 2022-ci ildə 1456 nəfər, 2023-cü ildə isə 1367 nəfər olmuşdur (AR Dövlət Statistika Komitəsi, 2023).

Yol nəqliyyat hadisələrinin öyrənilməsində ən çətin, həm də tam öyrənilməyən məsələ onların baş vermə səbəblərinin müəy-

yən edilməsidir. Qeyd edək ki, hər bir yol nəqliyyat hadisəsi bir neçə səbəbdən baş verə bilər. Orta hesabla hər 100 yol nəqliyyat hadisəsinə 250 səbəb və amil düşür. Odur ki, nəqliyyat vasitələri ilə piyadaların vurulması hadisələrinin öyrənilməsi və araşdırılması hər zaman öz aktuallığını saxlamaqdadır.

Məhdud olmayan görmə şəraitində piyadanın vurulması hadisələrinə (Əliyev, 2021), tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadanın vurulmasi hadisələrinə (Əliyev, 2022), məhdud görmə şəraitində piyadanın vurulması hadisələrinə (Əliyev, 2023), ixtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisələrinə (Əliyev, 2024) baxılmışdır.

Burada isə avtomobil yollarında piyada keçidlərində və keçid olmayan yerlərdə piyadaların vurulması hadisələri nəzərdən keçirilmişdir.

Araşdırmalar göstərmişdir ki, piyadaların vurulması şəhərlərdə daha çox keçid olmayan yerlərdə və piyada keçidlərində olmuşdur. Piyadaların vurulmasının qarşısının alınması üçün təklif edirəm ki, şəhərlərdə mümkün olan yerlərdə yolların kənarının çəpərlənməsi həyata keçirilsin. Düşünürəm ki, bu tədbirlər piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin azalmasına və ölüm hallarının aradan qaldırılmasına səbəb ola bilər.

## Ədəbiyyat

1. AR Dövlət Statistika Komitəsi. (2023). *Azərbaycanda nəqliyyat. Statistik məcmuə*.
2. Əliyev, A. (2021). Məhdud olmayan görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatı. *BMU. Gənc tədqiqatçıların V Beynəlxalq elmi konfransı*. səh.104-109.
3. Əliyev, A. (2022). Tərpənməz maneə ilə məhdudlaşan müşahidəlik şəraitində piyadanın vurulması hadisələrinin

**https://doi.org/10.36719/2025/XII**

ekspert tədqiqatı. *BMU. Gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransı*. səh.836-838.

4. Əliyev, A. (2023). Məhdud görmə şəraitində piyadanın vurulması hadisələrinin ekspert tədqiqatları. *BMU. Gənc tədqiqatçıların VII Beynəlxalq elmi konfransı*. səh.1166-1171.
5. Əliyev, A., Orucov, T. (2024). İxtiyari istiqamətdə hərəkət edən piyadanın vurulması hadisələrinin ekspert tədqiqatları. *BMU. Gənc tədqiqatçıların VIII Beynəlxalq elmi konfransı*. səh. 831-835.

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Şəhla Süleymanova**
Şagirdlərin estetik tərbiyəsinin inkişafında bədii yaradıcılıq fəaliyyətinin rolu ............ 7
**Ayəddin Əliyev, Aydan Əlizadə**
İbtidai siniflərdə aparılan oyunların psixoloji əsasları ............ 11
**Yaqub Səmədov**
Dağlıq Qarabağ bölgəsində həyata keçirilən antiterror əməliyyatı və onun nəticələri (19-20 sentyabr 2023-cü il) ............ 13
**Zahidə Hüseynova**
Adaptiv bədən tərbiyəsinin vasitələri............ 18
**Tahmina Nabiyeva**
The Use of Mimicry to Learn Vocabulary of Foreign Language ............ 22
**Günel Məmmədova**
İdmanın sosioloji funksiyaları............ 25
**Sevinc Abdullayeva, Elxan İmranov**
Döyüş fəaliyyətindən sonra hərbi qulluqçuların psixoloji reabilitasiyası ............ 28
**Əfqan Qasımov**
Müasir dövrdə peşəkar idmanın maliyyələşdirilməsinin mənbələri və formaları ............ 32
**Sənəm Cəfərova**
Gəmiçilik əməliyyatları üçün sahil xətti potensialının qiymətləndirilməsi ............ 36
**Qurban Məmmədov**
Müəssisələrin istehsal fəaliyyətində menecment sisteminin rolu ............ 40

**Sultan Hidayətov**
Morfologiyanın tədrisində istifadə olunan müasir təlim üsulları ........................................................................ 44
**Nadir Qocayev**
Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında tənzimləmə mexanizmi ................................................................... 48
**Süleyman Muradlı**
Yeniyetmələrdə fiziki tərbiyəyə maraq yaratmağın innovativ metodları .................................................................. 51
**Nemət Məmmədov**
İdmançının hazırlığında psixo-pedaqoji tələblərin vahidliyi ...................................................................... 54
**Xəzər Atakişizadə**
Məktəblərdə fiziki tərbiyənin qlobal inkişaf perspektivlərinin qiymətləndirilməsi .............................................. 58
**Elmar Əliyev**
Maliyyə-vergi nəzarətinin zəruriliyi və dövlət idarəetməsində rolu ........................................................................... 61
**Elnur Cəfərov**
Mülki aviasiyada innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi ...................................................................... 68
**Kamran Fərəcov**
Büdcə-fiskal siyasətin iqtisadiyyata təsir metodları ............... 74
**Fidan Ələkbərova**
Turizm xidməti bazarında dövlət-biznez tərəfdaşlığının inkişaf istiqamətləri ................................................................... 81
**Müşfiq Tarıverdiyev**
Kiçik yaşlı məktəblilərin tərbiyəsində məktəb ilə ailənin birgə işi ................................................................................. 86
**Səməd Qasımov**
İdarəetmə sisteminin effektivliyinin meyarları ..................... 90
**Günay İsmayılova**
Banklarda etik davranış qaydalarının icrasında mövcud problemlər və onların həlli yolları ....................................... 93

**Müşfiq Tarıverdiyev**
Mobinq və bullinqin təhsilin idarə edilməsinə təsiri və effektiv yanaşmalar ........................................................................ 96

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Xalıqverdi Babayev, Nahid Əzizli, İlhaməİbrahimova**
Feyxoa bitkisinin azotla qidalanmasının optimallaşdırlılması ........................................................... 100
**Rəhim Bilalov, Mirkamran Mehtizadə**
Mastit xəstəliyi zamanı iqtisadi zərər ................................... 104
**Gülay Hacıyeva**
Xara yosununun bioloji xüsusiyyətləri ................................ 108
**Aytac Cabbarova**
Bioloji müxtəlifliyin qorunması və regional inkişaf strategiyaları ......................................................................... 111
**Şahin Bəkirli**
Göygöl ərazisində yayılan su-bataqlıq bitkiliyi, onun bioekoloji xüsusiyyətləri və əhəmiyyəti ............................................... 116
**Günel Ağazadə, Rəmalə Orucova, Sevinc Musayeva**
Bitki genomunun öyrənilməsində istifadə olunan molekulyar markerlər ......................................................................... 119

## TEXNİKA ELMLƏRİ
## TECHNICAL SCIENCES

**Asəf Əliyev**
Yol-nəqliyyat hadisələri zamanı piyadaların vurulmasına səbəb olan amillər və onların aradan qaldırılması yolları ............. 122

İmzalandı: 09.02.2025
Onlayn çap: 12.02.2025
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 8 ç.v.
Sifariş: 14

---

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 99 808 67 68
+994 12 510 63 99
e-mail: info@aem.az